HEYDƏR ƏLİYEV İRSİNİ ARAŞDIRMA MƏRKƏZİ
HEYDAR ALIYEV HERITAGE RESEARCH CENTER

# İlham Əliyev: "Mən jurnalistləri vətənpərvərliyə çağırıram"

# Ilham Aliyev: "I challenge the journalists to patriotism"

Bakı - 2010

*"İlham Əliyev: Mən jurnalistləri vətənpərvərliyə çağırıram" kitabı Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin və "Kaspi" qəzetinin birgə ərsəyə gətirdiyi və Azərbaycanda milli mətbuatın yaradılmasının 135 illiyinə həsr etdikləri ikinci kitabdır. Kitabda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli mətbuatın 135 illik yubileyinin geniş qeyd edilməsi barəsində sərəncamından yubileyə qədər olan dövr ərzində dövlət səviyyəsində görülmüş tədbirlər iki dildə oxuculara çatdırılır.*

ISBN 978 - 9952 - 444 - 39 - 1

«Apostrof» Çap Evi

*© Heydər Əliyev İrsini Araşdırma Mərkəzi 2010*

Heydər Əliyev İrsini Araşdırma Mərkəzi
Heydar Aliyev Heritage Research Center

www.aliyevheritage.org

# İlham Əliyev:
## «Mən jurnalistləri vətənpərvərliyə çağırıram»

# Ilham Aliyev:
## «I challenge the journalists to patriotism»

KASPİ
www.kaspi.az

**“Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin nəşrləri” seriyasının məsləhətçisi:**

Asəf Nadirov,

Heydər Əliyev İrsini Araşdırma Mərkəzi Elmi-Redaksiya Şurasının sədri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü

**Elmi məsləhətçi və ön sözün müəllifi:**

Əli Həsənov,

Azərbaycan Respublikası Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri, tarix elmləri doktoru, professor

**Buraxılışa məsul:**

Vurğun Süleymanov

**Yaradıcı heyət:**

Fuad Babayev, Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin baş direktoru

Natiq Məmmədli, “Kaspi” qəzetinin baş redaktoru

Mətanət Babayeva

Təmkin Məmmədli

Gündüz Nəsibov

**Cildin dizaynı:**

Cavanşir Əzizov

**Səhifələmə:**

Elşən Ağayev

Kitabda AzərTAc-ın, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytının (www.president.az) materiallarından istifadə edilmişdir.

Kitabın fotoblokunda Azərbaycan Respublikası Prezidenti Mətbuat xidmətinin fotomateriallarından istifadə edilmişdir.

*Azərbaycan jurnalistikası cəmiyyət qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi və həlli işinə əhəmiyyətli töhfələr vermişdir.*

*Heydər Əliyev*

# Ön söz



*Əli Həsənov,*

*Prezident Administrasiyası İctimai - siyasi məsələlər şöbəsinin müdiri, tarix elmləri doktoru, professor.*

2010-cu ildə milli mətbuatımızın 135 illik yubileyinin yüksək səviyyədə və olduqca geniş miqyasda qeyd olunması Azərbaycanda fəaliyyət göstərən KİV-lər üçün dövlət qayğısının bariz nümunəsi olmaqla yanaşı, onların gələcək inkişafı üçün böyük perspektivlər açdı. Ümumilikdə, 2010-cu ilin iyul ayı Azərbaycan milli mətbuatının 135 illiyi ilə bağlı tədbirlərin keçirilməsinə həsr olundu. Bütün bölgələrdə, müvafiq nazirliklər və qurumlarda bu kimi tədbirlər keçirilərək fərqlənmiş jurnalistlər mükafatlandırıldı.

İyunun 10-da Azərbaycan Prezidenti İlham Əliyev milli mətbuatın 135 illik yubileyinin geniş qeyd edilməsi barədə sərəncam imzaladı. Həmin sərəncamda respublikanın şəhərlərində və paytaxtda yubiley tədbirlərinin keçirilməsi, mətbuat işçilərinin mükafatlandırılması, fəxri adların təqdim olunması ilə bağlı tapşırıqlar verilmişdir. Sərəncamdan irəli gələn vəzifələri yerinə yetirmək üçün Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin imzaladığı tədbirlər planında respublikanın bir çox regionlarında yubileyin geniş keçirilməsi nəzərdə tutulurdu. Bu tədbirlərdən bir neçəsi rayonlarda - Zərdab, Yevlax, Gəncə, Şəki, Lənkəran və Xaçmazda keçirildi. Sonuncu tədbir isə 22 iyul tarixində “Gülüstan” sarayında geniş ictimaiyyət və mətbuat nümayəndələrinin iştirakı ilə təşkil edildi.

Prezident İlham Əliyevin iyulun 22-də imzaladığı “Azərbaycan Respublikasının mətbuat işçilərinə fəxri adların verilməsi haqqında” Sərəncama əsasən Azərbaycan milli mətbuatının inkişafındakı xidmətlərinə görə 38 nəfərə “Əməkdar Jurnalist”, 15 nəfərə “Əməkdar Mədəniyyət işçisi” və 1 nəfərə “Əməkdar

Mühəndis” fəxri adları verildi. Eyni zamanda 38 nəfər “Tərəqqi” medalı ilə təltif edildi.

Dövlət başçısının həmin tarixdə imzaladığı “Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin maliyyələşdirilməsi və Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımının göstərilməsi haqqında” Sərəncama əsasən Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin keçirilməsi və bir sıra kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi məqsədi ilə Prezidentin Ehtiyat Fondundan bir milyon manat məbləğində vəsait ayrıldı, 32 qəzet redaksiyasının hər birinə 20 min manat, 8 informasiya agentliyinin hər birinə 10 min manat birdəfəlik yardım göstərildi.

Bundan başqa, ölkə Prezidenti jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onlar üçün yaşayış evlərinin tikilməsinə Prezidentin Ehtiyat Fondundan 5 milyon manat maliyyə vəsaitinin ayrılması haqqında qərar qəbul etdi.

Xüsusi vurğulamaq lazımdır ki, il ərzində jurnalistlər üçün nəzərdə tutulan həvəsləndirici müsabiqələrin sayı nəzərə çarpacaq qədər artmış, müxtəlif dövlət qurumları bu işə yaxından dəstək olmuşlar. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən həmin ayda Milli Mətbuatın 135 illik yubileyi ilə bağlı jurnalistlər arasında fərdi yazı müsabiqəsi elan edildi. “Gülüstan” sarayında keçirilən tədbirdə bu müsabiqənin 30 qalibi 1000 manat pul mükafatı və Fondun fəxri diplomu ilə mükafatlandırıldı. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə ekologiya mövzusunda təşkil olunmuş müsabiqədə hər istiqamətdən 3 qalib olmaqla 9 istiqamət üzrə 37 jurnalist mükafatlandırıldı. Onlardan 27-si 1-ci, 2-ci və 3-cü yerlə təltif olundu, 10 nəfər isə həvəsləndirici mükafatlar aldı. Burada birinci yer üçün 1000 manat, 2-ci yer üçün 800 manat, 3-cü yer üçün 600 manat, həvəsləndirici yerlər üçün isə 300 manat pul mükafatı ayrıldı. Ümumilikdə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 24 min manatlıq mükafat fondu yaradılmışdı. Fondun Təhsil Nazirliyi ilə birgə keçirdiyi müsabiqədə isə mükafat fondu 8 min manat təşkil edirdi. Müsabiqədə 16 qalib mükafatlandırıldı. Burada da eyni qayda ilə 1-ci, 2-ci, 3-cü yer və həvəsləndirici mükafatlar nəzərdə tutulmuşdu. 1-ci yer üçün

1500 manat, 2-ci yer üçün 1000 manat, 3-cü yer üçün 500 manat və 10 nəfər jurnalistə həvəsləndirici mükafat olaraq 300 manat pul təqdim olundu. Oxşar müsabiqələr Baş Prokurorluq, Rabitə və İnformasiya Texnologiyaları, Daxili İşlər, Fövqəladə Hallar, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliklərində və digər mərkəzi icra hakimiyyəti orqanlarında da keçirilmişdir.

Prezident İlham Əliyev Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə keçirdiyi görüşdə medianın bugünkü vəziyyətini müsbət qiymətləndirildiyini vurğuladı: "Hesab edirəm ki, bizim mətbuatımız böyük və uğurlu yol keçibdir. Elə etməliyik ki, problemlərin həlli işində birgə fəaliyyət göstərək. Bu, bizim ümumi işimizdir. Bizim ümumi məqsədimiz ondan ibarət olmalıdır ki, Azərbaycanı hərtərəfli şəkildə inkişaf etdirək, müasir dövlətə çevirək, dünyada mövcud olan bütün mütərəqqi təcrübəni tətbiq edək, insanların bütün azadlıqlarını təmin edək, hüquqi dövlət quruculuğu işində daha da böyük addımlar ataq. Ancaq bu halda Azərbaycan uzunmüddətli və dayanıqlı inkişaf imkanlarını tam şəkildə ortaya qoya bilər".

Cənab prezident çıxışında jurnalistlərin məsuliyyəti ilə bağlı mövqeyini bildirdi və öz tövsiyələrini verdi: "Jurnalistlər çox məsuliyyətli olmalıdırlar. Burada qərəzsiz mövqe çox vacibdir. Mən media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında müstəqil medianın gücləndirilməsində görürəm. Çünki hələ ki, bizdə bu sahədə, xüsusilə yazılı mediada siyasiləşmə meylləri çox güclüdür. Ola bilər ki, bu, müəyyən mərhələdə - Azərbaycanda siyasi sistem, siyasi münasibətlər formalaşdığı bir dövrdə qaçılmaz idi. Ancaq mən hesab edirəm ki, bu gün medianın inkişafı üçün siyasiləşmə prosesi gərək azalsın. Çünki birinci növbədə, Azərbaycan cəmiyyəti siyasiləşmiş cəmiyyət deyildir. Azərbaycan cəmiyyəti vətənpərvər cəmiyyətdir". Cənab prezident dövlətin müstəqil Azərbaycan mediasının inkişafına daim dəstək olacağını vurğulayaraq, jurnalistləri vətənpərvər olmağa çağırdı. Ümumiyyətlə, dövlət başçısının konsepsiya xarakterli çıxışı Azərbaycan dövlətinin jurnalistikanın, xüsusən də müstəqil mətbuatın inkişafına verilən yüksək qiyməti kimi dəyərləndirilməlidir.

Bütün bunlar göstərir ki, sözün həqiqi mənasında 135 illiyi-

ni qeyd etdiyimiz Azərbaycan milli mətbuatı böyük və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə qabaqcıl ictimai ideyaların carçısı olmuşdur. Digər ifadə vasitələrinin kifayət qədər inkişaf etmədiyi bir zamanda mətbuat xalqın geniş dairələrini düşündürən, zehnini məşğul edən problemləri diqqət mərkəzinə gətirmiş, ictimaiyyətin müzakirəsinə çıxarmışdır. Mətbuatımız öz mütərəqqi ənənələrini formalaşdırmış, cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirmişdir.

1875-ci il iyulun 22-də Həsən bəy Zərdabi "Əkinçi" qəzetini nəşr etdirməklə öz xalqını maarifləndirmək, onu dünyada baş verən ictimai, siyasi, mədəni, iqtisadi inkişafla tanış etmək və inkişaf yoluna çıxarmaq məqsədini qarşıya qoymuşdu. Milli mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maariflənmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl prinsiplər rolunu oynadı.

"Əkinçi" ilə əsası qoyulmuş milli mətbuat sonrakı dövrdə Azərbaycan maarifçiləri tərəfindən inkişaf etdirilmişdir. Həmin dövrdə elm, təhsil, mədəniyyət və digər sahələrdə tanınmış insanlar qarşılarında duran mühüm vəzifələri yerinə yetirmək üçün mətbuatın imkanlarından istifadə etmişlər. Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov, Mirzə Ələkbər Sabir, Üzeyir bəy Hacıbəyli, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Məmmədağa Şaxtaxtinski və digər qabaqcıl Azərbaycan ziyalılarının bilavasitə iştirakı ilə buraxılan "Kaspi", "Şərqi-rus", "Həyat", "Molla Nəsrəddin", "Füyuzat", "Kəşkül" kimi qəzet və jurnallarımızın adları əbədi olaraq Azərbaycan mətbuat tarixinə daxil olmuşdur.

Sovet hakimiyyəti dövründə Azərbaycan mətbuatı sosialist realizmi prinsipləri əsasında fəaliyyət göstərsə də, inkişafını davam etdirmişdir. İdeoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikrə də yer verən, o dövr üçün doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli özünüdərkin formalaşmasında böyük rolu olmuşdur. Bu illərdə yetişmiş yeni jurnalist nəslinin elmin, mədəniyyətin, milli-mənəvi

dəyərlərin, ictimai şüurun inkişafında xidmətləri böyükdür. Azərbaycan jurnalistikasının çoxsaylı görkəmli nümayəndələri milli mətbuatımıza yeni nəfəs gətirmişlər. Azərbaycan dilinin, mədəniyyətinin inkişafında mətbuatın rolu artmış, jurnalistika yeni-yeni ənənələrlə, dəyərlərlə zənginləşdirilmişdir.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqillik tarixinin əsasını qoydu. Məhz bu dövrdə dövlətimizin idarəçilik mexanizmləri formalaşdırıldı, ölkəmiz müstəqil dövlət olaraq beynəlxalq birliyə uğurla inteqrasiya etdi. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyada söz, fikir və məlumat azadlığı ilə bağlı konkret müddəalar əksini tapmışdır. Əsas Qanunun 47-ci maddəsində göstərilir ki, hər kəsin fikir və söz azadlığı vardır. Konstitusiyanın 50-ci maddəsi isə hər kəsin qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığını təsbit edir. Bu maddə informasiya azadlığına təminat verməklə yanaşı, kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurasını qadağan edir.

Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırıldı, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırıldı. Azərbaycan Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər KİV-lərdə dövlət sirlərini mühafizə edən baş idarə ləğv edildi. Bununla hərbi senzuranın tətbiq edilməsi haqqında Azərbaycan Prezidentinin 16 aprel 1992-ci il tarixli Fərmanı və bütün informasiya yayımı üzərində nəzarəti nəzərdə tutan 15 aprel 1993-cü il tarixli Sərəncamı qüvvəsini itirdi. Senzuranın ləğvi demokratik cəmiyyət olaraq Azərbaycanın perspektiv inkişaf xəttinə uyğun gəlirdi. Fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi müstəqil KİV-in inkişafının, vətəndaşların beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığının təmin edilməsində mühüm rol oynadı. Bu siyasətin ardıcıllığını təmin

etmək məqsədilə 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması ilə dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edildi.

Kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılması, Azərbaycanda demokratik mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. 1999-cu ilin dekabrında qəbul olunmuş və 2001-2002-ci illərdə beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində dəyişikliklər edilmiş “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanunu söz və məlumat azadlığına, KİV-lərin və jurnalistlərin müstəqilliyinə təminat verir, mətbuat azadlığını məhdudlaşdıran tədbirlərin tətbiqini qadağan edir.

Əlbəttə, KİV qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması barədə danışarkən, “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında”, “Məlumat azadlığı haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”, “Ətraf mühitə dair informasiya almaq haqqında” Azərbaycan Respublikasının qanunlarının əhəmiyyətini qeyd etməmək mümkün deyil.

Heydər Əliyev həmişə jurnalistika peşəsinə dərin hörmət bəsləmiş, mətbuat işçiləri ilə yaxın təmasda olmuş, onların problemləri ilə maraqlanmış və heç vaxt köməyini əsirgəməmişdir. Ulu öndər kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi, onlara müvafiq güzəştlərin təyin edilməsi istiqamətində ardıcıl qərarlar qəbul etmiş, müvafiq fərman və sərəncamlar imzalamışdır. 1998-ci ilin sonunda KİV-lərin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə qəzet redaksiyaları əlavə dəyər vergisindən azad edildi. Milli Məclis tərəfindən qəbul edilmiş Vergi Məcəlləsində KİV-lərin fəaliyyətinin stimullaşdırılması, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması, maddi-texniki bazasının gücləndirilməsi üçün əlverişli şərtlər yaradıldı. Azərbaycan Prezidentinin 6 mart 2000-ci il tarixli Sərəncamı ilə 2000-2001-ci illərdə KİV-lərin maddi-

texniki şəraitinin yaxşılaşdırılması haqqında tədbirlər Proqramı təsdiq edildi. Sənəddə jurnalist kadrları hazırlayan təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, KİV-lər tərəfindən rabitə, nəqliyyat, kommunal xidmətlər üçün minimal tariflər nəzərdə tutulmuşdu. Azərbaycan Prezidentinin 2001-ci il 20 iyul tarixli “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında” Fərmanı ilə ölkəyə gətirilən qəzet kağızına gömrük rüsumları ləğv olundu, qəzetlərə uzunmüddətli və güzəştli kreditlər verilməsi qərara alındı. Azərbaycan Prezidentinin 5 sentyabr 2002-ci il tarixli Sərəncamı ilə Sahibkarlığa Kömək Milli Fondundan KİV sahəsində layihələrin maliyyələşdirilməsi üçün 3 milyard manat ayrıldı. 2003-cü il yanvarın 9-da qəzetlərin dövlətin tabeliyində olan “Azərbaycan” nəşriyyatına borclarının 3 il müddətinə dondurulması haqqında Sərəncam imzalandı.

Beləliklə, azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, mətbuat işçiləri ilə mütəmadi görüşlər ənənəsinin yaradılması, KİV-lə bağlı problemlərə operativ və prinsipial müdaxilə Heydər Əliyevin azad sözə və onun daşıyıcılarına münasibətini səciyyələndirən faktlardır. Heydər Əliyev 2000-ci ildə imzaladığı Fərmanla Azərbaycan milli mətbuatının yubileylərinin ölkə səviyyəsində qeyd edilməsi, ümumiyyətlə, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsasını qoymuşdur. 2002-ci ilin martında Heydər Əliyevin “Jurnalistlərin dostu” seçilməsi ümummilli liderin demokratiyanın mühüm prinsiplərindən olan söz və məlumat azadlığının, kütləvin informasiya vasitələrinin inkişafına diqqət və qayğısının məntiqi nəticəsi olmuşdur. Ümummilli liderin nurlu xatirəsi Azərbaycan mətbuatının tarixində, Azərbaycan jurnalistlərinin qəlbində əbədi yaşayacaq, Azərbaycan jurnalistləri bu böyük insanı həmişə hörmətlə anacaqlar.

Hazırda öz inkişafının mühüm mərhələsini yaşayan müstəqil Azərbaycan Respublikasında güclü iqtisadi potensialın yaradılması, vətəndaş cəmiyyəti quruculuğunun sürətləndirilməsi,

ölkəmizin beynəlxalq nüfuzunun artırılması, ümummilli problemlərin milli maraqlara uyğun həlli istiqamətində məqsədyönlü və ardıcıl siyasət həyata keçirilir. Heydər Əliyevin siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev cəmiyyət həyatında kütləvi informasiya vasitələrinin rolunu yüksək qiymətləndirərək demokratik, müstəqil KİV-lərin inkişafına əlverişli şərait yaradılmasını öz siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyev KİV qanunvericiliyinin təkmilləşdirilməsi, mətbuatın maddi-texniki bazasının gücləndirilməsi məqsədilə çoxsaylı fərman və sərəncamlar imzalamış, qanunvericilik aktları təsdiq etmişdir. 2003-cü ildə Avropa Şurası ilə əməkdaşlıq şəraitində “Televiziya və Radio Yayımı haqqında” Qanunun qəbul edilməsi və elektron KİV sahəsində qanunvericiliyə nəzarət funksiyasını həyata keçirən müstəqil dövlət orqanı kimi Milli Televiziya və Radio Şurası yaradılması, Azərbaycan Dövlət Televiziyası və Radiosunun “Azərbaycan Televiziyası və Radio Verilişləri” QSC-yə çevrilməsi, 2004-cü ildə “İctimai Televiziya və Radio Yayımı haqqında” Qanunun qəbul edilməsi, 2005-ci ildə isə AzTV 2-nin bazasında İctimai Televiziya və Radio Yayımları Şirkətinin fəaliyyətə başlaması Azərbaycanın demokratik inkişaf xəttinə uyğun sistemli liberal islahatların davamlılığını təsdiq edən addımlardır.

2005-ci il sentyabrın 30-da vətəndaşların, o cümlədən jurnalistlərin informasiya almaq azadlığının tam reallaşdırılması üçün Azərbaycan Prezidentinin Sərəncamı ilə “İnformasiya əldə etmək haqqında” Qanun təsdiq edildi. Jurnalist təşkilatları, ATƏT və Avropa Şurasının ekspertlərinin iştirakı ilə hazırlanmış həmin sənəd bu gün də Avropa məkanında ən mütərəqqi qanunvericilik aktlarından hesab olunur.

2005-ci ildən başlayaraq mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi məqsədilə tədbirlərin miqyası genişləndirildi. Həmin ilin iyulunda milli mətbuatın 130 illik yubileyi ilə əlaqədar mətbuat işçilərinin mükafatlandırılması haqqında Azərbaycan Preziden-

tinin sərəncamları imzalandı, 140-dan artıq jurnalist Prezident təqaüdü, dövlət mükafatı və fəxri adlara layiq görüldü, 35 redaksiyaya maliyyə yardımı göstərildi. Mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə 2006-cı il fevralın 8-də imzalanmış "Qəzetlərin Azərbaycan nəşriyyatına olan borclarının ödənilməsi barədə" Sərəncama əsasən redaksiyaların "Azərbaycan" nəşriyyatına 450 min ABŞ dolları həcmində borcu dövlət büdcəsindən ödənildi. 2005-ci ildən bu günə kimi Azərbaycanda 300-ə yaxın KİV əməkdaşı dövlət mükafatlarına və fəxri adlara layiq görülmüşdür. 2008-ci ildə 38 redaksiyaya 5 min manat, 2009-cu ildə isə 39 redaksiyaya 10 min manat məbləğində yardım ayrılmışdır. Xüsusilə qeyd etmək lazımdır ki, maddi yardımın göstərilməsində mətbuat orqanları arasında heç bir ayrı-seçkiliyə yol verilməmişdir.

Azərbaycan Prezidentinin modernləşmə kursu, cəmiyyət həyatının bütün sahələrində müşahidə olunan yeniləşmə, informasiyalı cəmiyyətə keçid, ölkəmizin dünya informasiya məkanına daxil olması dövlətin və cəmiyyətin qarşısında yeni vəzifələr müəyyənləşdirmişdir. Hazırda dövlətin informasiya siyasəti Konstitusiyada əks olunmuş fikir, söz və məlumat azadlığının, vətəndaşların informasiya əldə etmək hüququnun ardıcıl və tam təmin edilməsinə yönəlmişdir. Digər tərəfdən, şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində məqsədyönlü tədbirlərin həyata keçirilməsi zərurətə çevrilmişdir.

Azərbaycan Prezidentinin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" cəmiyyətin və dövlətin qarşısında duran bu vəzifələrin uğurla reallaşdırılması məqsədilə kompleks tədbirlər nəzərdə tutan mühüm sənəddir. Konsepsiyada əks olunmuş məsələlərin həlli üçün 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu artıq sistemli tədbirlər həyata keçirməkdədir. 2009-cu ildə dövlət büdcəsindən Fonda 1.3 milyon manat, 2010-cu ildə isə 2 milyon manat ayrılmışdır. Bu günə kimi Fond KİV layihələrinin maliyyələşdirilməsi və fərdi jurnalist yazılarının

mükafatlandırılması ilə bağlı 4 müsabiqə keçirmişdir. Qarşıdan gələn illərdə Fondun büdcəsinin artırılması və bu qurum xəttilə həyata keçirilən tədbirlərin miqyasının genişləndirilməsi nəzərdə tutulmuşdur.

Bu gün Azərbaycan Respublikasında qabaqcıl, dünya standartlarına uyğun azad, plüralist mətbuat formalaşmışdır. Ölkədə 4200-dən çox mətbuat orqanı uçota götürülmüş, qəzet və jurnallardan 300-ə yaxını müntəzəm, qalanları isə müxtəlif fasilələrlə işıq üzü görür. Təsis edilən qəzet və jurnallar müxtəlif siyasi, ictimai mövqeli təşkilatlara, özəl qurumlara və fiziki şəxslərə məxsusdur. Bölgələrdə 100-ə yaxın mətbuat orqanı nəşr olunur. Respublikada çoxlu sayda elmi-praktiki, ictimai-siyasi, sosial-iqtisadi və digər jurnallar işıq üzü görür, uşaq və qadın problemlərini işıqlandırır. Azərbaycanda rus, ləzgi, talış, gürcü, avar, kürd milli azlıqlarının dillərində qəzetlər çıxır. Eyni zamanda ingilis, fransız, alman, ərəb və başqa dillərdə mətbuat orqanları nəşr olunur.

Hazırda 40-dan artıq milli informasiya agentliyi Ədliyyə Nazirliyində uçota götürülmüş, ölkədə onlarla jurnalist təşkilatı fəaliyyət göstərir. Azərbaycanda 8 ümumrespublika, 1 peyk, 14 regional və 13 kabel televiziyası var.

“Internet World Stats” beynəlxalq monitorinq təşkilatının son məlumatlarına əsasən, Azərbaycanda internetin istifadə səviyyəsi 44,4 faiz təşkil edir. 2010-cu ilin iyun ayına olan vəziyyət üzrə ölkədə internet istifadəçilərinin sayı 3,7 milyona yaxın olub. Qeyd etmək lazımdır ki, dünya üzrə internetin orta istifadə səviyyəsi 26,6 faiz təşkil edir. Yəni Yer kürəsinin 1,8 milyarddan çox əhalisi Qlobal Şəbəkədə təqdim olunan xidmətlərdən istifadə edir.

Azərbaycanda son illər ərzində həm şəhər, həm kənd əhalisinin internetə çıxışla təmin olunması istiqamətində ciddi işlər görülür. Nəticədə respublikada informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun inkişafı üçün “AzDataCom” şəbəkəsinin yaradılmasına dair layihə reallaşdırılıb, eləcə də internet xidmətlərin qiymətlərinin endirilməsi üzrə işlər yerinə yetirilib. Təkcə 2009-cu ildə qiymətləri təqribən 5 dəfə azaltmaq mümkün olub. Azərbaycanda 30-dan çox internet xidmətləri

təchizatçıları – provayder şirkətlər fəaliyyət göstərir. Respublikada provayder xidmətlərinin təqdim olunması üçün lisenziya tələb olunmur.

Ölkədə güclü, müstəqil, obyektiv informasiya daşıyıcısı olan, insanların informasiya almaq ehtiyacını ödəyən, onları beynəlxalq aləmdə, respublika daxilində baş vermiş hadisələrlə düzgün məlumatlandıran, eyni zamanda dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirən, milli maraqların təəssübkeşi olan mətbuatın formalaşması və inkişafı dövlətin media siyasətinin əsas fəlsəfəsini təşkil edir.

Milli Mətbuatın 135 illiyi ilə bağlı yubiley tədbirlərinə həsr olunan, Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin və “Kaspi” qəzetinin birgə ərsəyə gətirdiyi bu kitabda cənab Prezidentin milli mətbuatın 135 illik yubileyinin geniş qeyd edilməsi barədə sərəncamından iyul ayının 22-nə – milli mətbuat gününə qədər dövlət səviyyəsində görülmüş tədbirlər iki dildə oxuculara çatdırılır. Kitab müstəqillik illərində Azərbaycanda söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi məqsədilə həyata keçirilən dövlət siyasəti haqqında obyektiv təsəvvür formalaşdırılması üçün lazımlı əyani vəsait, milli mətbuatımızın 135 illiyinə layiqli hədiyyədir və ümidvaram ki, oxucuların ürəyincə olacaqdır.

*Sərəncamlar*

## Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2010-cu ildə zəngin tarixi ənənələrə malik Azərbaycan milli mətbuatının 135 ili tamam olur. 1875-ci il iyulun 22-də görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.

Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur. XlX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində "Əkinçi" ənənələrini davam etdirən "Ziya", "Kəşkül", "Şərqi-rus", "Həyat", "İrşad", "Molla Nəsrəddin" və digər nəşrlər insanları yüksək ideallar uğrunda mübarizəyə səsləmiş, milli oyanış və özünüdərk prosesinin aparıcı nümunələri kimi tanınaraq şöhrət qazanmışlar. Azərbaycan mətbuatı xalqımızın azadlıq arzularının gerçəkləşməsinə, mənəvi dəyərlərinin qorunmasına, mədəniyyətinin tərəqqisinə, qabaqcıl ictimai fikrin, milli şüurun formalaşmasına böyük töhfələr vermişdir.

XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikasında söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinə zəruri şərait yaradılması prioritet vəzifə kimi müəyyənləşdirilmişdir. Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Heydər Əliyevin fərman və sərəncamları ilə mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin azad fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata

keçirilmiş, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulmuşdur. Hazırda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkətləri, sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayırlar.

Ölkəmizin sürətlə inkişaf etdiyi, demokratikləşmə prosesinin dərinləşdiyi, cəmiyyət həyatının bütün sahələrinin yeniləşdiyi müasir dövrdə kütləvi informasiya vasitələrinin, o cümlədən milli mətbuatımızın qarşısında yeni vəzifələr durur. Bu gün Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirməlidir. Azərbaycan jurnalistikası peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etməli, söz və məlumat azadlığından sui-istifadənin qarşısı qətiyyətlə alınmalıdır.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da mətbuat qarşıda duran vəzifələri yeni informasiya resurslarının ardıcıl inkişafı ilə şərtlənən mürəkkəb rəqabət mühitində yerinə yetirir. Azərbaycan dövlətinin artan imkanları milli mətbuatımızın inkişafı yolunda çətinliklərin aradan qaldırılması, onun aktual problemlərinin həlli məqsədilə kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Bu gün mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması, dövlət orqanları ilə mətbuat arasında səmərəli əməkdaşlığın inkişafı, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına daha münbit şəraitin yaradılması, onların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövləti və cəmiyyətinin qarşısında duran mühüm vəzifələrdir.

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, demokratikləşmə və müasir vətəndaş cəmiyyəti quruculuğunda milli mətbuatın rolunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan milli mətbuatının 135 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın:

2.1. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgələrində yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. Bir ay müddətində jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 iyun 2010-cu il

# Azərbaycan Respublikasının mətbuat işçilərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan milli mətbuatının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

***«Əməkdar Jurnalist»***

Abışova Vüsalə Mahir qızı
Amaşov Əflatun Əhməd oğlu
Çaladze Tatyana Yevqenyevna
Əhmədli Nəsir Abbas oğlu
Əhmədov Namiq Qədim oğlu
Əliyev Əbülfət Mədət oğlu
Əliyeva İradə Əbdül qızı
Əliyev Nair Ramiz oğlu
Əskərov Ramiz Baxşəli oğlu
Fərəcov Rafiq Ocaqqulu oğlu
Fərzullalı Zahid Səfər oğlu
Hacıyev İsmayıl Alış oğlu
Hətəmli Baxşeyiş Abbas oğlu
Həziyev Bahəddin Musa oğlu
Hüseynov İlqar İqbal oğlu
Hüseynova Gültəkin Knyaz qızı
İsmayılov Dağbəyi Mirzəxan oğlu
İsmayılov Musa Fehruz oğlu
Kərimov Yusif Abbas oğlu
Kərimova Şəmsiyyə Musa qızı
Qafarov Telman Hüseyn oğlu
Qaradağlı Vüqar Aydın oğlu
Quluyev Mikayıl Nəriman oğlu
Məcidov Şamil Curxan oğlu

Məmmədov Elman Telman oğlu
Məmmədov Hikmət Baba oğlu
Məmmədov Məmməd Yarəli oğlu
Məmmədov Natiq Adil oğlu
Məmmədov Tahir Tais oğlu
Məmmədova Pakizə Göyüş qızı
Nəbiyev Fərman Bəhram oğlu
Nəsirov Akif Təvəkkül oğlu
Paşazadə İlqar Tahir oğlu
Rəhmanov Cəmaləddin Ələm oğlu
Sevzixanov Vidadi Səvzixan oğlu
Şükürov İdris Muti oğlu
Tağızadə Şükufə Yusuf qızı
Zeynalov Zeynalabdin İsmayıl oğlu

***«Əməkdar Mədəniyyət İşçisi»***

Abbas Tapdıq Əlikişi oğlu
Abdinov Tofiq Məhərrəm oğlu
Abdullayev Adil Qüdrət oğlu
Babayev Adil Firudin oğlu
Babayev Ağasəf Malik oğlu
Əliyev Yaşar Məmmədəli oğlu
Əliyeva Ruqiyyə Nəriman qızı
Əliyeva Zöhrə Qulamhüseyn qızı
Xayrulin Farix Xabibullayeviç
Məmmədov Afət Sadıx oğlu
Məmmədov Allahverdi Paşa oğlu
Mirzəyev Umud Rəhim oğlu
Oğuz Yunus İsaxan oğlu
Rzayev Bəyəli Səfa oğlu

Rzayeva Elmira Ağamalı qızı

**«Əməkdar Mühəndis»**

Kərimov Elman Hacıbaba oğlu

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri, 21 iyul 2010-cu il

## Azərbaycan Respublikasının mətbuat işçilərinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan milli mətbuatının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Abbasov Arslan Fazil oğlu
Abdulov Arastun Tapdıq oğlu
Ağayev Sarvan Şəmil oğlu
Ağayev Şakir Habil oğlu
Babayeva Natalya Hacıyevna
Balakişiyev Bəxtiyar Qaraca oğlu
Bayramov Qəzənfər Həmid oğlu
Eminbəyli Şakir Vəfa oğlu
Ələkbərli Şamil Sabir oğlu
Ələsgərov İlham Maşallah oğlu
Əliyev Namiq Həsən oğlu
Əliyev Şahyəddin Saleh oğlu
Əliyeva Natalya Valeryevna
Hacıyev Akif Nemət oğlu
Hacıyev Asəf Adil oğlu
Hacıyev Sabir Həbib oğlu
Hüseynli İxtiyar Kərim oğlu
Hüseynov İlqar Məmməd oğlu
Hüseynova Məlahət Mövsüm qızı
Qarayeva Elnurə İsaxan qızı
Qarayev Səxavət Mətləb oğlu
Qardaşlı Valid Əlirza oğlu
Qasımova Tünzalə Yusif qızı
Quliyev Aydın Alqulu oğlu
Quliyev Bəhruz Vaqif oğlu
Kərimov Firudin Rizvan oğlu
Mehdiyev Əyyub Məmməd oğlu
Məhərrəmli Zemfira İsmail qızı
Məmmədov Elçin Məcid oğlu
Məmmədova Mətanət Qüdrət qızı
Mirzəbəyli Elçin Əbdülrəhim oğlu

Niftiyev Niyaz Məmmədəli oğlu
Sadıqova Rəfiqə Yusif qızı
Seyidova Sevinc Mirsucəddin qızı
Umudlu İsmayıl Balı oğlu
Vəliyev Fariz Əhməd oğlu
Yusubov Yusif Hacı oğlu
Yusifova Sevil Şərif qızı

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 21 iyul 2010-cu il

# Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin maliyyələşdirilməsi və Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımının göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 iyun tarixli 959 nömrəli Sərəncamının icrasının təmin edilməsi və bununla əlaqədar tədbirlərin maliyyələşdirilməsi, habelə Azərbaycan Respublikasının bir sıra kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin keçirilməsi və Azərbaycan Respublikasının bir sıra kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi məqsədilə Azərbaycan Respublikasının 2010-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 1,0 milyon manat məbləğində vəsait ayrılsın.

2. Bu Sərəncamın 1-ci bəndi ilə müəyyən edilmiş vəsaitin hesabına:

2.1. Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 280,0 min manat məbləğində birdəfəlik maliyyə yardımı edilsin.

2.2. Aşağıdakı 32 qəzet redaksiyasının hər birinə 20,0 min manat birdəfəlik maliyyə yardımı ayrılsın:

"Ayna" - "Zerkalo" qəzeti
"Azad Azərbaycan" qəzeti
"Azadlıq" qəzeti
"Azərbaycan" qəzeti
"Azerbaydjanskiye izvestiya" qəzeti
"Bakinski raboçi" qəzeti
"Bakı-Xəbər" qəzeti

“525-ci qəzet”
“Bizim yol” qəzeti
“Exo” qəzeti
“Ekspress” qəzeti
“Ədalət” qəzeti
“Həftə içi” qəzeti
“Xalq cəbhəsi” qəzeti
“Xalq qəzeti”
“İki sahil” qəzeti
“Kaspi” qəzeti
“Kaspiy” qəzeti
“Mərkəz” qəzeti
“Mövqe” qəzeti
“Novoye vremya” qəzeti
“Olaylar” qəzeti
“Palitra” qəzeti
“Paritet” qəzeti
“Paralel” qəzeti
“Respublika” qəzeti
“Səs” qəzeti
“Şərq” qəzeti
“Şərq qapısı” qəzeti
“Üç nöqtə” qəzeti
“Yeni Azərbaycan” qəzeti
“Yeni Müsavat” qəzeti

2.3. Aşağıdakı 8 informasiya agentliyinin hər birinə 10,0 min manat birdəfəlik maliyyə yardımı ayrılsın:

ASSA-İRADƏ İnformasiya Agentliyi
“Azadinform” İnformasiya Agentliyi
Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc)
“Azəri-Press” İnformasiya Agentliyi (APA)
“Olaylar” İnformasiya Agentliyi
“Səs” İnformasiya Agentliyi
“Trend” İnformasiya Agentliyi
“Turan” İnformasiya Agentliyi

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 2-ci bəndi ilə müəyyən edilən maliyyə

yardımlarının Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna, qəzet redaksiyalarına və informasiya agentliklərinə köçürülməsini təmin etsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri, 21 iyul 2010-cu il

# Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Zəngin tarixi ənənələrə malik Azərbaycan milli mətbuatı xalqımızın azadlıq amallarının gerçəkləşməsinə, mənəvi dəyərlərinin qorunmasına, müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafına mühüm töhfələr vermişdir. Müstəqillik illərində mətbuatımız daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuş, söz və məlumat azadlığının inkişaf etdirilməsi, mətbuatın maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilmişdir.

Milli mətbuatın inkişafına davamlı dəstəyin təmin edilməsi, habelə mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan mətbuat işçilərinin mənzil-məişət şəraitini yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5,0 (beş) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri, 22 iyul 2010-cu il

*Mərasimlər*

## Mətbuat nümayəndələri ümummilli lider Heydər Əliyevin və Həsən bəy Zərdabinin məzarını ziyarət etmişlər - 22 iyul 2010-cu il

Azərbaycan Mətbuat Şurasının və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun nümayəndələri Milli Mətbuat Günü münasibətilə iyulun 22-də Fəxri xiyabana gələrək, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə güllər düzülmüşdür.

Sonra böyük mütəfəkkir, Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabinin məzarı ziyarət olunaraq önünə əklil qoyulmuşdur.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mətbuat Şurasının yeni binasının açılışında iştirak etmişdir – 22 iyul 2010-cu il

İyulun 22-də Azərbaycan Prezidenti İlham Əliyev Mətbuat Şurasının yeni binasının açılışında iştirak etmişdir.

Dövlət başçısı rəmzi açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu. Birinci mərtəbənin foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkədə kütləvi informasiya vasitələrinin inkişafına diqqət və qayğısını əks etdirən sənədlər və mətbuatla görüşlərinə dair fotolardan ibarət stend vardır. Mətbuat Şurasının sədri Əflatun Amaşov Prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, əsaslı şəkildə və müasir üslubda yenidən qurulmuş ikimərtəbəli binada şura üzvlərinin və əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Binanın ümumi tikinti sahəsi 700 kvadratmetrdir. Ətrafda abadlıq və yaşıllaşdırma işləri aparılmış, binada müasir işıqlandırma, havalandırma, yanğından mühafizə, rabitə sistemləri quraşdırılmışdır. Dövlət başçısı otaqlarda yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, binada xidməti otaqlarla yanaşı, konfrans zalı, müraciətlərin qəbulu, monitorinq qrupu və komissiyalar üçün otaqlar yerləşir. Xidməti otaqlar müasir texniki vasitələr, kompüterlər və mebellə təchiz olunmuşdur. Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Mətbuat Şurasının idarə heyətinin üzvləri ilə görüşdü. İdarə heyətinin üzvlərini dövlət başçısına təqdim edən Əflatun Amaşov Azərbaycanda mətbuatın inkişafına göstərilən qayğıya görə Prezident İlham Əliyevə Mətbuat Şurası üzvlərinin minnətdarlığını çatdıraraq dedi:

- Hörmətli cənab Prezident, Sizi Mətbuat Şurasının yeni inzibati binasında salamlamaqdan məmnunluq duyuruq. Sizin bu gün açılış mərasimimizdə iştirak etməyiniz təkcə Mətbuat Şurası üçün deyil, ölkə jurnalistikası, ümumilikdə media ictimaiyyəti üçün son dərəcə əlamətdar hadisədir. Sizə bir daha “Xoş gəlmisiniz!” deyirik. Mətbuat Şurasının yeni inzibati binasının açılışı Azərbaycan milli mətbuatının 135 illik yubileyinə təsadüf edir. Müasir tələblərə cavab verən belə bir binaya hətta ən inkişaf etmiş ölkələrin mətbuat şuraları həsəd apara bilər. Biz bunu Azərbaycan jurnalistikasına Si-

zin bayram töhfəniz kimi qəbul edirik. Bu, həm də ölkədə aparılan ardıcıl və məqsədyönlü media siyasətinin əyani nümunələrindəndir. Bu siyasətin təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Azərbaycan jurnalistlərinin, bütövlükdə media ictimaiyyətinin onu daim ehtiramla xatırlamasının kökündə bir çox amillər dayanır. Müharibə vəziyyətində olan ölkədə 1998-ci ildə mətbuat üzərindəki senzura götürüldü. Bu addım o dövr üçün çox böyük cəsarət tələb edirdi. Növbəti addım media sahəsindəki qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı oldu. Qanunvericilik dünya standartlarına uyğun şəkildə təkmilləşdirildi. Mətbuata dövlət nəzarətini həyata keçirən Mətbuat və İnformasiya Nazirliyi ləğv edilərək mətbuatın özünütənzimləməsi mexanizminin tətbiqinə şərait yaradıldı. Azərbaycan MDB məkanında mətbuatın özünütənzimləmə funksiyasını rəsmiləşdirdi. Bu məkanda ilk Mətbuat Şurası yaradıldı. Qeyd etmək yerinə düşər ki, hələlik postsovet məkanında belə bir təkmil media institutu mövcud deyildir. 2007-ci ildə Bakıda beynəlxalq ekspertlərin iştirakı ilə keçirdiyimiz konfransda Azərbaycan Mətbuat Şurası MDB məkanı üçün vahid model kimi götürüldü. Qərara alındı ki, həmin ölkələrdə bu sayaq qurumlar yaradılarkən Azərbaycan Mətbuat Şurasının təcrübəsi əsas götürülsün.

Həmin dönəmdə mətbuata dövlət qayğısı ilə bağlı digər çox saylı fakt lar da mövcuddur. Kütləvi informasiya vasitələri məhsulları üzərindən əlavə dəyər vergisinin aradan qaldırılmasını, gömrük rüsumunun götürülməsini, qəzetlərin “Azərbaycan” nəşriyyatına olan borclarının dövlət vəsaiti hesabına silinməsini və s. buna misal göstərmək olar. Hörmətli cənab Prezident, hər bir sahədə olduğu kimi, media sahəsindəki siyasətdə də varislik mövcuddur. Sizin ölkəyə rəhbərlik etdiyiniz ilk gündən mediaya dövlət qayğısının yeni nümunələrinin şahidiyik. Qətiyyətlə demək olar ki, bu, keyfiyyətcə tam yeni bir mərhələdir. Azərbaycan dövlətinin iqtisadi imkanlarının artması mediaya dövlət qayğısını sistemli, uzunmüddətli strategiyaya çeviribdir. Ölkədə KİV-lərə Dövlət Dəstəyi Konsepsiyası kimi mükəmməl bir sənəd qəbul olunmuşdur. Sənəddə nəzərdə tutulan vəzifələrin icrası məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır. Fondun fəaliyyəti müstəqil

mətbuatın inkişafını dəstəkləmək, stimullaşdırmaq, jurnalist əməyini qiymətləndirmək baxımından xüsusilə əhəmiyyətlidir. 2005-ci ildən “İnformasiya əldə etmək haqqında” mükəmməl qanuna malikik. Hörmətli cənab Prezident, bu gün Azərbaycan mediası azaddır, müstəqildir. Baş verən hadisə və prosesləri hər hansı maneələrlə üzləşmədən cəmiyyətə çatdırır. Bu, demokratiyanın inkişafı baxımından çox böyük uğurdur, etibarlı təminatdır. Bayram günündə istəməzdik ki, problemlərdən danışaq. Lakin Sizin burada olmağınızdan istifadə edərək bəzi məsələlərə toxunmaq istərdik. Mətbuat Şurasının əsas missiyası mətbuatla ictimaiyyət arasında münasibətləri tənzimləməkdən ibarətdir. Cəmiyyət üzvləri mövqelərindən, vəzifələrindən asılı olmayaraq, mətbuatda barələrində gedən qərəzli, böhtan və şantaj xarakterli materiallarla əlaqədar bizə müraciətlər edirlər. İl ərzində müraciətlərin sayı mini ötür.

Qərarlarımız əksər KİV-lər tərəfindən icra olunur. Lakin buna qəsdən məhəl qoymayanlar da vardır. Onlar “reket nəşr”lərdir. Belələri əsasən cəmiyyətdə ayrı-ayrı hüquqi və fiziki şəxslərə, təəssüf hissi ilə qeyd etməliyəm ki, hətta bəzi dövlət rəsmilərinə və qurumlarına istinad edərək Azərbaycanın media mühitini, sözün əsl mənasında, korlayırlar.

Ona görə də Sizdən xahiş edirəm ki, “reket nəşr”lərə qarşı mübarizəmizə dəstək verəsiniz. İnanın ki, bundan təkcə mətbuat və cəmiyyət deyil, eyni zamanda, təhdidlərə məruz qalan dövlət qurumlarının özləri də faydalanacaqlar. Azərbaycan cəmiyyəti neçə illərdir ki, azad medianın səmərəli xidmətindən istifadə edir, dünyada senzurasız, azad ölkə kimi tanınır. Lakin Azərbaycanda həm medianın, həm də cəmiyyətin imicinə mənfi təsir göstərən bir hal da mövcuddur. Bu məsələdə də Sizin şəxsi dəstəyinizə ehtiyacımız vardır. Bəhs olunan məsələ bizi əhatə edən və Avropa Şurasının üzvü olan bir çox ölkələrdə qəbul edilən diffamasiya haqqında qanunun ölkəmizdə qəbulunun bir qədər ləngiməsidir. Məlumat üçün bildirirəm ki, bu qanunun qəbulu bizim - Mətbuat Şurasının işini, əslində, bir qədər də artıracaqdır. Biz, əlbəttə, jurnalistlərin peşəkarlığı ilə, etik qaydalara əməl edilməsi normaları ilə daha ciddi məşğul olacağıq və jurnalist məsuliyyətinin artırılması üçün əlimizdən gələni etməliyik. Mətbuat Şurası kimi söz veririk ki, bu sahədəki səylərimizi artıracağıq.

Üçüncü məsələ, bildiyiniz kimi, Azərbaycanda müstəqil medianın dairəsi genişlənir. Lakin ölkə mediasının müstəqilliyinin əsas meyarı olan reklam bazarı hələ də yazılı mətbuatın üzünə qapalı kimi görünməkdədir.

Bu gün illik reklam büdcəsi, təxminən 35-40 milyon manat olan Azərbaycanda yazılı medianın reklam gəlirləri 2 milyon manata çatmır. Əlbəttə, Siz Prezident olaraq reklamvericilərə birbaşa göstəriş verə bilməzsiniz. Amma dövlətimizin iqtisadi strukturları, nazirlikləri, komitələri, digər mərkəzi və yerli icra hakimiyyəti orqanları öz reklam və elanlarını müəyyən qədər mətbuatda yerləşdirə bilərlər. Bu sahədə də Sizin köməyinizə ehtiyacımız var. Ölkədə jurnalist kadrların hazırlanması ilə bağlı problemlər mövcuddur. İstərdik ki, ali məktəblərə qəbul zamanı qabiliyyət imtahanları bərpa olunsun. Jurnalist təhsilini peşəni sevənlər alsınlar. Dünya Azərbaycan həqiqətləri barədə yetərincə məlumata malik deyildir. Çox təəssüf ki, bəzi xarici nəşrlər ölkəmizdə aparılan islahatları görmək istəmir, Dağlıq Qarabağ kimi problemimizə barmaqarası baxırlar. Biz jurnalistlər də burada öz məsuliyyətimizi hiss edirik. Ona görə də müasir texnologiyalar əsrində müxtəlif dilləri mükəmməl bilən istedadlı jurnalistlərin hazırlanmasına ciddi ehtiyac duyulur.

Hesab edirik ki, bu prosesdə xaricdə təhsil əsas rol oynaya bilər. Jurnalistlərin sosial durumlarının yaxşılaşdırılmasına da ehtiyac vardır. Bu sırada xüsusilə mənzil qayğıları daha aktualdır. Dəfələrlə jurnalistlər üçün güzəştli şərtlərlə mənzil tikintisi məsələsini gündəmə gətirsək də, hələlik nəticə əldə etməmişik. Ümid edirik ki, Sizin sayənizdə bu məsələyə hansısa dövlət proqramı çərçivəsində baxmaq mümkün olacaqdır. Möhtərəm cənab Prezident, Sizin hakimiyyətiniz dövründə media ilə bağlı çoxsaylı fərman və sərəncamlar imzalanmışdır. Bunların hər biri müstəsna əhəmiyyətə malikdir. Beş il bundan əvvəl milli mətbuat günü ərəfəsində Sizin sərəncamınızla “Əməkdar jurnalist” fəxri adı bərpa olundu. 140-a yaxın jurnalist müxtəlif dövlət təltiflərinə layiq görüldü. Media qurumlarına maddi yardımlar göstərildi. Biz jurnalistlər inanırıq ki, eyni sevincli anları bu bayram günündə də təkrar yaşayacağıq.

Hörmətli cənab Prezident, Sizə bir daha ölkə jurnalistlərinin dərin minnətdarlığını bildirir, Sizə möhkəm cansağlığı, ölkəmizin daha da inkişafı yolunda yeni-yeni nailiyyətlər arzulayırıq. Sağ olun.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı**

- Sağ olun, təşəkkür edirəm. İlk növbədə, mən sizi və Azərbaycanın bütün ictimaiyyətini milli mətbuatımızın 135 illik yubileyi münasibətilə təbrik etmək istəyirəm. Bizim mətbuatımızın böyük ənənələri var və bu ənənələr yaşayır. Mən Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, Mətbuat Şurası yarandığı gündən ölkəmizdə dövlət qurumları ilə media arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün çox müsbət rol oynamışdır. Jurnalistlərin hüquqlarının qorunması işində öz prinsipial mövqeyini həmişə bildirmişdir və ümumiyyətlə, ölkədə söz azadlığının, demokratiyanın inkişafı istiqamətində çox böyük addımlar atmışdır. Siz öz çıxışınızda mətbuatla bağlı son illər ərzindəki tarixdən danışdınız.

Bu, doğrudan da çox gözəl tarixdir. Azərbaycan müstəqil ölkə kimi 1991-ci ildə dünya xəritəsində yarandı. Bildiyimiz kimi, o vaxt Azərbaycanda müstəqil media yaranmaqda idi. Azərbaycanda azad mətbuat hələ sovet dövründə yaranmışdır və azad mətbuatın o vaxtkı fəaliyyəti çox böyük qiymətə layiqdir. Ancaq o vaxt - 1991-ci ildə azad mətbuatın fəaliyyəti üçün hələ ki, lazımi şərait yox idi. Ancaq Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra çox qısa bir müddət ərzində media sahəsində böyük irəliləyiş müşahidə olundu. Bir neçə qəzet, kütləvi informasiya vasitələri, özəl televiziyalar yarandı.

Bir sözlə, müstəqilliyimiz bərpa olunandan sonra Azərbaycanda azad mətbuat çox sürətlə inkişaf edirdi. Qeyd etdiyiniz kimi, 1998-ci ildə senzuranın ləğvi, doğrudan da böyük və tarixi bir addım idi. Bugünkü gün üçün bu, əlbəttə ki, bir fövqəladə hal kimi qiymətləndirilə bilməz. Ancaq o vaxt MDB məkanında Azərbaycan senzuranın ləğvini irəli sürən birinci ölkə idi. Ondan sonra söz azadlığının inkişafı istiqamətində ardıcıl şəkildə çox ciddi addımlar atılmışdır. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olundu, 2003-cü ildə Mətbuat Şurası yarandı.

Yəni bütün bunlar, bu hadisələr göstərir ki, Azərbaycan dövləti bu sahədə çox məqsədyönlü və ardıcıl siyasət aparmışdır. Bütövlükdə söz azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən

hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir. Bunu təsdiq edən çoxsaylı faktlar da mövcuddur. Azərbaycanda yüzlərlə media orqanı fəaliyyət göstərir. Bizim vətəndaşlarımız 30-dan yuxarı gündəlik qəzeti, 100-ə yaxın həftəlik qəzeti, respublika əhəmiyyətli, yəni bütün ölkəyə verilişlər təqdim edən 8 telekanalı, 14 regional telekanalı, internet vasitəsilə dünyada gedən bütün prosesləri sərbəst şəkildə izləyirlər.

Azərbaycanda internet istifadəçilərinin sayı 40 faizdən yuxarıdır. Biz bütün məktəblərdə kompüterləşmə proqramını tətbiq edirik, internetə qoşuruq. Yəni Azərbaycanda söz azadlığının inkişafı üçün bütün addımlar atılır. Lazım olan bütün qanunvericilik aktları qəbul edilibdir. Medianın inkişafına dövlət dəstəyinin gücləndirilməsi üçün ardıcıl tədbirlər görülür, dövlət konsepsiyası qəbul edilibdir.

Maddi-texniki bazanın möhkəmləndirilməsi işində dövlət öz dəstəyini göstərir və bundan sonra da göstərəcəkdir. Bir sözlə, medianın bugünkü vəziyyətini müsbət qiymətləndirirəm. Hesab edirəm ki, bizim mətbuatımız böyük və uğurlu yol keçibdir. Əlbəttə ki, problemlər də var və bu problemlər haqqında siz də öz çıxışınızda fikirlərinizi söylədiniz. Elə etməliyik ki, bu problemlərin həlli işində birgə fəaliyyət göstərək. Bu, bizim ümumi işimizdir. Bizim ümumi məqsədimiz ondan ibarət olmalıdır ki, Azərbaycanı hərtərəfli şəkildə inkişaf etdirək, müasir dövlətə çevirək, dünyada mövcud olan bütün mütərəqqi təcrübəni tətbiq edək, insanların bütün azadlıqlarını təmin edək, hüquqi dövlət quruculuğu işində daha da böyük addımlar ataq.

Ancaq bu halda Azərbaycan uzunmüddətli və dayanıqlı inkişaf imkanlarını tam şəkildə ortaya qoya bilər. Bizim iqtisadi imkanlarımız əlbəttə ki, artır və bu, bizə əlavə imkanlar yaradır. Ancaq mən tam əminəm ki, iqtisadi islahatlar siyasi islahatlar aparılmadan ölkəyə uzunmüddətli uğur gətirə bilməz. Qısamüddətli uğur gətirə bilər. Xüsusilə təbii sərvətlərlə zəngin olan ölkələrdə iqtisadi islahatların düzgün istiqamətdə aparılması sayəsində qısamüddətli uğurlar əldə oluna bilər. Ancaq biz uzunmüddətli inkişafımızı təmin etmək istəyiriksə, mütləq siyasi islahatlar iqtisadi islahatları dəstəkləməlidir, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılmalıdır. Əlbəttə ki, biz öz siyasətimizdə regionda mövcud olan vəziyyəti, Azərbaycanın reallıqlarını nəzərə alırıq. Eyni zamanda biz dünyada gedən prosesləri də çox ciddi izləyirik, tarixi də yaxşı bilirik. Bilirik ki, keçid dövrünü

yaşayan ölkələr hansı çağırışlarla, hansı problemlərlə üzləşirlər.

Azərbaycanda həmin problemlərin minimum səviyyəyə endirilməsi, risklərin azaldılması istiqamətində çox dəqiq, düşünülmüş, ancaq eyni zamanda ardıcıl siyasət aparılmalıdır. Siyasi islahatlar iqtisadi islahatları qabaqlamamalıdır, eyni zamanda, geridə də qalmamalıdır. Mən hesab edirəm ki, biz Azərbaycanda elə bir model yarada bildik ki, həm iqtisadi islahatlar, həm siyasi islahatlar paralel şəkildə aparılır və ölkəmizin hərtərəfli inkişafını təmin edir. Azərbaycanın böyük və zəngin tarixi vardır. Bizim milli mənəvi dəyərlərimiz vardır. Bu dəyərlər bizim üçün əsasdır. Biz ümumbəşəri dəyərləri bölüşürük, biz Avropa qurumları ilə bütün istiqamətlərdə - həm iqtisadi sahədə, həm siyasi islahatların dərinləşməsi sahəsində uğurlu əməkdaşlıq edirik. Avropa dəyərləri də bizim üçün çox vacibdir. Yəni onlar bizim üçün yad dəyərlər deyil. Çünki Azərbaycanın tarixi və coğrafi vəziyyəti bu vəziyyətin yaranmasına gətirib çıxarıbdır. Ancaq bizim üçün prioritet dəyərlər bizim milli dəyərlərimizdir və bunun üzərində müasir dövlətin qurulması bizim məqsədimizdir.

Mən hesab edirəm ki, biz bu məqsədə yaxınlaşırıq. Çünki bizim cəmiyyətimizin inkişafı üçün bütün lazımi tədbirlər görülür. Milli-mənəvi dəyərlər üzərində müasir, dünyəvi, dünyaya açıq olan dövlət qurmaq bizim əsas məqsədimizdir. Bunu etmək üçün iqtisadi imkanlar olmalıdır, iqtisadi müstəqillik olmalıdır, siyasi azadlıqlar olmalıdır. Baxın, indi Azərbaycan dünyada çox böyük və müsbət imicə malik olan ölkədir. Biz Avropa Şurasının, İslam Konfransı Təşkilatının üzvüyük. Nadir ölkələrdənik ki, hər iki təşkilatın üzvüyük və hər iki təşkilatda Azərbaycanın mövqeləri möhkəmlənir. Azərbaycan bu gün və gələcəkdə sivilizasiyalararası dialoqun inkişafı üçün çox mühüm rol oynayır və oynayacaqdır.

Artıq Azərbaycanda bu istiqamətdə bir neçə beynəlxalq tədbirlər də keçirilibdir. Bizim həm coğrafi vəziyyətimiz, həm keçmişimiz və ümumiyyətlə, apardığımız siyasət Azərbaycanın bu istiqamətdəki rolunu artıracaqdır. Mən hesab edirəm ki, Azərbaycanda həm iqtisadi, həm siyasi islahatların aparılmasında çox müsbət dəyişikliklər baş verdi. Ancaq o demək deyil ki, bu sahədə bütün problemlər öz həllini tapıbdır. Biz öz problemlərimizi bilirik, onları həll etməyə çalışırıq. Lazım gələndə beynəlxalq təşkilatlarla məsləhətləşirik, lazım gələndə onların məsləhətlərinə də ciddi yanaşırıq. Ancaq son qərarı

özümüz qəbul edirik, yəni Azərbaycan xalqı qəbul edir. Bu, bizim hüququmuzdur. Bizim müstəqil tariximiz bir neçə dəfə göstərmişdir ki, Azərbaycan xalqının iradəsi əsasında qəbul edilmiş qərarlar müsbət nəticələr verir.

Biz bundan sonra da bu sahədə müstəqil addımlarımızı davam etdirəcəyik ki, ölkəmizi uğurla və sürətlə inkişaf etdirək. Mən hesab edirəm ki, media ilə bağlı qaldırdığınız məsələlər çox böyük əhəmiyyət kəsb edir. Reket jurnalistikasına qarşı biz hamımız birgə fəaliyyət göstərməliyik, mübarizə aparmalıyıq. Bu mübarizənin sivil qaydaları olmalıdır. Mən hesab edirəm ki, biz reket jurnalistikasına, necə deyərlər, onların üsulu ilə cavab verməməliyik. O neqativ hallara yol verən vətəndaşlar ictimai qınaq obyektinə çevrilməlidir.

İctimaiyyətdə onlara qarşı ciddi reaksiya verilməlidir. Dövlətin üzərinə düşən vəzifəni də dövlət etməyə hazırdır. Ancaq bütün bu işlər qanun çərçivəsində olmalıdır. Mən ümid edirəm ki, yaxın zamanlarda bizim adət-ənənələrimizə zidd olan bu nöqsanlar aradan qaldırılacaqdır. Hesab edirəm ki, buna müəyyən qədər vaxt lazımdır. Çünki biz müstəqil ölkə kimi cəmi 20 ilə yaxındır ki, yaşayırıq. Hələ ki bütün sahələrdə olduğu kimi, bu sahədə də müəyyən qədər vaxt lazımdır.

Diffamasiya ilə bağlı məsələlərə gəldikdə, siz yaxşı bilirsiniz ki, hətta Avropanın inkişaf etmiş ölkələrində bu məsələ ilə bağlı birmənalı mövqe yoxdur. Biz Avropa Şurası ilə münasibətlərimizdə dəfələrlə bu məsələ ətrafında fikir mübadiləsi aparmışıq. Biz bu qanunun qəbul olunmasının əleyhinə deyilik. Nəzərə alsaq ki, Azərbaycanda söz azadlığına görə heç kim həbs olunmur, deyə bilərik ki, bu sahədə bir növ qeyri-rəsmi moratorium qeyd olunubdur. Ancaq biz istəyirik ki, bütün ölkələr öz fəaliyyətini bu kriteriyalara uyğun şəkildə göstərsinlər. Bəzi hallarda beynəlxalq təşkilatlar Azərbaycana xüsusi diqqət göstərirlər. Ola bilər ki, bəzi məsələlərlə bağlı bu xüsusi diqqət təqdirəlayiqdir. Amma bəzi hallarda bu ayrı-seçkilik başqa məna daşıyır və xüsusilə Avropa Şurası ilə bağlı bizim münasibətlərimizin inkişafı bunu göstərir. Mən bu məsələ ilə bilavasitə məşğul olan bir insan kimi və Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin ilk rəhbəri kimi bütün bu işləri yaxından bilirəm.

Deyə bilərəm ki, 2001-ci ildən başlayaraq bugünə qədər Azərbaycana qarşı bəzi hallarda aparılan ədalətsiz mübarizə bizdə çox böyük hiddət doğurur. Çünki hər şey ədalətli olmalıdır. Ədalət

ən böyük meyardır. Əlbəttə ki, Azərbaycan cəmiyyətində problemlər var. Biz bu problemləri bilirik. Ancaq hər bir ölkəyə vahid meyarlarla yanaşılmalıdır. Azərbaycanın yerləşdiyi bölgədə, qonşuluqda yerləşən ölkələrdə problemlər bizim problemlərdən az deyil. Bəzi hallarda o məsələlərə göz yumulur, yaxud da ki, yanlış məlumat təqdim olunur. Azərbaycanda isə xırda məsələ ilə bağlı böyük hay-küy salınır. Sanki kimsə istəyir ki, Azərbaycanın reputasiyasına zərbə vursun. Biz çox yaxşı bilirik ki, 2008-ci ildə Ermənistanda prezident seçkiləri nəticəsində ordunun iştirakı ilə 10-dan yuxarı insan öldürülmüşdür, yüzlərlə insan həbs olunmuşdur, prezidentliyə namizəd ev dustağı olmuşdur, millət vəkilləri, media nümayəndələri həbs edilmişlər. Ancaq sadəcə, bir neçə gün ondan sonra müəyyən mətbuat orqanlarında bu barədə məlumat getdi, ondan sonra elə bil ki, bu, heç olmayıbdır, nə beynəlxalq mediada, nə də ki, Avropa Şurasında, nə də başqa yerdə məlumat verilmədi. İndi də bu məsələ ilə bağlı vaxtaşırı kimsə məsələ qaldırır, amma bu mövzu geniş mənada bağlanıbdır.

Azərbaycanda isə müqayisəolunmaz dərəcədə bir xırda məsələ baş verən kimi, dərhal beynəlxalq media orqanlarına çıxarılır. Azərbaycanı elə bil ki, antidemokratik ölkə kimi təqdim etməyə çalışırlar. Bu, bizə qarşı aparılan məqsədyönlü və ədalətsiz mübarizədir. Biz bu mübarizəyə hazırıq və bu mübarizəyə qarşı ancaq öz siyasətimizi, sözün yaxşı mənasında, inadkarlığımızı qoymalıyıq və qoyuruq ki, Azərbaycanın maraqlarını müdafiə edək.

Ona görə diffamasiya ilə bağlı məsələlərə gəldikdə, mən hesab edirəm ki, bu məsələ öz həllini tapmalıdır və qanunvericilikdə müvafiq düzəlişlər edilməlidir. Amma çox istərdik ki, özlərini demokratiyanın beşiyi sayan inkişaf etmiş ölkələrdə də bu məsələ ilə bağlı addımlar atılsın.

Əfsuslar olsun ki, Azərbaycanda reklam bazarı hələ ki, o qədər də böyük deyil. Ancaq söylədiyiniz rəqəmlər əlbəttə, göstərir ki, burada bölgü ədalətsiz aparılır. Əgər 40 milyonun ancaq 2 milyonu yazılı mediaya verilirsə, əlbəttə ki, bu, dözülməz haldır. Mən çalışacağam ki, bu məsələ ilə bağlı müəyyən addımlar atılsın. Dövlət tərəfindən müəyyən tövsiyələr veriləcəkdir. Ancaq bununla bərabər o da həqiqətdir ki, yazılı media elektron media ilə rəqabət apara bilmir. Yəni, bu həqiqətdir, bu, hər ölkədə belədir. Hətta inkişaf etmiş, böyük ənənələrə malik olan ölkələrdə və media tarixi böyük olan ölkələrdə də kütləvi informasiya

vasitələrinin xüsusiyyətləri bunlardan ibarətdir. Siz də bunu yaxşı bilirsiniz. Ancaq bununla bərabər mən bu məsələ ilə məşğul olacağam.

Jurnalist kadrların hazırlanması ilə bağlı qaldırdığınız məsələ çox vacibdir. Mən bunu xüsusilə vurğulamaq istəyirəm və hesab edirəm ki, müxtəlif proqramlar əsasında biz bu məsələ ilə daha da ciddi məşğul olmalıyıq. Bu gün bilirsiniz ki, Azərbaycan gənclərinin xaricdə oxuması ilə bağlı dövlət proqramı icra olunur. Bu proqram çərçivəsində hər il, haradasa 10 milyon manata qədər vəsait ayrılır. Bu vəsait hesabına biz gənclərimizi xaricdə aparıcı ali məktəblərdə oxuduruq. Yəqin ki, o ixtisaslar siyahısına jurnalistika peşəsini də əlavə etməliyik. Çünki doğrudan da, buna böyük ehtiyac vardır. Təkcə mediada deyil, ümumiyyətlə, hər sahədə peşəkarlığın artırılması bizim üçün ən prioritet məsələyə çevrilməlidir. Bu gün bütün sahələrdə - iqtisadiyyatda, ictimai sahədə, sənaye istehsalında, xidmət sektorunda bizdə peşəkar kadrlar çatışmır. Azərbaycanın uğurlu və sürətli inkişafı tələb edir ki, bu sahələrdə peşəkarlar işləsinlər. Ona görə peşəkarlıqla bağlı olan məsələlər ümumi xarakter daşıyır. İndi biz bu məsələ ilə çox ciddi məşğuluq. O cümlədən jurnalistikada peşəkar kadrların işləməsi vacibdir. Hesab edirəm ki, peşəkarlıq artdıqca, jurnalistikada bax, qeyd etdiyiniz bu reket məsələləri də aradan qaldırılacaqdır. Ondan sonra bizim milli adət-ənənələrimizə xas olmayan başqa məqamlar da aradan qaldırılacaqdır. Təhqirlərə, böhtanlara, yalanlara son qoyulacaqdır. Mən hesab edirəm ki, bunun vaxtı çatıbdır.

Bizdə söz azadlığı var. Biz söz azadlığını qoruyacağıq və müdafiə edəcəyik. Azərbaycan dövləti və Azərbaycan iqtidarı tənqidlərə də, hətta təhqirlərə də dözümlüdür. Mən Prezident kimi buna əhəmiyyət vermirəm. Ancaq söhbət ondan getmir. Söhbət ondan gedir ki, bizim cəmiyyətdə belə hallar çox pis qarşılanır. Mediada yalan informasiyanın verilməsi qəbuledilməzdir. Əvvəlki dövrlərdə bu, çox geniş meydan tapmış bir yanaşma idi. Yalan informasiyanı ortaya atmaq, sensasiya yaratmaq, ondan sonra bu yalanın ətrafında müzakirələr aparmaq, elə bil ki, bunu reallığa çevirmək, ondan sonra bu yalanı xarici mediaya ötürmək və sonra bunu bir dəqiq xəbər kimi yenə qaytarmaq - bütün bunları biz bilirik. Mən hesab edirəm ki, bu siyasi mübarizə üsulu Azərbaycanın siyasi səhnəsindən getməlidir. Burada əlbəttə ki, medianın rolu çox böyükdür. Yəni bu gün internet dövründə hər bir yazını dünyada oxumaq olar və bir dəfə, iki dəfə, üç dəfə yalan yazı-

landa, dördüncü dəfə artıq o medianın hörməti də düşəcək, o orqana inam da azalacaqdır.

Mən istərdim ki, jurnalistlərin məsuliyyəti ilə bağlı mövqeyimi bildirim. Dediyim məsələlər bu məsələ ilə də bağlıdır. Jurnalistlər çox məsuliyyətli olmalıdırlar. Burada qərəzsiz mövqe çox vacibdir. Mən media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında, müstəqil medianın gücləndirilməsində görürəm. Çünki hələ ki bizdə bu sahədə, xüsusilə yazılı mediada siyasiləşmə meyilləri çox güclüdür. Ola bilər ki, bu, müəyyən mərhələdə - Azərbaycanda siyasi sistem, siyasi münasibətlər formalaşdığı bir dövrdə qaçılmaz idi. Ancaq mən hesab edirəm ki, bu gün medianın inkişafı üçün siyasiləşmə prosesi gərək azalsın. Çünki birinci növbədə, Azərbaycan cəmiyyəti siyasiləşmiş cəmiyyət deyildir. Azərbaycan cəmiyyəti vətənpərvər cəmiyyətdir. Dövlətə, dövlətçiliyə sadiq olan cəmiyyətdir, ancaq siyasiləşmiş cəmiyyət deyildir. Hesab edirəm ki, cəmiyyəti süni şəkildə siyasiləşdirmək bizə uğur gətirə bilməz. Hər şey təbii olmalıdır, o cümlədən mediada da.

Siyasi sifarişlərlə çıxan orqanlar nə qədər az olarsa, bizim mediamız da o qədər həm güclü, həm də ki, daha da müsbət reputasiyaya malik olacaqdır. Bu məsələ ilə bağlı mən heç kimə heç bir göstəriş verə bilmərəm. Ancaq sadəcə olaraq, öz fikirlərimi bildirmək istəyirəm və hesab edirəm ki, Mətbuat Şurası da bu istiqamətdə öz lazımi tədbirlərini görəcək ki, jurnalistlərin məsuliyyəti və müstəqil jurnalistikanın müstəqil orqanlarının gücləndirilməsi işində biz daha da böyük uğurlara nail olaq. Mən bunu da bilirəm, bəzi hallarda xarici dairələrin təsiri altında çıxan orqanlar fəaliyyət göstərirlər. Onların sifarişi ilə yazılan məqalələr də dərc olunur. Bu məsələ ilə də bağlı məndə kifayət qədər məlumatlar var. Mən indi ad çəkmək istəmirəm, amma sadəcə olaraq, fikrimi bildirmək istəyirəm ki, bu, ümumiyyətlə, yolverilməzdir. İndi hansısa daxildən gələn siyasi sifariş əsasında yazılan məqalə, yaxud da ki, hansısa başqa reportaj qəbulolunmaz olsa da, bu, bizə o qədər də böyük problem yaratmaz. Ancaq xarici dairələrin sifarişi ilə, göstərişi ilə və onların planları əsasında Azərbaycanda hansısa mövzu ətrafında rəy yaratmaq cəhdlərinə ümumiyyətlə, son qoyulmalıdır. Burada mən sadəcə olaraq, jurnalistləri vətənpərvərliyə çağırıram. Biz imkan verməməliyik ki, Azərbaycan hansısa qüvvələrin, xarici dairələrin qarşıdurma arenasına çevrilsin.

Mən bunu bir neçə dəfə bildirmişəm. Prezident vəzifəsinə gələndən dərhal sonra bildirmişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan başqa ölkələrin maraqlarının toqquşması yeri olmayacaqdır. Biz buna nail ola bilmişik, baxmayaraq ki, belə cəhdlər var və istisna olunmur ki, gələcəkdə də olacaqdır. Çünki bizim geosiyasi vəziyyətimiz, bizim apardığımız siyasət və ümumiyyətlə, bölgədəki mövqelərimiz, əlbəttə ki, Azərbaycana diqqəti və marağı cəlb edir. Biz elə etməliyik ki, Azərbaycan bundan sonra da onilliklər ərzində Azərbaycan xalqının iradəsi ilə idarə olunsun. Biz Azərbaycan xalqının iradəsi ilə dövlətçiliyimizin qurulmasına bundan sonra da öz səylərimizi qoyaq. Ona görə mən yenə də deyirəm ki, belə hallar var. Mən istərdim ki, belə hallar olmasın. Xarici dairələrin kifayət qədər media resursları var ki, onların vasitəsilə istədiklərini bildirsinlər, xüsusilə yenə də deyirəm, internet dövründə bunu etmək o qədər də çətin deyildir.

Jurnalistlərin məsuliyyəti ilə bağlı dediyim sözlərə əlavə olaraq jurnalistlərin hüquqları haqqında da bir neçə kəlmə demək istəyirəm. Bu məsələ ilə də bağlı biz ciddi işləməliyik. Jurnalistlərin hüquqları tam şəkildə qorunmalıdır, müdafiə olunmalıdır. Jurnalistlərə qarşı hörmətsizlik, zorakılıq edilməməlidir. Düzdür, biz Azərbaycanda artıq belə hallar ilə rastlaşmırıq. Ancaq hesab edirəm ki, bu sözlərin mənası öz təsirini göstərəcəkdir. Bununla bərabər, Azərbaycanda bütün kateqoriyadan olan insanların hüquqları qorunmalıdır. Bu istiqamətdə əlbəttə ki, biz daha da böyük addımlar atmalıyıq. Mən onu da demək istəyirəm və tam əminəm ki, Azərbaycanda bütün vətəndaşlar - Prezidentdən başlamış adi vətəndaşa qədər - bərabərhüquqlu vətəndaşlar olmalıdır. Yəni, qanun qarşısında heç kimin imtiyazı ola bilməz. Hansısa peşə sahibi olmaq o demək deyil ki, bu, kiməsə immunitet yaradır, yaxud da ki, kimisə toxunulmaz edir. Jurnalist həmrəyliyi çox yaxşı şeydir və mən bunu bəyənirəm.

Ancaq bəzi hallarda biz bunu görürük ki, jurnalist həmrəyliyi qanunu da, qanunvericiliyi də kənara qoyur və sadəcə olaraq, jurnalistlərin hüquqlarının qorunması məsələləri ilə bağlı fikirlər ortaya qoyulur. Biz burada hüquqların qorunması ilə bərabər, eyni zamanda, qanunun aliliyini də təmin etməliyik. Mən hesab edirəm ki, jurnalistikada vətənpərvərlik mövzuları ilə bağlı daha da ciddi işlər aparılmalıdır. Xüsusilə müharibə şəraitində olan ölkələrdə bu, daha da böyük məna daşıyır. Azərbaycan müharibə şəraitində yaşayır. Ona görə gənc

nəslimizin vətənpərvərlik ruhunda tərbiyə olunması işində medianın müstəsna xidmətləri vardır. Əlbəttə ki, burada dövlət dəstəyi və dövlət siyasəti çox mühümdür və bu siyasət məqsədyönlü şəkildə aparılır. Azərbaycanda vətənpərvərlik mövzuları çox geniş işıqlandırılır. Gənclərin tərbiyəsi ilə bağlı məsələlər, idman sahəsindəki uğurlarımız, ordu quruculuğu sahəsində aparılan işlər - bütün bunlar bir məqsədi güdür ki, biz Azərbaycan xalqında vətənpərvərlik ruhunu və duyğularını daha da artıraq, gücləndirək. Medianın bu sahədəki fəaliyyəti əvəzolunmazdır. Məsələn, hansısa telereportajda, ya hansısa yazılı mətbuatda vətənpərvərlik ilə bağlı çox ciddi və mənalı mövzuların işıqlandırıldığını görəndə bu, məni çox sevindirir. Mən hesab edirəm ki, biz bu istiqaməti daha da gücləndirməliyik.

Ümumiyyətlə, mən məmnunluq hissi ilə deyə bilərəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan mediasında birmənalı mövqe vardır. Bu, çox vacibdir. Bu, milli məsələdir, ümummilli məsələdir. Bu məsələdə siyasi maraqlar kənara qoyulmalıdır. Bu məsələdə iqtidar-müxalifət münasibətləri, ümumiyyətlə, olmamalıdır. Bu məsələ ilə bağlı heç kim spekulyasiya etməməlidir. Bu, bizim ümummilli məsələmizdir, əsas məsələmizdir, əsas problemimizdir. Bütün Azərbaycan xalqı birləşərək bu məsələni həll edə bilər. Ona görə bu məsələ ilə bağlı həm ölkə daxilində, həm də xüsusilə sizin beynəlxalq media nümayəndələri ilə əlaqələrinizdə biz daha da fəal iş aparmalıyıq. Biz özümüz özümüzü inandırmamalıyıq, biz onsuz da bilirik, nələr baş veribdir. Sadəcə olaraq, bu mövzu daim gündəlikdə olmalıdır. Mən Dağlıq Qarabağın azərbaycanlı icması ilə görüşümdə bu barədə öz fikirlərimi söylədim ki, biz heç vaxt sakitləşməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməyənə qədər biz daim Ermənistana qarşı bütün istiqamətlərdə, bütün yollarla, bütün formalarda hücum siyasətini aparmalıyıq.

Ona görə ölkə daxilində, sadəcə olaraq, bu mövzu daim işıqlandırılmalıdır. O ki qaldı xarici mətbuatla bağlı məsələlərdə, biz çalışmalıyıq ki, öz mövqeyimizi daha da dolğun şəkildə və daha da ağıllı şəkildə çatdıraq. Xüsusilə nəzərə alsaq ki, həqiqət bizim tərəfimizdədir - faktlar, materiallar, Xocalı soyqırımı, Azərbaycan torpaqlarının işğalı, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin aparılması. Bu siyasəti törədənlər hərbi cinayətkarlardır. Vaxt gələcək onlar bu cinayətlərə görə beynəlxalq məhkəmə qarşısında cavab verəcəklər.

Ona görə mən hesab edirəm ki, biz bu istiqamətdə daha da ciddi işlər aparmalıyıq. Bununla bərabər, əlbəttə ki, qeyd etdiyim kimi, bütövlükdə bu məsələ ilə bağlı Azərbaycan mətbuatında vahid mövqe var, amma istisnalar da olur. Bu, əlbəttə ki, çox üzücü bir haldır.

Azərbaycan cəmiyyətində, Azərbaycan mediasında bu məsələ ilə bağlı başqa fikir ola bilməz. Separatistlərə bəraət qazandırmaq, onlardan müsahibə götürmək, onları təbliğ etmək, azərbaycanlıları dəhşətli günahlarda suçlandırmaq - bu bağışlanmazdır. Gör bu adamlarda Azərbaycan xalqına nə qədər nifrət var ki, onlar Azərbaycan vətəndaşlarının, günahsız insanların qanını axıdanları Azərbaycan mətbuatında təbliğ edirlər. Bəli, təkcə Azərbaycan mətbuatında deyil. Əgər təkcə burada olsaydı, dərd yarı idi. Beynəlxalq arenada Azərbaycana mənfi münasibət bəsləyən dairələrə elə bil ki, bu, əlavə bir arqument verir, onların dəyirmanına su tökür və bundan istifadə olunur. Belə yazıların erməni mətbuatında çıxması, beynəlxalq mətbuatda çıxması - bütün bunlar Azərbaycana qarşı koordinasiya şəklində aparılan siyasətin bir tərkib hissəsidir. Yəni mən buna heç söz tapa bilmirəm. Bu məsələ ilə bağlı fikirləri sözlə ifadə etmək çətindir. Hesab edirəm ki, Azərbaycan mediasında belə hallara qarşı çox ciddi və operativ reaksiya verilməlidir. Bu məsələ ilə bağlı jurnalist həmrəyliyi olmamalıdır, vətəndaş həmrəyliyi olmalıdır.

Qaldırdığınız digər məsələlərlə bağlı, jurnalistlərin məişət şəraiti ilə bağlı məsələlərlə əlaqədar siz təklifləri verin. Mən çalışacağam operativ şəkildə bunu həll edim ki, Azərbaycan dövləti bu sahədə öz dəstəyini göstərsin. Mən bir daha sizi bu gözəl gün, hadisə münasibətilə təbrik edirəm. Hesab edirəm, bugünkü bayram günü bir fürsətdir ki, biz görüşək, səmimi şəkildə danışaq. Mən də öz fikirlərimi sizə çatdırım ki, biz bundan sonra da belə əməkdaşlıq şəraitində öz işlərimizi davam etdirək.

***

Sonra Prezident İlham Əliyev Mətbuat Şurasının idarə heyətinin üzvləri - Vüsalə Abışovaya və Əflatun Amaşova “Əməkdar jurnalist”, Umud Mirzəyevə və Abbas Tapdıqa “Əməkdar mədəniyyət işçisi” fəxri adlarının vəsiqələrini təqdim etdi. Sonda xatirə şəkli çəkdirildi.

# “Gülüstan” sarayında Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş yubiley mərasimi keçirilmişdir - 22 iyul 2010-cu il

AzərTAc xəbər verir ki, iyulun 22-də "Gülüstan" sarayında Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş yubiley mərasimi keçirilmişdir.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilmişdir.

Tədbirdə Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev çıxış etmişdir. O demişdir:

Hörmətli mətbuat nümayəndələri!

Xanımlar və cənablar!

Bu gün Azərbaycan milli mətbuatının 135 ili tamam olur və bu əlamətdar hadisə bütün ölkədə qeyd edilir. Cənab Prezidentin sərəncamına uyğun olaraq bütün rayon və şəhərlərimizdə, əmək kollektivlərində mətbuatın 135 illiyi münasibətilə təntənəli tədbirlər keçirilib. Bu gün isə biz "Gülüstan" sarayında bu əlamətdar hadisəni qeyd edirik. İstərdim ölkə başçısı adından bütün mətbuat orqanlarının əməkdaşlarını bir daha ürəkdən təbrik edib, sizin hər birinizə böyük uğurlar və xoşbəxtlik arzulayım.

Milli mətbuatımızın bünövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin nəşri ilə qoyulub və qəzetin ilk sayında onun məramı bu cür ifadə olunurdu: "Bizim zəmanə dəyişməni tələb edir. O kəslər ki, həmişə etibar edib bizim sözlərimizə əməl ediblər, zəmanə dəyişilməyinə görə kökündən tərəqqi edib irəli gedirlər". Beləliklə, qəzet ilk günlərindən millətimizin inkişaf yoluna işıq saçdı.

Fərəhləndirici haldır ki, Azərbaycanda milli mətbuatın yubileylərinin geniş təntənə ilə qeyd edilməsi artıq xoş bir ənənəyə çevrilmişdir. Bu ənənənin əsası ümummilli lider Heydər Əliyevin milli mətbuatımızın 125 illiyinin keçirilməsi haqqında 2000-ci ilin martında verdiyi fərman ilə qoyulmuşdur. Ulu öndərin yolunu dönmədən davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu il iyun ayının 10-da "Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalamışdır. Sərəncamda yubileyin ölkəmizdə geniş qeyd olunması üçün Prezident Administrasiyasına konkret tapşırıqlar verilmişdir. Prezident Administrasiyası təsdiq olunmuş tədbirlər planı əsasında

müvafiq qurumlarla birlikdə ölkə ərazisində yubiley tədbirlərinin keçirilməsini təmin etmişdir.

Hörmətli mərasim iştirakçıları!

Azərbaycan milli mətbuatı çox çətin, eyni zamanda, zəngin və şərəfli inkişaf yolu keçmişdir. 1875-ci ildə maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan "Əkinçi" qəzeti iki ilə yaxın fəaliyyəti dövründə mütərəqqi fikirli ziyalıları öz ətrafında birləşdirmiş, elm, maarif, mədəniyyət, incəsənət və kənd təsərrüfatının inkişafı ilə bağlı məqalələr dərc etmiş, xalqın mədəni tərəqqisi uğrunda mübarizə aparmış, dini mövhumata və cəhalətə qarşı kəskin çıxışlar etmişdir. Maarifçilik xüsusiyyətləri ilə seçilən bu qəzet milli mətbuatın müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, ədəbi dilin zənginləşməsi, hadisələrin obyektiv işıqlandırılması kimi təməl yaradıcılıq prinsiplərini təcəssüm etdirən məktəb səviyyəsinə yüksəlmişdir. Sonrakı illərdə görkəmli ziyalılarımız tərəfindən nəşr edilən "Ziya", "Kəşkül", "Şərqi-rus", "Həyat", "İrşad", "Füyuzat", "Tazə həyat", "Həqiqət", "Tərəqqi", "Molla Nəsrəddin" kimi qəzet və jurnallar məhz "Əkinçi"nin ideya xəttini və ənənələrini davam etdirmiş, ötən əsrin əvvəllərində vüsət alan milli oyanış və özünüdərk proseslərinə mühüm töhfələr vermişlər.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra milli mətbuat azadlıq ideyalarının inkişaf etdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi prosesinin fəal iştirakçısı olmuşdur. Həmin dövrdə söz və mətbuat azadlığını təsbit edən hüquqi sənədlər qəbul edilmiş, Üzeyir bəy və Ceyhun bəy Hacıbəylilərin rəhbərliyi ilə "Azərbaycan" qəzeti fəaliyyətə başlamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu iki il ərzində ölkədə 129 qəzet və jurnal nəşr olunmuşdur.

Sovet hakimiyyəti illərində mətbuat əsasən kommunist dünyagörüşünü ifadə etmiş, ideoloji buxovlar və sərt senzura şəraitində fəaliyyət göstərmişdir. Bununla yanaşı, həmin illərdə qəzet və jurnalların sayı artmış, teleradio jurnalistikası təşəkkül tapmış, mətbuatımızın coğrafiyası genişlənərək respublikanın həyatının bütün sahələrini əhatə etmişdir. Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı xalqımızın zəngin milli ənənələrini qoruyub saxlaya bilmiş, öz səhifələrində ölkə həyatının bütün tərəflərini geniş işıqlandırmış, maarifçilik funksiyasını davam etdirərək respublikamızın ictimai-siyasi və mədəni həyatında baş verən hadisələrdən və proseslərdən

kənarda qalmamışdır.

Dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, azad mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsi üçün geniş imkanlar yaranmışdır. 1993-cü ildə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 6 avqust tarixli fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilmiş, bununla da mətbuata tətbiq edilən senzura aradan qaldırılmış, milli mətbuatın inkişafı yolunda yeni perspektivlər açılmışdır. Bu siyasətin ardıcıllığını təmin etmək məqsədilə 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunmuş və dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilmişdir. 2003-cü ildə Azərbaycan Jurnalistlərinin Birinci Qurultayında mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən Mətbuat Şurası yaranmışdır.

Azərbaycan Respublikasının Konstitusiyası, 1999-cu ilin dekabrında qəbul olunmuş və sonrakı illərdə beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində təkmilləşdirilmiş "Kütləvi informasiya vasitələri haqqında" Qanun, 2005-ci ildə qəbul edilmiş "İnformasiya əldə etmək haqqında" Qanun söz və məlumat azadlığına, mətbuatın və jurnalistlərin müstəqil fəaliyyətinə tam təminat verir.

Bu gün Azərbaycanda Heydər Əliyevin siyasəti və ənənələri uğurla davam etdirilir. Ölkədə güclü, müstəqil, obyektiv informasiya daşıyıcısı olan, eyni zamanda dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirən, milli maraqların təəssübkeşi olan mətbuatın formalaşması və inkişafı dövlətin mətbuat siyasətinin əsas xəttini təşkil edir.

Son illər mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin miqyası daha da genişlənmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı sərəncama əsasən redaksiyaların "Azərbaycan"

nəşriyyatına olan 400 min manat məbləğində borcu dövlət büdcəsindən ödənildi. 2005-ci ildən bu günə kimi 300-ə yaxın KİV əməkdaşı dövlət mükafatlarına və fəxri adlara layiq görülmüş, 2005-ci ildə 30 qəzet redaksiyasının hər birinə 2 min manat, 2008-ci ildə 38 mətbuat orqanının hər birinə 5 min manat, 2009-cu ildə isə 39 qəzet redaksiyasına, yenə də ayrılıqda 10 min manat məbləğində dövlət tərəfindən yardım ayrılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2008-ci il 31 iyul tarixli sərəncam ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" söz və məlumat azadlığının, KİV-lərin müstəqilliyinin təmin edilməsi məqsədilə kompleks tədbirlər nəzərdə tutan mühüm sənəddir. Konsepsiyada əks olunmuş məsələlərin həlli üçün 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ardıcıl tədbirlər həyata keçirir. 2009-cu ildə bu məqsədlə dövlət büdcəsindən fonda 1,3 milyon manat, 2010-cu ildə isə 2 milyon manat ayrılmışdır. Gələcəkdə də bu sahəyə lazımi diqqət yetiriləcəkdir.

Söz və məlumat azadlığının təmin olunması sahəsində məqsədyönlü şəkildə həyata keçirilmiş siyasətin nəticəsində bu gün Azərbaycan Respublikası kütləvi informasiya vasitələrinin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqelərdən birini tutur. Ölkəmizdə 4200-dən artıq mətbuat orqanı Ədliyyə Nazirliyində uçota götürülmüş, 50-dən artıq informasiya agentliyi müvafiq dövlət orqanında qeydiyyatdan keçmişdir. Respublikamızda 36 gündəlik, 100-ə yaxın həftəlik və 80-dən artıq aylıq qəzet nəşr olunur.

Azərbaycan Respublikasında fikir, söz və məlumat azadlığı ölkə Prezidenti cənab İlham Əliyevin siyasi kursunun və qazanılan demokratik nailiyyətlərin mühüm tərkib hissəsidir. Azərbaycan hökuməti bundan sonra da demokratiyanın inkişaf etdirilməsi sahəsində üzərinə düşən vəzifələri yerinə yetirmək əzmindədir.

Bu gün bir daha sizi bayram münasibətilə təbrik edir və müstəqil dövlətçiliyimiz naminə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətli mərasim iştirakçıları! Diqqətinizə çatdırıram ki, bu gün respublika Prezidenti cənab İlham Əliyev Azərbaycan Mətbuat Şurasının yeni binasının açılışı mərasimində iştirak edib və Şuranın idarə

heyətinin üzvlərinə dövlət təltiflərini təqdim etmişdir. Cənab Prezident dünən və bu gün imzaladığı sərəncamlarla kütləvi informasiya vasitələrinə maddi yardım ayırmış, mətbuat işçilərinin böyük bir qrupunu mükafatlandırmışdır. Bundan başqa, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış evlərinin tikilməsi üçün Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat maliyyə vəsaitinin ayrılması haqqında qərar qəbul etmişdir. Həmin sərəncamlarla sizi tanış etmək üçün sözü Prezident Administrasiyası ictimai- siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənova verirəm.

***

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlət başçısı İlham Əliyevin "Azərbaycan Respublikasının mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", "Azərbaycan Respublikasının mətbuat işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında", "Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin maliyyələşdirilməsi və Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımının göstərilməsi haqqında" 2010-cu il 21 iyul tarixli və "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" 2010-cu il 22 iyul tarixli sərəncamlarını tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Sonra Azərbaycan milli mətbuatının 135 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqənin qalibləri mükafatlandırılmışdır. Qurumun icraçı direktoru Vüqar Səfərli müxtəlif mövzular üzrə fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrini elan etmişdir. Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev mükafatları qaliblərə təqdim etmişdir.

Sonda Mətbuat Şurasının milli mətbuatın 135 illiyi münasibətilə təsis etdiyi "Ali media mükafatı"nın ilk təqdimetmə mərasimi olmuşdur.

Tədbir konsert proqramı ilə başa çatmışdır.

*Müsahibələr*

## “Media forum” saytının suallarını Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov cavablandırır – 25 iyun 2010-cu il

**- Əli müəllim, milli mətbuatın 135 illiyi münasibətilə hazırlanan tədbirlər planı nələri əhatə edir?**

- Tədbirlər planı əsasən icra strukturlarının mətbuatın 135 illik yubileyini keçirməsi ilə bağlıdır. Azərbaycanın 9 regionunda belə tədbirlərin keçirilməsi planlaşdırılır. Rayonlarda, bölgələrdə yerli, regional, o cümlədən mərkəzi mətbuat orqanlarının iştirakı ilə Azərbaycan mətbuatının tarixi, mövcud vəziyyəti və gələcək perspektivləri müzakirə olunacaq. Müvafiq qurumlarda, məsələn, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində elmi-praktik konfrans, eləcə də jurnalistlərin iştirakı ilə tədbir keçiriləcək. Azərbaycan mətbuatının 135 illik yubileyi münasibətilə yekun tədbir isə iyul ayının 22-də Bakıda mərkəzləşdirilmiş formada keçiriləcək.

**- Bu yubileylə bağlı jurnalistlərə fəxri adların verilməsi nəzərdə tutulubmu?**

- Jurnalistlərə fəxri adların verilməsi planlaşdırılır. Eyni zamanda, KİV-in İnkişafına Dövlət Dəstəyi Fonduna tapşırıq verilib ki, Prezident Administrasiyası ilə birgə mətbuat orqanlarından təqdimatlar toplasın, jurnalistika sahəsində uzun müddət səmərəli fəaliyyət göstərən jurnalistləri müxtəlif nominasiyalar üzrə fəxri adlara, orden və medallara təqdim etsin.

**- Bu gün jurnalistlərin əsas sosial problemi mənzillə bağlıdır. İyunun 23-də prezident İlham Əliyev hərbi qulluqçuların mənzil probleminin həll olunması üçün prezidentin ehtiyat fondundan 5 milyon manat vəsait ayırıb. Jurnalist təşkilatları da mətbuat işçilərinin mənzil probleminin həllinə kömək göstərilməsi üçün bir neçə dəfə müraciət edib. Yubiley ərəfəsində jurnalistlər üçün oxşar addımların atılması gözlənilirmi? Dövlət bunun üçün torpaq sahəsi, yaxud mənzillərin tikilməsinə yardım məqsədi ilə vəsait ayıra bilərmi?**

- Müxtəlif dövrlərdə bəzi KİV-lərin baş redaktorları, Mətbuat Şurası və digər jurnalist təşkilatları bu məsələni gündəmə gətirib,

müraciətlər edib. Hazırda dövlətin Azərbaycan jurnalistlərinə ev tikmək haqda qərarı yoxdur. Belə bir qərarın milli mətbuatın yubileyi ərəfəsində qəbul olunması da gözlənilmir. Amma cəmiyyətdə müzakirə olunan hər bir məsələ dövlət qurumlarının da diqqət mərkəzinə çıxarılır.

Jurnalistlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin, maddi durumlarının yaxşılaşdırılması haqqında düşünürük. Bu, dövlətin yürütdüyü siyasətin əsas istiqamətlərindən biridir. KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu yaradılarkən bu qurumun fəaliyyətində yalnız ayrı-ayrı sahələr üzrə mətbuatın inkişafını stimullaşdırmaq deyil, eyni zamanda mətbuatda çalışanların maddi durumunun yaxşılaşdırılması ideyası da qarşıya qoyulub. Əlbəttə, biz düşünürük, gələcəkdə hər şey ola bilər. Əgər bu məsələ ictimai müzakirəyə çıxarılıbsa, ola bilsin, gələcəkdə fondun və yaxud fonddan yuxarı orqanların bununla bağlı hansısa tədbiri olsun.

**- Jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılmasında, onlara maddi yardımların göstərilməsində KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun fəaliyyəti nə dərəcədə effektlidir? Bu sahədə ciddi dəyişiklik müşahidə olunurmu?**

- Bu fond ötən il yaradılıb. Fonda ayrılan vəsaitin çox az olması onun çox böyük effektindən danışmağa əsas vermir. Amma hər halda fond ayrılmış vəsait çərçivəsində ötən müddətdə bir neçə uğurlu tədbir keçirib, jurnalist müsabiqələri elan edib, ayrı-ayrı istiqamətlər üzrə jurnalistləri mükafatlandırıb. İndi isə dövlət sifarişli qrantlar elan etməyə hazırlaşır. Əlbəttə, 2 milyon manatlıq vəsaitlə Azərbaycan mətbuatının və onun çoxminli kollektivinin sosial problemlərini həll etmək mümkün deyil. Hər halda fond bu vəsait çərçivəsində nəsə etməyə çalışır. Amma biz düşünmürük ki, bu vəsait elə bu miqdarda qalacaq. Gələcəkdə Azərbaycan dövlətinin büdcə imkanları artdıqca fonda dəstəyin artırılması istisna olunmur. Özəl şirkətlər, qurumlar bu fonda kifayət qədər sanballı yardımlar göstərsələr, onda fond jurnalistlər üçün hətta mənzil tikilməsi təşəbbüsü ilə çıxış edə, jurnalistlərin digər problemlərinin həllinə də yardım göstərə bilər. Bunların olması istisna deyil.

**- Jurnalistlər, xüsusən də qəzetlərin baş redaktorları reklam qıtlığından şikayətlənirlər. Müxalifət qəzetləri iddia edirlər ki, tirajları kifayət qədər yüksək olsa da, şirkətlər, özəl qurumlar**

**hakimiyyətdən çəkindiklərinə görə onlara reklam vermir. Eyni zamanda, onlar hökumət qurumlarının elanlarının yalnız bir neçə dövlət qəzetinə və hakimiyyətyönlü qəzetlərə verilməsindən narazılıq edirlər. Müxalifət qəzetlərinə reklam verilməməsində hökumətin hansısa bir rolu varmı? Hökumət qurumlarının verdiyi elanların qəzetlər arasında ədalətli bölünməsi mexanizmi yaradıla bilərmi?**

- Azərbaycan hakimiyyəti heç bir KİV-ə hansısa şirkətin reklam verməsini qadağan etməyib. Belə bir prosedur olmayıb və yoxdur. Ümummilli liderimiz Heydər Əliyevin zamanından başlayaraq Azərbaycan hökuməti indiyə qədər mətbuatla bağlı atdığı addımlarda istisnasız olaraq bütün mətbuat orqanlarını o sıraya daxil edib. Məsələn, KİV-lərin “Azərbaycan” nəşriyyatına olan borclarının dondurulması və sonradan ləğv olunması prosesinə baxın. Onda “Azadlıq”, “Yeni Müsavat” və digər müxalifət qəzetlərinin də borcları məgər silinmədimi? Bütün mətbuat orqanlarının “Azərbaycan” nəşriyaytına olan borcları silindi.

Sonrakı dövrdə bir neçə dəfə prezident Azərbaycan mətbuatına birdəfəlik yardımlar göstərdi. Bu da istisnasız olaraq bütün iqtidar-müxalifət mətbuatına, yəni fərq qoyulmadan hamıya şamil edildi. Yəqin ki, bu il də 135 illik yubileylə bağlı birdəfəlik yardım olacaq. Yenə də istisnasız olaraq iqtidar-müxalifət mətbuatına prezident tərəfindən birdəfəlik yardım göstərilməsi planlaşdırılır. İndi baxın, prezident tərəfindən birdəfəlik yardım verilərkən heç bir ayrı-seçkilik edilmirsə, onda hansı qadağadan danışmaq olar? Belə olan halda hansı əsasla söyləmək olar ki, iqtidara görə müxalifət qəzetlərinə reklam vermirlər?

Burada yeganə istisna Mətbuat Şurasının reket elan elədiyi qəzetlərdir. Mətbuat Şurası, jurnalist ictimaiyyəti onları reket hesab etdiyi kimi, biz də onlara yardım göstərə bilmərik. Hesab edirəm ki, şirkətlər prezidentin yardım göstərdiyi qəzetlərə reklam verməkdən çəkinməməlidir. Sadəcə, Azərbaycanda reklam bazarı qeyri-normaldır. Mətbuat bu qeyri-normal vəziyyəti qeyd etməli və onun üzərinə getməlidir. Mətbuat bunu müzakirə etməlidir ki, nəyə görə Azərbaycan kimi iqtisadi cəhətdən dinamik inkişaf edən bir ölkədə reklam bazarı, xüsusən də çap mediasının reklam bazarı bu qədər kasaddır? Bunun səbəblərini araşdırıb ortaya qoymaq lazımdır. Dövlət

bu sahədə bir iş görə bilərsə, biz bunu mətbuatla müzakirə etməyə hazırıq.

**- Reket jurnalistikaya qarşı aparılan mübarizəni necə qiymətləndirirsiniz? Bəzi hallarda reket qəzetləri vəzifəli şəxslərin himayə etməsi məsələsi gündəmə gətirilir və qeyd edilir ki, məhz bu səbəbdən reketçiliyin qarşısını almaq olmur. Hazırda bu fikirlərin reallığa uyğunluğu nə dərəcədədir?**

- Hansısa məmurun və yaxud dövlət strukturunun hansısa mətbuat orqanını himayə etməsinə dair ciddi faktlara malik deyiləm. Əlbəttə, bu, istisna deyil. Mümkündür ki, bu strukturlarda çalışanlar arasında başqa məqsədlərə xidmət edən savadsız insanlar olsun. Onlar dırnaqarası rəqib saydıqları qurumlara, insanlara və yaxud şirkətlərə qarşı reket mətbuatdan istifadə edə bilərlər. Amma bütövlükdə bu meylin özü çox eybəcərdir. Bu, Azərbaycan cəmiyyətindən yığışmalıdır. İnanın ki, bu eybəcərlik yalnız cəmiyyətə deyil, jurnalistikanın özünə illərlə aradan qaldırılması mümkün olmayan zərbələr vurur. Jurnalistikanı nüfuzdan salır, onu cəmiyyətin gözündə kiçildir. İlk növbədə sağlam jurnalistlər, mətbuat orqanları özləri buna qarşı mübarizə aparmalıdırlar. Hesab edirəm ki, Mətbuat Şurasının başladığı bu kampaniyaya bütün mətbuat orqanları və dövlət rəsmiləri dəstək verməlidir. Başqa cür biz sağlam və qeyri-sağlam medianı bir-birindən fərqləndirə bilmərik, medianın nüfuzunu qaldıra bilmərik. Təəssüflər olsun ki, bu gün jurnalist adı ilə jurnalistikanı nüfuzdan salan 50 minə yaxın insan var. Biz mətbuatı onlardan təmizləməliyik. Hansı yolla və vasitə ilə olursa-olsun, onların üzərinə getməliyik, onları mətbuatdan birmənalı təmizləməliyik.

**- “Gündəlik Azərbaycan” və “Realnı Azerbaydjan” qəzetlərinin baş redaktoru Eynulla Fətullayevin problemini müzakirə etmək üçün beş tanınmış jurnalist görüş almaq məqsədi ilə prezident İlham Əliyevə müraciət edib. Jurnalistlərin bu müraciətinə baxılırmı? Prezidentin müraciət müəlliflərini qəbul etməsi gözlənilirmi?**

- Biz prezidentə olan müraciəti şərh edə bilmərik. Bu qəbulun məqsədəuyğun olub-olmadığını, müraciətin qəbul edilib-edilməyəcəyini deyə bilmərik. Bizim səlahiyyətimizə aid deyil. Amma Azərbaycanın nüfuzlu jurnalistlərinin prezidentlə görüşləri dəfələrlə olub. Azərbaycan praktikasında bu var. Rəhmətlik ümum-

milli liderimiz Heydər Əliyevin də, cənab İlham Əliyevin də jurnalistlərlə görüşləri olub. Bundan sonra da belə görüşlər istisna deyil.

**- Avropa İnsan Hüquqları Məhkəməsinin Eynulla Fətullayevlə bağlı qərar çıxarmasından iki ay ötür. Hökumət bu qərardan şikayət verəcəyini elan etsə də, bu hələ baş verməyib. Avropa Şurası isə məhkəmənin qərarının icrasını istəyir. Azərbaycan hökuməti qərardan şikayət vermək fikrindən daşınaraq qərarı icra edə bilərmi?**

- Müvafiq strukturlar bu qərarla bağlı şərhlər veriblər. Avropa Məhkəməsi ilə Azərbaycan hökumətinin münasibətləri, Avropa Məhkəməsinin qərarları ilə Azərbaycan hakimiyyətinin onları icra etməsi arasında uyğunluq və uyğunsuzluq məsələlərinə dair bilavasitə şərh verə bilmərəm. Eynullanın məsələsinə gəlincə, onunla bağlı hazırda məhkəmə gedir, ona görə də bu məsələyə toxunmaq istəmirəm. Çünki mənim bununla bağlı söyləyəcəyim istənilən fikir dərhal hakimiyyətin münasibəti kimi məhkəməyə təzyiq və təsir kimi qiymətləndirilə bilər. Ona görə də bu məsələyə cavab verməkdən çəkinirəm.

**- Parlament seçkisinə bir neçə ay qalmış Milli Məclis Seçki Məcəlləsinə əlavə və dəyişiklik etdi. Sizcə, buna ehtiyac vardımı? Müxalifət hesab edir ki, seçki kampaniyası müddətinin 75 gündən 60 günə endirilməsi təbliğat imkanlarını daha da məhdudlaşdıracaq.**

- Azərbaycanda nə qədər insan varsa, bir o qədər də fikir ola bilər. Beynəlxalq təşkilatların da bu və ya digər məsələ ilə bağlı fərqli fikirləri ola bilər. Hesab edirəm ki, Azərbaycan xalqının seçdiyi 125 deputatın təklifi və müzakirəsi ilə qəbul edilmiş bir qərara icra strukturunun bir məmurunun münasibət bildirməsi etikadan kənar olardı. Ona görə də biz parlamentimizin, deputatlarımızın səs çoxluğu ilə qəbul edilmiş qərarlarına hörmətlə yanaşmalıyıq. Bunun pis, yaxud yaxşı, cəmiyyət üçün xeyirli və ya xeyirsiz olduğunu zaman göstərər. Yaşayarıq, görərik.

Seçki Məcəlləsinə uyğun olaraq və beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində bu il Azərbaycanda şəffaf parlament seçkisi keçiriləcək. Seçkidə iştirak etmək istəyən hər bir namizədin, siyasi partiyanın, ictimai qurumun hüquqları təmin olunacaq. Seçki prose-

sinin şəffaflığının təmini üçün bütün müşahidə institutlarının, qrupların fəaliyyətinə hər cür şərait yaradılacaq.

**- ATƏT-in Bakı ofisinin rəhbəri Əli Bilgə Cankorel bir müddət əvvəl bildirmişdi ki, Bakı Şəhər İcra Hakimiyyəti paytaxtda aksiyaların keçirilməsi üçün ayrılacaq yeni yerlərin siyahısını hazırlayıb. Lakin meriya rəsmiləri bunu təkzib etdilər. Müxalifət isə hesab edir ki, indi ayrılan yerlər aksiyaların keçirilməsi üçün əlverişli deyil. Azərbaycan hakimiyyəti yeni yerlərin ayrılması məsələsinə baxırmı?**

- Hər dəfə olduğu kimi, bu seçkidə də aksiyaların keçirilməsi üçün yerlər ayrılacaq və onların siyahısı mətbuatda dərc olunacaq. Azərbaycanın bütün rayonlarında, yaşayış məntəqələrində lazımı şərait yaradılacaq. Hakimiyyət nümayəndələri, o cümlədən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bunu dəfələrlə bəyan edib. Hesab edirəm ki, hələlik tezdir. Seçkiqabağı görüşlər ərəfəsində bu siyahı qəzetlərdə dərc olunacaq.

Müxalifətin sərbəst toplaşmaq azadlığı ilə bağlı fikirlərinə gəlincə, onların arasında ziddiyyətli və subyektiv yanaşmalar çoxdur. Konkret bilsəydim ki, hansı partiya necə mövqe bildirib, ona şərh verərdim.

**- Əsas narazılıq yaradan məqam şəhərin mərkəzində aksiyalara icazə verilməməsi ilə bağlıdır. Şəhərin mərkəzində aksiyalara icazə verilə bilərmi?**

- Bu məsələ hər bir şəhər, rayon və qəsəbədə fərdi həll olunur. Elə yer var ki, orada şəhərin mərkəzində aksiyalara şərait yaradıla bilər. Nəqliyyatın sıx, insanların gur olduğu yerlərdə aksiyalara yer ayırmaq mümkün deyil. İndiyə qədər harada aksiyalar keçirmək mümkündürsə, orada şərait yaradılıb. Bundan sonra da belə olacaq.

# Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun iyulun 22-də qeyd ediləcək milli mətbuatın yaranmasının 135 illik yubileyi ilə bağlı “Trend”-ə müsahibəsi – 14 iyul 2010-cu il

**- 135 illik tarixi olan Azərbaycan mətbuatının keçdiyi yolu və bugünkü durumunu necə dəyərləndirirsiniz?**

- Əlbəttə, müstəqillik illərində Azərbaycan mətbuatı müəyyən uğurlara nail olub. İlk növbədə, bildiyiniz kimi, 1998-ci ildə Azərbaycan Prezidenti, ümummilli lider Heydər Əliyev tərəfindən mətbuat üzərində dövlət tənzimlənməsini nəzərdə tutan bütün mexanizmlər, o cümlədən senzura ləğv olunub. Azad mətbuatın inkişafı üçün dövlət bütün hüquqi və maddi şərait yaradıb. Mətbuat təsis etmək üçün bütün dövlət icazəvermə mexanizmləri ləğv olunub, mətbuat haqqında qanun tam liberallaşdırılıb, Avropa standartlarına uyğunlaşdırılıb. Mətbuat vasitələri və çap mediası dövlət vergilərindən azad olunub. Mətbuatın inkişafına dövlət qayğısını təmin edən bir neçə sərəncam imzalanıb, o cümlədən Azərbaycan mətbuatının dövlət nəşriyyatına olan borcları əvvəlcə üç il donduruldu, sonra isə ləğv olundu və bu borcların qiyməti təxminən yarım milyon dollardan artıq idi. Bundan başqa, mətbuata güzəştli kreditlər ayrıldı. Beş il müddətinə güzəştli kreditlərin verilməsi ilə bağlı 5 milyon dollardan artıq pul ayrıldı. Jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə dəfələrlə Prezident fərmanı və sərəncamı ilə onların maddi vəziyyətinin yaxşılaşdırılması tədbirləri görülüb. Qəzetlər, redaksiyalara birdəfəlik yardımlar göstərilib. Dövlətimiz çalışır ki, getdikcə bazarın liberallaşdırılması yolu ilə mətbuatın maddi-texniki bazasını, o cümlədən reklam bazarını genişləndirsin. Əlbəttə, bundan istifadə edən mətbuat orqanları da olub, onları Azərbaycan mediasının inkişafına aid etmək olar. Bundan sui-istifadə edərək qeyri-sivil yol tutan mətbuat orqanları da olub. Bunların bəziləri bağlanıb, bəziləri də bu gün reketçilik yolu tutub və onlarla mətbuat ictimaiyyəti arasında ciddi ziddiyyətlər yaşanır.

Mediamızın bu gün yeganə problemi, belə demək mümkünsə, bir tərəfdən qəzetlərin reklam gəlirlərinin aşağı olması və iqtisadi

vəziyyətinin müstəqil inkişaf etməsi üçün yetərli olmaması, digər tərəfdən jurnalist peşəkarlığının aşağı olmasıdır. Bundan başqa, media azadlığı, jurnalist sərbəstliyi getdikcə cəmiyyət tərəfindən qəbul olunduqca jurnalistlərin iş mühiti də yaxşılaşır. Jurnalistlərin azad şəkildə informasiya toplamaq, onu sərbəst şəkildə işləmək, azad şəkildə yaymaq, cəmiyyətdə baş verən hadisələr haqqında sərbəst fikir mübadiləsi aparmaq, istənilən sahələr üzrə tənqidi yazılar yazmaq, istənilən obyekti tənqid etmək, ictimai əhəmiyyət kəsb edən məsələləri ictimai müzakirəyə çıxartmaq və onlar ətrafında sərbəst fikir mübadiləsi aparmaq imkanları yaradılıb. Bütün bunları götürəndə, əlbəttə, medianın inkişafını qənaətbəxş hesab etmək olar. Lakin Azərbaycan mediasında bəzi problemlər də yaşanır ki, biz 135 illik yubileyi ərəfəsində onların bəzilərini mətbuat ictimaiyyəti ilə, bəzilərini dövlət xətti ilə, digər bir qismini isə jurnalistlərin özlərinin iştirakı ilə aradan qaldırmağa çalışırıq.

Son üç ildə medianın inkişafı ilə bağlı dövlət xüsusi bir təşəbbüslə çıxış edib, medianın inkişafını şərtləndirən xüsusi bir Dövlət Proqramı qəbul olunub. Bundan başqa, Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Bu quruma müəyyən səlahiyyətlər verilib, büdcəsinə vəsait ayrılıb və onun vasitəsilə medianın işini stimullaşdırmaq, dövlətin bu sahəyə qayğısını mərkəzləşdirmiş şəkildə təmin etmək məqsədilə müəyyən tədbirlər həyata keçirilir. 135 illik yubiley ərəfəsində yenə respublika səviyyəsində bəzi tədbirlər nəzərdə tutulub və biz bu günlərdə həmin tədbirlərin keçirilməsi ilə bağlı addımlar atacağıq.

**- Azərbaycan mətbuatının regiona və Avropaya inteqrasiyası prosesi Sizi qane edirmi?**

- Əlbəttə, bu gün birmənalı söyləmək olmaz ki, Azərbaycan mediası özünü tam Avropa, dünya standartlarına uyğunlaşdırıb və bu media dünya informasiya məkanında, dünya ictimai rəyində hər hansı bir rol oynayır. Bunu bütün qəzetlərə də aid etmək olar. Azərbaycanın bəzi media orqanları, xüsusən onun internet versiyaları xarici ölkələrdə oxunur - Rusiyanın ictimai dairələrində, türkdilli mətbuat nümunələri Türkiyədə, müəyyən qisim verilişlərimiz, o cümlədən mətbuat orqanları ingilis dilində çıxır ki, onları da səfirliklərdə və onların vasitəsilə ingilisdilli ölkələrdə, ərəb dilində yazılar buraxmağa təşəbbüs göstərən bəzi mətbuat orqanları və yaxud onların internet

saytları ərəbdilli ölkələrdə yeni-yeni oxunmaqdadır. Amma açığı deyim ki, bu gün Avropa və dünya informasiya məkanında Azərbaycan mediası hələ ki ictimai rəy formalaşdırmaq qüdrətində, gücündə deyil. Azərbaycan dövlətinin, xalqının milli mənəvi dəyərlərinin, o cümlədən Azərbaycanın problemlərinin təbliğatı məqsədilə biz yerli mətbuatın imkanlarından nə qədər istifadə etməyə çalışsaq da, lazımi effekti ala bilmirik.

Azərbaycan problemləri deyəndə, məhz ilk növbədə Dağlıq Qarabağ problemi, Azərbaycan torpaqlarının işğal olunması, qaçqın-köçkün problemi, ermənilərin Qafqazda yürütdüyü işğalçılıq siyasəti və Azərbaycanın bu işğalçılığa məruz qalmasını nəzərdə tuturam. Hələ ki bunların dünya mətbuatında işıqlandırılması biz istədiyimiz səviyyədə deyil. Amma yox dərəcəsində də deyil. Son beş ildə bu sahə üzrə bəzi ciddi mexanizmlər qurulub, bu sahəyə ciddi maliyyə vəsaitləri ayrılıb. Lakin yenə təkrar edirəm, bu, yetərli deyil. Biz hələ dünya ictimai rəyini formalaşdırmaq iqtidarında deyilik. Xüsusilə, yerli medianın köməyi ilə bu funksiyanı tam reallaşdıra bilmirik.

Odur ki, biz bəzən bu məqsədlə transmilli media nümunələrinə müraciət etməli oluruq. Onlarda reklam və digər hüquqlarla Azərbaycanın maraqlarını təbliğ edən yazıların, verilişlərin və digər bu tipli materialların hazırlanması məqsədilə fəaliyyət göstəririk. Zaman keçdikcə Azərbaycan mediası bizi əhatə edən postsovet və Avrasiya məkanında müəyyən mexanizmlərə yiyələnməlidir və biz bunun üçün dövlət olaraq maraqlıyıq və buna çalışırıq.

**- Azərbaycan jurnalistikasında peşəkarlığın artırılması üçün hansı tədbirlər görülməlidir?**

- Mən dəfələrlə bu mövzuya toxunmuşam və bəzən mən Azərbaycanda jurnalistikanın əsas problemi - peşəkarlığın çatışmazlığını deyəndə, Azərbaycanın peşəkar jurnalistləri inciyir. Amma mənim əslində bu fikrim o demək deyil ki, Azərbaycanda peşəkar jurnalist yoxdur. Mənim dediyimdən o çıxır ki, Azərbaycanda media sahəsində çalışan və jurnalist adını daşıyan insanların çoxu qeyri-peşəkardır. Azərbaycanda bu gün onlarla, yüzlərlə peşəkar jurnalist varsa, beşyüzlərlə, minlərlə, bəlkə də on minlərlə jurnalist vəsiqəsini daşıyan qeyri-peşəkarlar mediaya doluşub və mətbuat sahəsində fəaliyyət göstərirlər. Ona görə də qeyri-peşəkarların çox olduğu yerdə peşəkar jurnalistlər onların arasında itib-batır. Medianın nüfuzunu,


www.aliyevheritage.org

tendensiyasını, gündəlik media ilə bağlı ictimai rəyi məhz bu qeyri-peşəkar jurnalistlər formalaşdırır. Bu anlamda həmişə deyirəm ki, Azərbaycan jurnalistikasının əsas problemi jurnalist peşəkarlığının aşağı olmasıdır. Bu istiqamətdə əlbəttə ki, dövlət çox iş görə bilməz. Dövlət nə edə bilər? Jurnalist təhsili verən jurnalistika fakültələrinin fəaliyyətini yaxşıllaşdıra, onların sayını artıra bilər, jurnalistlərin peşəkarlığını artıran kurslar təşkil edə bilər, xarici ölkələrdən mütəxəssislər dəvət edə bilər, beynəlxalq jurnalist təşkilatları ilə treninq-seminarlar təşkil edə bilər. Bu sahədə biz neçə illərdir fəaliyyət göstəririk. Tək dövlət yox, Mətbuat Şurası, bəzi jurnalist təşkilatlarının özləri də bu sahədə yetərincə fəaliyyət göstərirlər. Lakin bu fəaliyyət davamlı olmalıdır. Bir tərəfdən peşəkar jurnalistlərin sayını artırmalıyıq, onların peşəkarlıq səviyyəsini yüksəltməliyik, digər tərəfdən qeyri-peşəkarların yolunu bağlamalıyıq, onları media sahəsindən təmizləməliyik.

**- Azərbaycan jurnalistlərinin sosial problemlərinin həlli istiqamətində hansı işlər davam etdirilir?**

- Jurnalistlərin sosial probleminin aradan qaldırılması, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində dövlətin başladığı tədbirlər bundan sonra da davam etdiriləcək və getdikcə genişləndiriləcək. Əlbəttə, onların təfsilatına varmaq istəmirəm, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, o cümlədən cənab Prezidentin ayrı-ayrı dövrlərdə bununla bağlı imzaladığı sərəncamlar, fərmanlar bunun bəzi istiqamətlərini artıq ortaya qoyub. Lakin qeyd etmək istərdim ki, bu istiqamətdə büdcə imkanlarımız, dövlətin maddi vəziyyəti yaxşılaşdıqca, o cümlədən cəmiyyətimizdə iqtisadi, biznes və özəl strukturlar getdikcə mediaya üz çevirərək onlara daha geniş şəkildə reklam verdikcə, bu istiqamətdəki tədbirlər genişləndiriləcək.

**- Azərbaycanda söz və informasiya azadlığının qorunması istiqamətində görülən işləri qənaətbəxş saymaq olarmı?**

- Hesab edirəm ki, Azərbaycanda söz, məlumat, informasiya azadlığı sahəsində beynəlxalq təşkilatları, bizim jurnalistləri narahat edəcək hər hansı ciddi problem yoxdur. Bu problemlər olsa da belə, ayrı-ayrı fərdi problemlərdir və bunlar cəmiyyət həyatının informasiya sahəsinin tendensiyasını təşkil etmir. Lakin bu o demək deyil ki, Azərbaycanda bu sahədə problem yoxdur, müəyyən problemlər

var, amma problemlər bütövlükdə Azərbaycan vətəndaşlarının, media ictimaiyyətinin, jurnalistlərin Konstitusiyada təsbit olunmuş azad şəkildə informasiya toplamaq, onu sərbəst şəkildə yaymaq, cəmiyyəti maraqlandıran məsələləri ictimai müzakirəyə çıxarmaq, onlar ətrafında açıq müzakirələr həyata keçirmək, fikirlərini söyləmək hüquqlarına qətiyyən toxunmur, onlara mane olmur. Və bu anlamda biz cəmiyyətin fundamental informasiya azadlığı hüququnu, söz, mətbuat fəaliyyəti ilə məşğul olmaq hüququnu, azad şəkildə baş verən hadisələr haqqında informasiya almaq hüququnu və yaxud jurnalistlərin informasiya toplayıb yaymaq hüqunu təmin etmişik. Lakin bu informasiya hüququnun təmin edilməsi bu sahədəki problemlərin tam aradan qaldırılması demək deyil.

Problemlər bütün postsovet məkanında olduğu kimi, Azərbaycanda da mövcuddur. Bunların, təkrar edirəm, bir qismi jurnalistlərin peşəkarlığı, digər qismi azad medianın dairəsinin hələ bizi qane edəcək səviyyəyə çatmaması ilə bağlıdırsa, üçüncü qismi jurnalistikadan müəyyən məqsədlərlə sui-istifadə edən kifayət qədər jurnalistikaya yad insanların bu sahəyə doluşması ilə əlaqəlidir. Digər bir qismi mətbuatın maddi-texniki bazasının aşağı olması, başqa qisimləri isə media sahəsində fəaliyyət göstərən insanların özlərindən asılıdır. Biz zaman-zaman bunları media ictimaiyyəti, Mətbuat Şurası, jurnalist ictimaiyyəti, aparıcı qəzetlərin redaktorları ilə müzakirə edirik və onların aradan qaldırılması yollarını axtarırıq. Bu, dövlətin siyasətidir, bu siyasət bundan sonra da davam etdiriləcək.

***Konfranslar***

# Respublika konfransında kütləvi informasiya vasitələrinin dili müzakirə olunur - 25 iyun 2010-cu il

İyunun 25-də AMEA Nəsimi adına Dilçilik İnstitutunun və Azərbaycan Mətbuat Şurasının birgə təşəbbüsü ilə "Kütləvi informasiya vasitələrinin dili" mövzusunda respublika elmi konfransı işə başlamışdır.

Konfransda giriş sözü ilə AMEA Humanitar və İctimai Elmlər Bölməsinin akademik katibi, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Ağamusa Axundov və Azərbaycan Mətbuat Şurası sədrinin müavini Umud Rəhimoğlu çıxış etmişlər.

Tədbirdə Azərbaycanda mətbuat və dil xüsusiyyətləri, mediada söz yaradıcılığının inkişafı, kütləvi informasiya vasitələrində (KİV) alınma sözlərin işlənmə məqamları, idman leksikası və digər məsələlərlə bağlı məruzələr dinləniləcək, mövzular ətrafında fikir mübadiləsi aparılacaqdır.

Konfransda ölkədə KİV sahəsində fəaliyyət göstərən tanınmış alim və mütəxəssislər, media qurumlarının rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak edirlər.

## Yevlaxda “Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilmişdir - 29 iyun 2010-cu il

Prezident İlham Əliyevin “Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı ilə əlaqədar olaraq hazırlanmış tədbirlər planına uyğun olaraq Yevlaxda “Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilmişdir.

Konfransda Prezident Administrasiyasının, Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun, Mətbuat Şurasının, ətraf rayonların dövlət qurumlarının təmsilçiləri, bölgə qəzetlərinin redaktorları iştirak etmişlər.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi meydanındakı abidəsi önünə çiçək dəstələri düzmüş, xatirəsinə ehtiramlarını bildirmişlər.

Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev tədbiri açaraq iştirakçıları salamlamış, milli mətbuatın 135 illik yubileyi ilə əlaqədar ölkə miqyaslı tədbirlərə bu bölgədən başlanılmasını bütün yevlaxlılara göstərilən yüksək etimad kimi qiymətləndirmişdir.

Prezident Adminstrasiyasın ictimai-siyasi məsələlər şöbəsinin mətbuat və informasiya orqanları ilə iş sektorunun müdiri Vüqar Əliyev Prezidentin “Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamından, milli mətbuatın keçdiyi yoldan, müstəqil mətbuatın yaranması və inkişafında ümummili lider Heydər Əliyevin rolundan, KİV-lərə göstərilən dövlət qayğısından danışmışdır.

Konfransda çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov 1875-ci il iyulun 22-də görkəmli alim, maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan “Əkinçi” qəzetinin fəaliyyəti, Azərbaycan milli mətbuatının keçdiyi şərəfli yol barədə ətraflı məlumat vermişdir.

Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli Fondun fəaliyyətindən, keçirdiyi müsabiqələr, konfranslar, seminarlar barədə danışmışdır.

Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının sədri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Ümid Mirzəyev, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Milli Məclisin deputatı İlham Məmmədov respublikada söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün yaradılmış şəraitdən, müstəqil mətbuatın inkişafında ümummilli lider Heydər Əliyevin rolundan, ulu öndərin sərəncamları ilə mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin azad fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədi ilə həyata keçirilmiş tədbirlərdən danışmışlar.

Konfransda rayon qəzetlərinin redaktorları və yerli icra strukturlarının nümayəndələri çıxış edərək bölgə mətbuatının fəaliyyəti və problemlərindən bəhs etmişlər.

## Azərbaycan mətbuatının 135 illiyi ilə əlaqədar konfrans keçirilmişdir - 30 iyun 2010-cu il

AzərTAc xəbər verir ki, Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutunda Azərbaycan mətbuatının 135 illiyi ilə əlaqədar konfrans keçirilmişdir.

Həsən bəy Zərdabi adına Dünya Azərbaycanlıları Xeyriyyə Cəmiyyəti tərəfindən təşkil olunmuş tədbirdə çıxış edənlər milli mətbuatımızın yaranmasında və inkişafında Həsən bəy Zərdabinin xidmətlərindən danışmışlar.

## Bakı Dövlət Universitetində “Azərbaycan milli mətbuatı 135: tarixi yolu və müasir inkişaf meyilləri” mövzusunda konfrans keçirilmişdir - 30 iyun 2010-cu il

İyunun 30-da Bakı Dövlət Universitetində (BDU) “Azərbaycan milli mətbuatı 135: tarixi yolu və müasir inkişaf meyilləri” mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.

Prezident İlham Əliyevin “Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında” 2010-cu il 10 iyun tarixli Sərəncamı ilə əlaqədar olaraq hazırlanmış tədbirlər planına uyğun olaraq təşkil edilmiş tədbirdə Prezident Administrasiyasının, Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun, Mətbuat Şurasının nümayəndələri, universitetin professor-müəllim heyəti, tələbələr iştirak etmişlər.

Konfransda Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Ərəstun Mehdiyev və BDU-nun kafedra müdiri, professor Şamil Vəliyev məruzələrlə çıxış etmişlər.

Həm məruzələrdə, həm digər çıxışlarda Azərbaycanda söz və məlumat azadlığının təmin edilməsindən, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün yaradılmış şəraitdən bəhs olunmuş, müstəqil mətbuatın inkişafında ümummilli lider Heydər Əliyevin rolu, ulu öndərin sərəncamları ilə mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin azad fəaliyyətinin təmin edilməsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirildiyi vurğulanmışdır.

# Zərdabda “Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilmişdir - 1 iyul 2010-cu il

İyulun 1-də Zərdabda “Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilmişdir.

AzərTAc xəbər verir ki, Azərbaycan milli mətbuatının 135 illik yubileyinə həsr olunmuş mərasimin iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin və Həsən bəy Zərdabinin abidələrini ziyarət etmişlər. Onlar H.B.Zərdabinin ev-muzeyinə gələrək buradakı eksponatlarla tanış olmuşlar.

Rayon icra hakimiyyətinin başçısı Lütfəli Babayev Həsən bəy Zərdabi irsinə verilən böyük əhəmiyyətin nümunəsi olan tədbirin təşkilatçılarına təşəkkürünü bildirmiş, ölkədə mətbuatın inkişafına göstərilən dövlət qayğısından söhbət açmışdır. O, Azərbaycan Prezidentinin milli mətbuatın 135 illik yubileyinin keçirilməsi haqqında Sərəncamını bu sahədə həyata keçirilən məqsədyönlü siyasətin mühüm tərkib hissəsi olduğunu vurğulamışdır.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovun “Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda məruzəsi dinlənilmişdir. Şura sədri demişdir ki, görkəmli mütəfəkkir Həsən bəy Zərdabinin 1875-ci il iyulun 22-də nəşrinə başladığı “Əkinçi”nin mövzu dairəsi, toxunduğu məsələlər o zamankı Azərbaycan cəmiyyətinin ictimai şüurunda tam yeni bir səhifə açmışdır.

Məruzəçi Azərbaycan mətbuatının sovetlər birliyi dövründəki fəaliyyətinə aydınlıq gətirərək, diqqəti onun respublikamızın ikinci dəfə müstəqilliyini əldə etməsindəki roluna yönəltmişdir. Ölkəmizdə medianın inkişafına dövlət qayğısını vurğulayan Ə.Amaşov bu məqsədlə müxtəlif illərdə həyata keçirilən məqsədyönlü tədbirləri xatırlatmışdır.

Məruzə ətrafında müzakirələrdə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətlərindən söhbət açmışdır. O, 2009-cu ilin mayından işə başlayan Fondun ötən müddətdəki təcrübəsinin media ilə bağlı əhatəli proqramların işlənib hazırlanması üçün əsas yaratdı-

ğını diqqətə çatdırmışdır.

Mətbuat Şurası sədrinin müavini, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının sədri Umud Rəhimoğlu diqqəti Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasına yönəltmişdir. Fondun Müşahidə Şurasının sənəddə nəzərdə tutulan prinsiplərin reallaşması istiqamətində ardıcıl fəaliyyət göstərdiyini deyən U.Rəhimoğlu bu məqsədlə beynəlxalq təcrübənin də öyrənilməsinə geniş yer verildiyini vurğulamışdır.

Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycanda 1993-cü ildən bəri media sahəsində həyata keçirilən dövlət siyasətinin mahiyyətcə mətbuatın saflığının qorunmasına, jurnalistikamızın mütərəqqi ənənələrinin bərqarər olmasına yönəldiyini demişdir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin ötən müddət ərzində imzaladığı fərman və sərəncamlar, qəbul edilmiş qanunlar həm mediamızın saflaşması prosesinə dəstəkdir, həm də ümumilikdə mediaya dövlət qayğısının yeni nümunələridir.

Zərdabda çıxan "Əkinçi" qəzetinin redaktoru Üsaməddin Əhmədov rəhbərlik etdiyi nəşrin keçdiyi yoldan danışmışdır. O, tarixi ad daşıyan mətbu orqanın ötən illər ərzindəki yaradıcılıq xüsusiyyətlərini təhlil edərək, qəzetin bölgə KİV-ləri arasındakı özəlliklərinə toxunmuşdur.

Konfransda Həsən bəy Zərdabi nəslinin nümayəndələri də iştirak etmişlər. Onlardan akademik Böyükkişi Ağayev Həsən bəyin və onun övladlarının ömür yolu barədə ətraflı məlumat vermişdir. O, Zərdabi irsinin öyrənilməsinə göstərilən diqqətə və bu irsin yüksək tutulmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir. Zərdabi nəslinin digər nümayəndəsi Sara xanım İsayeva da eyni fikirləri bölüşərək, konfrans iştirakçılarını təmsil olunduğu nəslin həyat və fəaliyyətinə dair məlumatlarla tanış etmişdir.

Kürdəmir Rayon İcra Hakimiyyətinin şöbə müdiri Ağəli Kərimov, "Xocavənd" qəzetinin redaktoru Gültəkin Ağayeva və başqaları Azərbaycanda mediaya dövlət qayğısının spesifik cəhətləri barədə məlumat verməklə yanaşı, bəzi media vasitələrinin fəaliyyətinin Həsən bəy Zərdabi ənənələrinə uyğun gəlmədiyini təəssüf hissi ilə

vurğulamışlar. Onlar belə halların aradan qaldırılmasında Mətbuat Şurasının daha fəal iş aparmasını arzuladıqlarını bildirmişlər.

Konfransa yekun vuran Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Vüqar Əliyev ölkəmizdə media sahəsində dövlət siyasətinin prioritetlərindən söhbət açmışdır. O, Prezident İlham Əliyevin milli mətbuatımızın 135 illik yubileyinin keçirilməsi barədə 2010-cu il 10 iyun tarixli Sərəncamı ilə əlaqədar tədbirlər planı haqqında məlumat verərək, sənəddən irəli gələn vəzifələrin uğurla icra ediləcəyinə əminliyini bildirmişdir.

Vüqar Əliyev Sara İsayevaya Mətbuat Şurası adından hədiyyə təqdim etmişdir.

## Gəncədə milli mətbuatımızın 135 illiyi ilə əlaqədar konfrans keçirilmişdir - 7 iyul 2010-cu il

Milli mətbuatımızın 135 illiyi ilə əlaqədar Gəncədə elmi-nəzəri konfrans keçirilmişdir.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə əklil qoymuşlar.

Tədbirdə Qazax, Tovuz, Ağstafa, Gədəbəy, Daşkəsən, Səmkir, Samux, Göygöl və Kəlbəcər rayonları icra hakimiyyəti başçılarının müavinləri və şöbə müdirləri, eləcə də regionun kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Konfransı giriş sözü ilə Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Ərəstun Mehdiyev açaraq Azərbaycan mətbuatının tarixindən, müstəqillik dövründə mətbuatın inkişafı və demokratikləşməsi istiqamətində görülən işlərdən danışmışdır. Natiq qeyd etmişdir ki, ölkəmizdə azad sözə, azad fikrə yaradılan imkanların nəticəsidir ki, hazırda 4 mindən artıq mətbu orqan qeydiyyatdan keçmişdir və bunun da 300-dən artığı fasiləsiz nəşr olunur.

Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə mətbuatın inkişafına böyük önəm verildiyini bildirən Ə.Mehdiyev demişdir ki, həmin dövrdə qanunvericilik bazasının möhkəmləndirilməsi istiqamətində bir çox sərəncamlar imzalanmışdır. 1998-ci ildə mətbuat üzərindən senzura götürülməklə dövlətin mətbuata nəzarəti ləğv edilmişdir. Həmin il kütləvi informasiya vasitələri əlavə dəyər vergisindən azad edilmiş, 2001-ci ildə qəzet kağızlarının respublikaya gətirilməsindən tutulan vergilər götürülmüşdür. 2002-ci ildə isə qəzetlərin fəaliyyətini sabitləşdirmək məqsədi ilə onların nəşriyyatlara olan borcları dondurulmuşdur ki, bu da ölkədə söz azadlığının inkişafına göstərilən qayğının nümunəsidir.

Ümummilli liderimizin mətbuatın inkişafına göstərdiyi qayğının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirirldiyini vurğulayan şöbə müdirinin müavini qeyd etmişdir ki, dövlətimizin başçısının 2005-ci ildə imzaladığı Sərəncamla KİV-lərin 450 min ABŞ dolları məbləğində borcları silinmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Fondunun yaradılması isə milli mətbuatımızın

tarixində ən önəmli hadisələrdəndir.

Jurnalistlərin peşə hazırlığının dövlətin daim diqqət mərkəzində olduğunu bildirən natiq demişdir ki, bunun üçün yüzlərlə jurnalist xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərə göndərilmiş, onların peşə hazırlığının yüksəldilməsi istiqamətində məqsədyönlü iş aparılmışdır.

Ərəstun Mehdiyev qazanılan uğurlarla yanaşı, yol verilən nöqsanları da konfrans iştirakçılarının nəzərinə çatdırmışdır. O, təəssüflə demişdir ki, bu qayğıdan öz şəxsi məqsədləri üçün istifadə etməyə çalışanlar vardır. Onların bu əməli Azərbaycan mətbuatının və Həsən bəy Zərdabi ənənələrinin üzərinə kölgə salır.

Regionlardakı kütləvi informasiya vasitələrinin fəaliyyətinə toxunan natiq demişdir ki, bu orqanların inkişafı ölkəmizdə demokratik cəmiyyət quruculuğunun başlıca istiqamətlərindəndir. Lakin bəzi hallarda qeyri-peşəkarların bu sahəyə gəlişi, ümumilikdə mətbuat haqqında mənfi rəy yaradır və nəticədə oxucuların azalmasına səbəb olur.

Sonra Mətbuat Şurasının sədri Əflatun Amaşov “Azərbaycan mətbuatı-135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda məruzə ilə çıxış etmiş, əsası 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən “Əkinçi” qəzeti ilə qoyulan milli mətbuatımızın tarixindən, onun keçdiyi çətin və şərəfli yoldan, xalqın maarifləndirilməsi üçün Azərbaycan ziyalılarının həyata keçirdikləri məqsədyönlü işlərdən danışmışdır.

Konfransda Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Milli Məclisin deputatları, “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov və “Ədalət” qəzetinin baş redaktoru Aqil Abbas çıxış edərək Azərbaycan mətbuatının indiki durumunu təhlil etmiş, bu sahədə mövcud nöqsanların aradan qaldırılması yollarından danışmışlar.

Sonra regionlarda nəşr olunan KİV-lərin fəaliyyəti və onların qarşılaşdıqları problemlərlə bağlı fikirlər dinlənilmişdir.

Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Ərəstun Mehdiyev konfransa yekun vurmuşdur.

# Şəkidə Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş regional konfrans keçirilmişdir
# 9 iyul 2010-cu il

İyulun 9-da Şəki şəhərində “Azərbaycan milli mətbuatı - 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda regional konfrans keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Ərəstun Mehdiyev, şəhər rəhbərliyi, Mətbuat Şurasının, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun nümayəndələri, bölgə rayonlarının mətbuat işçiləri, ziyalılar iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri düzmüş, xatirəsini ehtiramla yad etmişlər.

Azərbaycan Müəllimlər İnstitutu Şəki filialının konfrans zalında keçirilən tədbiri giriş sözü ilə açan şəhər İcra hakimiyyətinin başçısı Murad Cabbarlı bildirmişdir ki, zəngin tarixi ənənələrə malik olan Azərbaycan milli mətbuatının 135 yaşı tamam olur. 1875-ci il iyulun 22-də görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan “Əkinçi” qəzeti ilə əsası qoyulmuş milli mətbuatımız bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur.

M.Cabbarlı bildirmişdir ki, müstəqilliyimizin ilk illərində çətin günlərini yaşayan Azərbaycan mətbuatı gerçəkdən öz müstəqilliyinə yalnız 1993-cü ildə nail olmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlər, o cümlədən senzura aradan qaldırılmış, KİV-lərin qanunvericilik bazası təkmilləşdirilmiş və müasir dünya standartlarına uyğunlaşdırılmışdır.

Region mətbuatının uğurları barədə danışan M.Cabbarlı bu gün Şəkidə 6 mətbu orqan - “Şəki”, “Şəki bələdiyyəsi”, “Region Şəki”, “Şəki təhsili”, “İpəkçi” və “Şəffaf biznes” qəzetlərinin nəşr olunduğunu bildirmişdir.

Tədbir iştirakçılarını Azərbaycan milli mətbuatının 135 illik yubileyi münasibətilə təbrik edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Ərəstun Mehdiyev Prezident İlham Əliyevin iyunun 10-da yubileylə əlaqədar xüsusi Sərəncam imzaladığını xatırlatmışdır. Bildirmişdir ki, Sərəncama uyğun olaraq, milli mətbuatımızın 135 illiyi ilə əlaqədar paytaxtda və bölgələrdə müxtəlif tədbirlər keçirilir. İndiyədək Zərdab, Yevlax və Gəncə şəhərlərində belə tədbirlərin keçirildiyini xatırladan Ə.Mehdiyev Şəkidən sonra daha 4 regionda konfransların baş tutacağını nəzərə çarpdırmışdır.

Qeyd olunmuşdur ki, dövlətimizin başçısının yubileylə bağlı Sərəncam imzalamasının özü mətbuata, onun cəmiyyətdəki roluna, yerinə verilən yüksək qiymətdir. Milli mətbuatımız yarandığı gündən indiyədək Azərbaycan cəmiyyətinin, xalqının həyatında, dövlətçiliyimizin möhkəmləndirilməsində özünəməxsus fəal rol oynamışdır. Milli mətbuatımız müxtəlif dövrlərdə xalqımızı, cəmiyyətimizi düşündürən problemləri işıqlandırmış, bu məsələlərə münasibətini açıqlamışdır. Bununla da cəmiyyətimizin, xalqımızın, dövlətimizin inkişafına öz töhfəsini vermişdir.

Ə.Mehdiyev mətbuatın cəmiyyətdə çox geniş funksiyası olduğunu diqqətə çatdırmışdır. Bildirmişdir ki, mətbuat həm məlumatlandırır, həm maarifləndirir, həm də milli-mənəvi dəyərlərin qorunub saxlanmasında, bəşəri ideyaların cəmiyyətə aşılanmasında mühüm rol oynayır. Mətbuatın müəyyən funksiyaları müxtəlif dövrlərdə özünü daha qabarıq şəkildə göstərmişdir. Bu da cəmiyyətin özünün yaşadığı dövrdən, qarşıda duran vəzifələrdən və aktuallıq kəsb edən məsələlərdən asılı olmuşdur. Ölkəmizdə mətbuat həmişə fəal olmuş və xüsusən də müstəqillik illərində onun rolu daha da artmışdır.

Natiq bildirmişdir ki, jurnalistlər cəmiyyətimizdəki bütün proseslərdə yaxından iştirak edirlər və mətbuat-dövlət münasibətləri də dinamik inkişaf yolundadır. Bu inkişaf yolu heç də həmişə rəvan olmamışdır. Müxtəlif mərhələlərdə mətbuat-cəmiyyət, mətbuat-dövlət münasibətlərində bir sıra ziddiyyətli məqamlar, bir sıra kəskin dönüş anları da olmuşdur. Lakin bütövlükdə cəmiyyətin, dövlətin inkişafı mətbuat ilə dövlət orqanları arasındakı münasibətlərdən həmişə nəzərəçarpacaq dərəcədə asılı olmuş, daim birgə səylərin müəyyən istiqamətə yönəldilməsi qarşıda duran vəzifələrin daha uğurlu həllinə yeni imkanlar açmışdır.

Prezident Administrasiyasının rəsmisi demişdir ki, dövlətimizin

başçısı İlham Əliyevin imzaladığı Sərəncamda da vurğulandığı kimi, Azərbaycan milli mətbuatı bu gün də ölkəmiz üçün mühüm məsələlərin həllində çox yaxından iştirak edir. Mətbuat, xüsusən də Azərbaycan milli mətbuatı tarixən qlobal məsələləri əks etdirmək, bütövlükdə cəmiyyətimizin inkişafına xidmət etməklə yanaşı, tariximizin öyrənilməsində mühüm yazılı mənbə rolunu da oynamışdır. Yuxarıda qeyd etdiyim funksiyalardan əlavə olaraq, zaman keçdikcə mətbuatımızı vərəqlədikcə, biz tariximizin hansı inkişaf mərhələlərindən keçdiyinin, cəmiyyətin hansı məsələləri həll etdiyinin şahidi oluruq, onları yaxından izləmək, öyrənmək imkanı əldə edirik. Məsələn, XIX əsrdə “Əkinçi” qəzetinin yarandığı dövrdən etibarən milli mətbuatımızın tarixinə nəzər salsaq görərik ki, bu qəzet və ondan sonrakı  mətbuat orqanları Azərbaycan xalqının,  cəmiyyətimizin keçdiyi müxtəlif ictimai-siyasi prosesləri, mədəni inkişafı, iqtisadi-sosial dirçəlişi və bu sahədə meydana çıxan problemləri öz səhifələrində əks etdirmişlər.

Ə.Mehdiyev daha sonra bölgə mətbuatının qarşısında duran mühüm vəzifələrdən bəhs etmişdir.

Konfransda Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovun “Azərbaycan milli mətbuatı - 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda məruzəsi dinlənilmişdir.

Konfransda, həmçinin Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və başqaları çıxış edərək, Prezident İlham Əliyevin milli mətbuatımızın 135 illik yubileyinin keçirilməsi haqqında Sərəncamını dövlətimizin media sahəsində məqsədyönlü və ardıcıl siyasi xəttinin uğurla reallaşmasının bariz nümunəsi kimi qiymətləndirmişlər. Qeyd etmişlər ki, bu gün jurnalistlərin peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi, onların sosial problemlərinin həlli Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir.

Tədbiri Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Ərəstun Mehdiyev yekunlaşdırmışdır.

## Lənkəranda "Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər" silsiləsindən sayca beşinci konfrans keçirilmişdir - 13 iyul 2010-cu il

İyulun 13-də Lənkəranda "Azərbaycan milli mətbuatı-135: tarixi nailiyyətlər və perspektivlər" silsiləsindən sayca beşinci konfrans keçirilmişdir.

Əvvəlcə şəhərin Heydər Əliyev parkında ümummilli liderin abidəsi önünə gül dəstələri düzülmüş, xatirəsi ehtiramla yad olunmuşdur.

Prezident Administrasiyasının, KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondunun və Mətbuat Şurasının təşkilatçılığı ilə keçirilən konfransda 14 şəhər və rayonun icra hakimiyyətlərinin ictimai təşkilatlarla və siyasi partiyalarla iş şöbələrinin müdirləri, həmin rayonlarda nəşr olunan qəzet və jurnalların redaktorları, cənub bölgəsində fəaliyyət göstərən KİV-lərin təmsilçiləri iştirak etmişlər.

Konfransı giriş sözü ilə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Tahir Süleymanov açaraq "Əkinçi" qəzetinin tarixinə ekskurs etmiş, nəşrin əsas məqsədinin Azərbaycan cəmiyyətini maarifləndirmək və məlumatlandırmaq, xalqın ictimai şüurunun inkişafına, milli özünüdərk prosesinə təkan vermək olduğunu bildirmişdir. Vurğulamışdır ki, 1991-ci ildən başlayaraq Azərbaycan mətbuatının tarixində yeni bir dövr başlanmışdır. Hazırda Ədliyyə Nazirliyində qeydiyyata alınmış mətbu orqanların sayı 4 min 200, müntəzəm nəşr olunan qəzetlərin sayı isə 300-dən çoxdur. Azərbaycan mətbuatının çiçəklənmə dövrü ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra başlanmışdır. Ulu öndər milli mətbuatın inkişafına həmişə böyük əhəmiyyət verir, vaxtaşırı mətbuat işçiləri ilə görüşür, onların fikirlərinə, təkliflərinə böyük həssaslıqla yanaşırdı. Məhz bu dövrdə Azərbaycanda mətbuatın mükəmməl qanunvericilik bazası yaradılmış, mətbuatın fəaliyyətini tənzimləyən ən zəruri qanunlar qəbul edilmişdir. Bu dövrdə, həmçinin mətbuatın inkişafına mane olan süni əngəllər, o cümlədən senzura aradan qaldırılmışdır. Ümummilli liderin 1998-ci il avqustun 6-da imzaladığı Sərəncama əsasən senzuranı həyata keçirən idarə - mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirrini mühafizə baş idarəsi ləğv olunmuşdur. Ulu öndər, eyni

zamanda, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsini diqqət mərkəzində saxlayırdı. Belə ki, 1998-ci ildə qəzet redaksiyaları əlavə dəyər vergisindən azad olunmuş, 2001-ci ildə Azərbaycana idxal olunan qəzet kağızlarına tətbiq olunan gömrük rüsumları ləğv edilmişdir. O dövrdə qəzetlərin "Azərbaycan" nəşriyyatına böyük məbləğdə borcu yaranmışdı. 2002-ci ilin iyulunda qəzet redaktorlarının ümummilli liderlə görüşü zamanı bu məsələ qaldırılmış, 2003-cü ilin yanvarında Azərbaycan Prezidentinin Sərəncamı ilə qəzetlərin bu nəşriyyata olan borcları 3 il müddətinə dondurulmuşdu. Ümummilli liderin mətbuatla bağlı bu siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə, uğurla davam etdirilir. Bu gün Azərbaycan təkcə regionda deyil, dünyada inkişaf etmiş ölkələrdən biridir. Azərbaycanın iqtisadi və maddi imkanları artır. Bu, dövlətə imkan verir ki, mətbuatın inkişafı ilə bağlı daha təsirli tədbirlər həyata keçirsin. 2006-cı ilin fevralında Azərbaycan Prezidentinin Sərəncamı ilə qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları silinmişdir. 2005-ci ildən başlayaraq dövlət başçısının Sərəncamı ilə qəzetlərə mətbuat günü ərəfəsində birdəfəlik yardımlar edilir. 2005-ci ildə 35 qəzetin hər birinə 2 min manat, 2008-ci ildə 38 qəzetin hər birinə 5 min manat, 2009-cu ildə isə 39 qəzetin hər birinə 10 min manat yardım edilmişdir. Mətbuatın davamlı inkişafını təmin etmək üçün 2009-cu ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır. Fond iki il ərzində qəzetlərdən, jurnallardan və digər KİV-lərdən daxil olan layihələrlə bağlı 3 milyon manata yaxın vəsait xərcləmişdir. Son beş ildə 300-ə yaxın jurnalistə dövlət mükafatları təqdim edilmişdir. İyunun 10-da Azərbaycan Prezidenti milli mətbuatın 135 illik yubileyinin keçirilməsi ilə əlaqədar Sərəncam imzalamışdır. Bütün bunlar Azərbaycan Prezidentinin milli mətbuatın inkişafına, mətbuat işçilərinə göstərdiyi qayğının təzahürüdür.

T.Süleymanov qeyd etmişdir ki, adı çəkilən Sərəncamdan irəli gələrək müxtəlif bölgələrdə konfranslar keçirilmişdir. Tədbirlər yüksək səviyyədə təşkil olunmuş, medianın hazırkı durumu, keçdiyi tarixi yol haqqında geniş diskussiyalar aparılmışdır.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov rayonun Azərbaycanın ictimai fikrində xüsusi yerinin olduğunu demişdir. Rəhbərlik etdiyi bölgədə fəaliyyət göstərən kütləvi informasiya

vasitələri barədə statistik məlumatlar verən T.İbrahimov medianın kəmiyyət əmsalının keyfiyyətlə uzlaşmasının vacibliyini qabartmışdır. "Ölkədə mediaya dövlət qayğısı daim artır. Mövcud sahədə ardıcıl siyasət yürüdülür. Möhtərəm Prezidentimiz İlham Əliyevin milli mətbuatın 135 illik yubileyi münasibətilə imzaladığı Sərəncam bunun növbəti əyani nümunəsidir. Belə vəziyyətdə istər kütləvi informasiya vasitələrinin, istərsə də onların məlumat mənbələrinin üzərinə böyük məsuliyyət düşür", - deyə o vurğulamışdır.

Mətbuat Şurasının (MŞ) sədri Əflatun Amaşov "Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər" mövzusunda məruzə etmişdir. Şura sədri bildirmişdir ki, 1875-ci ildən bu günədək Azərbaycan mətbuatı respublikanın ictimai-siyasi, sosial-mədəni ab-havasının formalaşmasında başlıca faktor rolunu oynamağı bacarmışdır. Bunu böyük nailiyyət adlandıran Ə.Amaşov mövcud statusun heç də asanlıqla əldə edilmədiyini vurğulamışdır.

Ölkədə media sahəsində mükəmməl qanunvericilik bazasının mövcud olduğunu vurğulayan MŞ sədri diqqəti bəzi sui-istifadə hallarına da yönəltmişdir: "Ölkədə qəzet, jurnal, informasiya agentliyi təsisi üçün münbit şərait var. Hər kəs cüzi tələbləri yerinə yetirməklə media sahibi ola bilər. İstərdim ki, məsələnin mənfi və müsbət tərəflərini ətraflı nəzərdən keçirək. Kütləvi informasiya vasitələrinin 4000-i ötən sayı keyfiyyətlə nə dərəcədə uzlaşır?", - deyən Ə.Amaşov media sahəsindəki problemlərin digər cəhətlərindən də geniş bəhs etmişdir.

Məruzə ətrafında çıxış edən Mətbuat Şurası İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətlərindən söhbət açmışdır. Mətbuata dövlət dəstəyinin prinsip və formaları barədə məlumat verən V.Səfərli qurumun görəcəyi işlər barədə məlumat vermişdir.

Mətbuat Şurası İdarə Heyətinin üzvü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid çıxışında KİV-lərin cəmiyyətin həyatında daşıdığı missiyanı xüsusi vurğulamışdır.

Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli media sahəsindəki problemlərdən danışmışdır. "Çox yaxşı haldır ki, ölkədə jurnalistika sahəsində

müsabiqələrin sayı artır. Bunlar jurnalistlərin maddi vəziyyətini yaxşılaşdırmaq, peşəni stimullaşdırmaq baxımından əhəmiyyətli rol oynayır", - deyə o əlavə etmişdir.

Digər çıxış edənlər- "Yeni gün" qəzetinin (Cəlilabad) redaktoru Böyükxan Bağırlı, "Suqovuşan" qəzetinin (Sabirabad) redaktoru Pakizə Məmmədova, "Yeni həyat" qəzetinin (Masallı) redaktoru Əyyub Mehdiyev, Cəlilabad, Lerik, Astara rayon icra hakimiyyətlərinin şöbə müdirləri İnqilab Quliyev, Əlipənah Bayramov, Azər Abdullayev və başqaları ölkə rəhbərliyinin söz və mətbuat azadlığı ilə bağlı məsələlərə daim həssas yanaşdığını bildirərək, milli mətbuatın 135 illik yubileyinin keçirilməsi ilə bağlı Prezident Sərəncamını bu həssaslığın və jurnalistikanın tarixinə verilən əhəmiyyətin növbəti bariz nümunəsi kimi dəyərləndirmişlər.

***Tədbirlər, dəyirmi masalar***

## Mətbuat Şurası İdarə Heyətinin növbəti iclası keçirilmişdir - 11 iyun 2010-cu il

İyunun 11-də Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin iclası keçirilmişdir.

Şuranın sədri Əflatun Amaşov Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrdən danışmışdır. Bu mühüm dövlət sənədində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun və Mətbuat Şurasının da üzərinə müvafiq öhdəliklərin düşdüyü bildirilmişdir.

İdarə heyətinin üzvləri çıxışlarında dövlətimizin başçısının imzaladığı Sərəncamın mətbuata və jurnalistlərimizə göstərilən qayğının daha bir nümunəsi olduğunu bildirmişlər. Sənəddə nəzərdə tutulan müddəalarla bağlı konkret təkliflərin hazırlanması qərara alınmışdır.

Sonra Şuranın Ali Media Mükafatının təsis edilməsi, digər nominasiyaların, mükafatların sayı və mükafat fondunun dəqiqləşdirilməsi qərara alınmışdır.

İclasda Bakının bir sıra rayonlarında səyyar qəzet satışı ilə bağlı son vaxtlar yaranmış problemi araşdıran qrupun üzvləri Şura sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu və "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin məlumatları dinlənilmiş, araşdırmaların davam etdirilməsinin vacibliyi vurğulanmışdır.

# Milli mətbuatımızın 135 illiyi Ədliyyə Nazirliyində qeyd edilmişdir - 30 iyun 2010-cu il

Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında milli mətbuatımızın 135 illiyi münasibətilə tədbir keçirilmişdir.

Tədbiri Ədliyyə Akademiyasının prorektoru, baş ədliyyə müşaviri İlham Abbasov açaraq demişdir ki, 1875-ci il iyulun 22-də görkəmli maarifçi və publisist Həsənbəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan “Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı özünəməxsus tarixi bir yol keçmişdir. Vurğulanmışdır ki, Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maarifləndirilməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.

Qeyd edilmişdir ki, ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən Azərbaycanda söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinə şərait yaradılması prioritet vəzifə kimi müəyyənləşdirilmişdir.

Tədbirdə milli mətbuatımızın inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna rolu xüsusi qeyd edilmiş, onun imzaladığı 1998-ci il 6 avqust tarixli “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzuranın ləğv edilməsinin milli mətbuatımızın inkişafına güclü təkan verdiyi vurğulanmışdır.

Yığıncaqda qeyd edilmişdir ki, ümummilli lider Heydər Əliyevin idarəçilik məktəbinin ən layiqli davamçısı, Prezident İlham Əliyev də bu sahədə dövlət siyasətini uğurla davam etdirir.

Dövlətimizin başçısının 2009-cu ilin mayında imzaladığı Sərəncam ilə Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması xüsusi vurğulanmış, onun milli mətbuatımızın daha da inkişafına xidmət göstərdiyi qeyd edilmişdir.

# “Dəyirmi masa”da jurnalistlərin sosial vəziyyətinin həlli məsələləri müzakirə edilmişdir - 6 iyul 2010-cu il

AzərTAc xəbər verir ki, iyulun 6-da Azərbaycan Jurnalist Qadınlar Assosiasiyasının (JQA) təşkilatçılığı ilə “Milli mətbuatın 135 illik yubileyi, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması yolları” mövzusunda “dəyirmi masa” keçirilmişdir.

Assosiasiyanın prezidenti Sevil Yusifova müstəqillik dövründə mətbuatımızın inkişafından danışmış, milli mətbuatımızın 135 illiyinin geniş qeyd olunması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmış sərəncamın əhəmiyyətini vurğulamışdır.

Milli Məclisin deputatları Lalə Abbasova və Qüdrət Həsənquliyev, Azərbaycan Mətbuat Şurası sədrinin müavini Umud Rəhimoğlu jurnalistlərin qarşısında duran vəzifələrdən danışmışlar. Qeyd edilmişdir ki, jurnalistlər yüksək peşəkarlıq qabiliyyətinə yiyələnməli, məsuliyyətli və vicdanlı olmalı, mətbuatımızın səviyyəsini yüksəltməlidirlər.

“Dəyirmi masa”da jurnalistlərin sosial vəziyyətinin yaxşılşdırılması məsələləri də müzakirə edilmiş, müvafiq təkliflər verilmişdir.

# "Səs" qəzetində milli mətbuatın 135-ci ildönümünə həsr olunmuş "Dəyirmi masa" keçirilmişdir 7 iyul 2010-cu il

İyulun 7-də "Səs" qəzetinin redaksiyasında milli mətbuatın 135-ci ildönümünə həsr olunmuş "dəyirmi masa" keçirilmişdir.

"Dəyirmi masa"nı giriş sözü ilə açan "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev bildirmişdir ki, milli mətbuatın 135 illik yubileyinin qeyd olunması mühüm əhəmiyyət kəsb edir. "Əkinçi" qəzetinin nəşrə başladığı vaxtdan hesablanan mətbuat tariximiz ötən dövrdə böyük yol keçmişdir. Azərbaycan mətbuatının bu gün ən böyük dinamika ilə inkişaf edən sahələrdən biri olduğunu diqqətə çatdıran baş redaktor bugünkü "dəyirmi masa"nın məqsədinin həm ötən yola, həm də perspektivlərə nəzər salmaqdan ibarət olduğunu bildirmişdir.

"Dəyirmi masa"da çıxış edənlər – Bakı Dövlət Universitetinin (BDU) kafedra müdiri Cahangir Məmmədli, Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) baş direktorunun müavini Dağbəyi İsmayılov, BDU-nun professoru Qulu Məhərrəmli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, Jurnalist Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev və başqaları bildirmişlər ki, 1875-ci il iyulun 22-də görkəmli maarifçi Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuşdur. Cəmiyyəti düşündürən problemləri əks etdirmiş milli mətbuatımız Azərbaycan xalqının maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. Azərbaycan mətbuatının xalqımızın azadlıq arzularının gerçəkləşməsinə əvəzsiz töhfələr verdiyini vurğulayan natiqlər, məhz müstəqillik illərində mətbuat və söz azadlığı sahəsində mühüm nailiyyətlərin əldə edildiyini vurğulamışlar.

Qeyd olunmuşdur ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu gün Azərbaycanda mətbuat və söz azadlığına dövlət tərəfindən ən yüksək səviyyədə diqqət və qayğı

göstərilir. Prezident İlham Əliyevin milli mətbuatın 135 illiyi ilə əlaqədar 2010-cu il 10 iyun tarixli Sərəncamının əhəmiyyətini qeyd edən natiqlər vurğulamışlar ki, mətbuat tariximizə göstərilən diqqət jurnalist əməyinə verilən ən yüksək qiymətdir.

Tədbirdə yubiley ərəfəsində olan Azərbaycan jurnalistikasının qarşılaşdığı problemlər, onların aradan qaldırılması yolları, elektron medianın inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılmışdır.

## Naxçıvan Mətbuat Şurasının növbəti yığıncağı keçirilmişdir - 8 iyul 2010-cu il

Naxçıvan Mətbuat Şurasının növbəti yığıncağı Azərbaycan milli mətbuatının yaranmasının 135 illik yubileyinə həsr edilmişdir.

Tədbiri giriş sözü ilə şuranın sədri Fərəc Fərəcov açaraq əsası 135 il bundan əvvəl Həsən bəy Zərdabinin rəhbərliyi ilə nəşrə başlayan "Əkinçi" qəzeti ilə qoyulan Azərbaycan mətbuatının keçdiyi inkişaf yolundan danışmışdır.

Sonra mövzu ətrafında çıxışlar olmuşdur. Qeyd edilmişdir ki, hazırda ölkəmizdə mətbuatın sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə geniş imkanlar yaradılmışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində ölkəmizdə mətbuat inkişaf etmiş, peşəkar jurnalistlər yetişmişdir. Mətbuata inam və etimad nümayiş etdirən, onun qaldırdığı problemlərin həllinə çalışan ümummilli lider senzuranı ləğv etmiş, jurnalistlərin böyük dostu sayılan dövlət xadimi kimi yaddaşlarda qalmışdır. Bu gün ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında mətbuata böyük diqqət və qayğı göstərilir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Əməkdar Jurnalisti Mətanət Məmmədovanın bu günlərdə çapdan çıxmış "Qəzet jurnalistikası" kitabının təqdimatı olmuşdur. Həmçinin "Ekologiya ili" münasibətilə keçirilən müsabiqənin qalibləri mükafatlandırılmışlar.

Sonra şuranın idarə heyətinin üzvləri şəhər (rayon) qəzetlərinin iyun ayında çap olunan nömrələrini müzakirə etmiş, yol verilən nöqsanları diqqətə çatdırmışlar.

# “...Heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır...” - 9 iyul 2010-cu il

(Bakı, 9 iyul. AzərTAc). 2001-ci ildə Azərbaycan xalqının ümummilli lideri, ulu öndərimiz Heydər Əliyev ona “Jurnalistlərin dostu” mükafatının təqdim edilməsi mərasimində demişdir: “... Heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır...”.

Bir neçə gündən sonra Azərbaycan milli mətbuatının 135 illik yubileyini bayram edəcəyik. Bayram ərəfəsində ümummilli liderimizin bu dəyərli kəlamı bizi bir daha işıqlı gələcəyə, üzərimizə düşən vəzifələrə daha obyektiv yanaşmağa, həqiqətin gözünə dik baxmağa səsləyir. Ulu öndər ölkəmizdə söz, fikir, mətbuat azadlığının tam təmin edilməsi üçün bu sahəyə daha çox diqqət ayırırdı. O, mətbuatın ictimai-siyasi həyatda rolunu, cəmiyyətdə ictimai rəyin formalaşmasına təsir gücünü çox gözəl qiymətləndirir, mətbuata, sözə dəyər verirdi: “Azərbaycanın böyük tarixi var. Bu böyük tarixə nəzər salanda görürük ki, heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır, fikir bu qədər azad olmayıbdır, mətbuat bu qədər azad olmayıbdır”. Bəli, bu həqiqətdir və bunun təməlində dahi liderin mətbuatın inkişafı naminə göstərdiyi diqqət və qayğı dayanır.

Milli mətbuat ictimai rəyin formalaşmasında, ictimai-siyasi proseslərin inkişaf istiqamətlərinin müəyyənləşməsində mühüm əhəmiyyət kəsb edir. Müasir cəmiyyətdə milli mətbuatın önəmli rol oynamasında, onun siyasi münasibətlərə və proseslərə yaxından nüfuz etməsində ümummilli liderin xidmətləri böyükdür. Azad, müstəqil mətbuat həm də demokratiyanın əsas atributlarından biridir. Ümummilli lider kütləvi informasiya vasitələrini hər şeydən əvvəl Azərbaycan həqiqətlərinə xidmət etməyə, xalqımızın keçdiyi yolu, qarşılaşdığı çətinlikləri, onun uğur və problemlərini doğru-düzgün, obyektiv işıqlandırmağa, cəmiyyətimizin demokratikləşməsinə və tərəqqisinə xidmət etməyə çağırır, mətbuat işçilərinə ümummilli, ümumxalq, dövlətçilik qayələrinə xidmət etməyi tövsiyə edirdi. Ulu öndərin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Azərbaycan milli mətbuatının tarixi görkəmli maarifçi və publisist Həsən bəy Zərdabinin 1875-ci ildə buraxdığı ilk anadilli qəzet - "Əkinçi"dən başlayır. O, bu qəzeti nəşr etməklə Azərbaycanın qaranlıq dünyasına işıq saçdı, nur çilədi, milli oyanış və tərəqqiyə yol açdı. Daxili və xarici düşmənlər Həsən bəyin bu mənəvi qəhrəmanlığının qarşısına sədd çəksələr də, onun həyat verdiyi ideya və əməlləri dayandıra, məhv edə bilmədilər. Həsən bəyin böyük bir "Əkinçi" kimi səpdiyi toxumlar cücərdi, vətənin, millətin təəssübünü çəkən, onun azadlığı və müstəqilliyi naminə çalışan yeni ziyalılar nəsli yetişdi.

XIX əsrin ikinci yarısında Azərbaycanda ictimai-siyasi, sosial və mədəni sahələrdə yeni bir canlanma yaranırdı. Bu dövrdə meydana gələn "Əkinçi" qəzetinin savadsızlığın aradan qaldırılmasında gördüyü işlər bütün türk dünyası üçün önəmli əhəmiyyətə malikdir. Öz səhifələrini sosial həyatdan siyasətə, oradan dil və ədəbiyyata qədər olduqca geniş bir sahəyə açan "Əkinçi", müsəlman bacı və qardaşlarının savadlanması, ziyalanması üçün M.F.Axundzadənin mədəniyyət sahəsində başladığı islahatları davam etdirir, ilham qaynağı olacaq dil birliyi fikrinin gündəmə gətirilməsində böyük payı olan ilk mətbuat orqanı kimi dəyərləndirilir, Azərbaycan milli mətbuatının təməli hesab edilir.

Azərbaycan maarifçiliyinin böyük nümayəndələri sırasında xüsusi yeri olan Həsən bəy Zərdabi çətinliklə ərsəyə gətirdiyi "Əkinçi" qəzetinin ilk nömrəsini 1875-ci il məhz iyulun 22-də Azərbaycan oxucusuna təqdim etmişdir. Beləliklə, əkməklə başlayan mətbuatımız, həm də azad sözün toxumlarını səpmişdir. "Əkinçi" millətin aynası oldu. Həsən bəy Zərdabi Azərbaycanda hökm sürən cəhalətin və savadsızlığın aradan qaldırılması üçün mətbuatı əvəzolunmaz vasitə hesab edirdi. O, bu nəşrlə Azərbaycanda milli mətbuatın əsasını qoydu və bu mətbu orqan maarifçilik ideyalarının yayılmasında müstəsna xidmətlər göstərdi.

Daha sonra bu yol mətbuat tariximizin bünövrəsi sayıla biləcək "Şərqi-Rus", "Həyat", "Füyuzat", "Açıq söz", "Molla Nəsrəddin" kimi qəzet və jurnalların simasında davam etdirildi. Azərbaycanın bu günü və sabahı üçün, sözün həqiqi mənasında, nümunə ola biləcək böyük bir məktəbin əsası qoyuldu. Bu məktəb, ilk növbədə xalqımızın milli mənəvi dəyərlərinin, adət-ənənələrinin qorunub saxlanılmasında üzərinə götürdüyü missiyanı ləyaqətlə həyata keçirdi.

Azərbaycan mətbuatı müstəqilliyimizin qazanılmasında və onun qorunub saxlanılmasında müstəsna xidmətlər göstərdi. Azad və demokratik cəmiyyət quruculuğu istiqamətində, müstəqil ictimai fikrin formalaşmasında mühüm funksiya oldu.

Bu gün Azərbaycan dövləti azad, müstəqil mətbuatın formalaşması istiqamətində diqqətəlayiq addımlar atır və atmaqdadır. Ümummilli lider Heydər Əliyevin işıqlı ideyalarının və amallarının carçısı, onun strategiya və siyasi xəttini ləyaqətlə, öz dəst-xətti ilə irəliyə aparan Prezident İlham Əliyevin Azərbaycan milli mətbuatının inkişafına göstərdiyi diqqət və qayğısı daim hiss olunmaqdadır. Dövlətimizin başçısının 2008-ci ildə Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) ev sahibliyi ilə Bakıda keçirilən Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının – OANA-nın 30-cu iclasının iştirakçılarına ünvanlanmış təbrik məktubunda deyilir: “Dövlətin informasiya siyasəti Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuş fikir, söz və məlumat azadlığının, vətəndaşların informasiya əldə etmək hüququnun təmin edilməsinə, habelə cəmiyyətin obyektiv məlumatlandırılması funksiyasını effektiv yerinə yetirməsi üçün kütləvi informasiya vasitələrinə zəruri şərait yaradılmasına yönəlmişdir”.

Dövlətimizin başçısının “Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında” 2010-cu il 10 iyun tarixli Sərəncamı ölkəmizdə kütləvi informasiya vasitələrinə göstərilən diqqət və qayğının parlaq təzahürüdür.

Milli mətbuatın ən vacib və gərəkli vəzifəsi ictimai şüuru Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, möhkəmləndirmək və daha da inkişaf etdirmək istiqamətində kökləməkdir və bu baxımdan Azərbaycan milli mətbuatı işıqlı ideyaların həyata keçirilməsi üçün bütün milləti birləşdirən qüvvəyə çevrilməlidir.

# Milli mətbuatımızın 135 illik yubileyi münasibətilə müsabiqənin qalibləri məlum olmuşdur 9 iyul 2010-cu il

İyulun 9-da M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Mədəniyyət" qəzetinin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə bu mövzuda yazan jurnalistlər arasında keçirdiyi müsabiqənin qaliblərinin mükafatlandırılmasına və milli mətbuatımızın 135 illiyinə həsr edilmiş tədbir keçirilmişdir.

AzərTAc xəbər verir ki, tədbirdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycan mətbuatının tarixindən, müstəqillik dövründə KİV-lərın inkişafı və demokratikləşməsi istiqamətində görülən işlərdən danışmışdır.

Bildirilmişdir ki, ölkəmizdə azad sözə, azad fikrə yaradılan imkanlar nəticəsində bu sahədə ciddi irəliləyişə nail olunmuşdur.

Ə.Qarayev demişdir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu gün Azərbaycanda mətbuat və söz azadlığına dövlət tərəfindən ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin milli mətbuatın 135 illiyi ilə əlaqədar 2010-cu il 10 iyun tarixli Sərəncamının əhəmiyyətini qeyd edən nazir vurğulamışdır ki, mətbuat tariximizə göstərilən diqqət jurnalist əməyinə verilən ən yüksək qiymətdir.

Ölkə mətbuatında çalışan hər bir qələm sahibini, xüsusilə mədəniyyət və turizm sahəsindən yazan jurnalistləri təbrik edən Əbülfəs Qarayev son illər Azərbaycanın qəzetçilik sahəsində, poliqrafiya və nəşriyyat işində irəliləyişlər olduğunu diqqətə çatdırmışdır.

Vurğulanmışdır ki, son illərdə ölkəmizin çap məhsulları bir çox beynəlxalq kitab sərgilərində müvəffəqiyyətlə nümayiş etdirilmiş və fəxri fərmanlara layiq görülmüşdür. Azərbaycan mədəniyyətinin, incəsənətinin təbliği istiqamətində ciddi addımlar atılmış və bu sahədə işlər hazırda uğurla davam etdirilir.

Daha sonra "Mədəniyyət" qəzetinin keçirdiyi "Mədəniyyət

sahəsində ən yaxşı jurnalist işi” müsabiqəsinin qaliblərinə və milli mətbuatımızın 135 illik yubileyi ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyi ilə fəal əməkdaşlığa görə bir qrup jurnalistə fəxri fərman və pul mükafatları  təqdim edilmişdir.

Müsabiqənin qalibləri sırasında AzərTAc-ın əməkdaşları Ağaqulu Niftəliyev və Abdulla Suvar da vardır.

## “Azərbaycan milli mətbuatının keçmişi, bu günü, və gələcəyi” mövzusunda tədbir keçirilmişdir 12 iyul 2010-cu il

İyulun 12-də “Türkiyə Universitetləri Məzunları” İctimai Birliyi (TUMİB) Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar “Azərbaycan milli mətbuatının keçmişi, bu günü və gələcəyi” mövzusunda “dəyirmi masa” keçirmişdir.

TUMİB-in sədri Çingiz Bayramov zəngin tarixi, mütərəqqi və şanlı ənənələri olan Azərbaycan milli mətbuatının keçdiyi şərəfli yola nəzər salmış, milli mətbuatımızın nailiyyətlərindən danışmış, jurnalistlərə uğurlar arzulamışdır. Bildirmişdir ki, 1875-ci il iyulun 22-də görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan “Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində mühüm rol oynamışdır. Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur. XlX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində “Əkinçi” ənənələrini davam etdirən “Ziya”, “Kəşkül”, “Şərqi-rus”, “Həyat”, “İrşad”, “Molla Nəsrəddin” və digər nəşrlər insanları yüksək ideallar uğrunda mübarizəyə səsləmiş, milli oyanış və özünüdərk prosesinin aparıcı nümunələri kimi tanınaraq şöhrət qazanmışlar. Hazırda ölkəmizdə 3500-dən artıq mətbuat orqanının fəaliyyət göstərməsi demokratiyanın mühüm göstəricisidir.

Ç.Bayramov vurğulamışdır ki, iyulun 22-ni türk dünyasının mətbuat günü kimi təklif edəcəyik.

Jurnalistləri peşə bayramı münasibətilə təbrik edərək onlara yaradıcılıq uğurları arzulayan Prezident Administrasiyasının məsul işçisi Vüqar Səlimov Azərbaycanda söz və mətbuat azadlığının təmin edilməsi istiqamətində görülən işlərdən, qarşıda duran vəzifələrdən danışmışdır. Bildirmişdir ki, hüquqi dövlətdə kütləvi informasiya vasitələri (KİV) dövlət və vətəndaş cəmiyyəti arasında əlaqələndirici, vasitəçi funksiyasını yerinə yetirir. Azərbaycanda vətəndaşın azad söz söyləməsi üçün dövlət tərəfindən hərtərəfli şərait yaradılmışdır. “Əkinçi” qəzetinin ənənələri davam edir. Azərbaycanda ictimai rəyin

formalaşmasında KİV-in rolu böyükdür. Mövcud sosial məsələlərin, sosial problemlərin ictimaiyyətə, cəmiyyəti narahat edən məsələlərin dövlətin nəzərinə çatdırılmasında KİV bir növ ötürücü rol oynayır. Dövlət bu sahənin inkişafını daim diqqətdə saxlamışdır və bu siyasət davam etdirilir.

V.Səlimov vurğulamışdır ki, ötən illər ərzində KİV-in maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində çoxsaylı tədbirlər görülmüş, dövlət proqramları həyata keçirilmiş, Azərbaycan Prezidenti tərəfindən fərmanlar və sərəncamlar verilmişdir. Bu sahədə mütərəqqi addımlardan biri Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılmasıdır. Fond KİV-in maddi-texniki bazasının yaxşılaşdırılmasına, onların ictimai şüurun, ictimai rəyin formalaşmasında tam şəkildə iştirak etməsinə imkan yaradır. Bunların hamısı onu göstərir ki, Azərbaycanda azad mətbuat vardır. Azərbaycan mətbuatının daha da inkişaf etdirilməsi üçün dövlət tədbirlər görür. İnanıram ki, KİV bundan sonra da ictimai rəyin formalaşmasında mühüm rol oynayacaqdır.

Prezident Administrasiyasının məsul işçisi diqqətə çatdırmışdır ki, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması dövlətin diqqət mərkəzindədir. Jurnalistika yaradıcılıqdır. Əgər hər hansı bir mətbuat orqanına insanlar daha çox müraciət edirsə, deməli, orada işləyən insanlar cəmiyyəti düşündürə bilirlər. Hər hansı bir qəzet, jurnal, informasiya agentliyi ətrafına gücü kadrlar yığırsa, onların fəaliyyəti ictimai rəyin formalaşmasına təsir edir. İnsanlar kütləvi şəkildə internetdən istifadə edir, məlumatlar öyrənir. Bu, inkişaf deməkdir. Bu gün Azərbaycanda hər kəs öz fikirlərini sərbəst şəkildə ifadə edə bilir. Cəmiyyəti narahat edən məsələlər KİV vasitəsilə dövlət orqanlarının diqqətinə çatdırılır. Demokratik cəmiyyətlərdə belədir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan mətbuatının inkişafına daim diqqət və qayğı göstərdiyini vurğulayan V.Səlimov qeyd etmişdir ki, həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Daha sonra TUMİB-in baş katibi Rauf Əliyev, TUMİB-in mətbu oqranı olan "Seçkin" qəzetinin baş redaktoru Anar Əşrəfli, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu, "Səs" İnformasiya Agentliyinin əməkdaşı Elçin Bayramlı və digər natiqlər Azərbaycan milli mətbuatının keçdiyi çətin və şərəfli yoldan, ölkəmizdə mətbuat

və söz azadlığının təmin edilməsi sahəsində görülən işlərdən danışmış, mövcud problemlərə toxunmuş, KİV nümayəndələrinə uğurlar arzulamışlar.

Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olmasında ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətlərini xatırladan natiqlər ölkəmizdə kütləvi informasiya vasitələrinin normal fəaliyyət göstərməsi üçün zəruri qanunvericilik bazasının yaradıldığını, senzuranın aradan götürüldüyünü, jurnalistlərin əməyinin qiymətləndirildiyini xüsusi vurğulamışlar. Bir daha qeyd olunmuşdur ki, hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə xüsusi vurğulanmışdır ki, mətbuata dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir.

Sonda bir neçə jurnalistə, o cümlədən Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) müxbiri Xalid Məmmədova TUMİB-in təsis etdiyi "Seçkin" fəxri diplomu təqdim edilmişdir.

# "Azərbaycan həqiqətləri beynəlxalq media müstəvisində" mövzusunda "Dəyirmi masa" keçirilmişdir - 15 iyul 2010-cu il

Azərbaycan Sosial Rifah Partiyası (ASRP) iyulun 15-də "Xalq qəzeti"nin redaksiyasında milli mətbuatımızın 135 illiyi münasibətilə "Azərbaycan həqiqətləri beynəlxalq media müstəvisində" mövzusunda "dəyirmi masa" keçirmişdir.

Azərbaycan Mətbuat Şurası üzvlərinin, Milli Məclis deputatlarının, siyasi partiya təmsilçilərinin iştirak etdiyi tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

Tədbirdə ASRP-nin sədri, Milli Məclisin deputatı, professor Xanhüseyn Kazımlı ölkəmizdə 1993-cü ildən bəri müşahidə olunan sosial–iqtisadi tərəqqi, ictimai–siyasi uğurlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə, bu yöndə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərdən danışmışdır.

"Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov Azərbaycan milli mətbuatının keçdiyi tarixi mərhələlər haqqında ətraflı məlumat vermişdir.

Mili mətbuatımızın dünəni və bu gününü müqayisəli şəkildə təhlil edən H.Həsənov onun inkişafı üçün əlverişli fəaliyyət mühitinin mövcudluğundan, inkişaf perspektivlərindən söz açmışdır.

Digər çıxış edənlər milli mətbuatımızın 135 illik yubileyinin təşkili və keçirilməsində Prezident İlham Əliyevin qayğısını, həmçinin ölkəmizin bütün bölgələrində bu əlamətdar tarixin yüksək səviyyədə qeyd edilməsini vurğulamışlar.

Azərbaycan həqiqətlərinin Rusiyanın kütləvi informasiya vasitələrində əks etdirilməsində xidmətlərə və bu ölkənin mətbuat orqanları ilə mütəmadi əməkdaşlığa görə Milli Məclisin deputatı Xanhüseyn Kazımlı "Tribuna" qəzetinin "Şərəf nişanı" ilə təltif edilmişdir.

## Azərbaycan milli mətbuatının 135 illik yubileyinə həsr olunmuş növbəti tədbir Xaçmazda keçirilmişdir 16 iyul 2010-cu il

İyulun 16-da Xaçmazda “Azərbaycan milli mətbuatı-135: tarixi nailiyyətlər və perspektivlər” silsiləsindən sayca altıncı regional konfrans keçirilmişdir.

Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin, KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondunun və Mətbuat Şurasının təşkilatçılığı ilə keçirilən konfransda şimal rayonlarının icra hakimiyyətlərinin ictimai təşkilatlarla və siyasi partiyalarla iş şöbələrinin müdirləri, həmin rayonlarda nəşr olunan qəzet və jurnalların redaktorları, KİV-lərin təmsilçiləri iştirak etmişlər.

Xaçmaz Rayon İcra Hakimiyyətinin binasında keçirilən regional konfransda Prezident Administrasiyasının şöbə müdiri, professor Əli Həsənov çıxış edərək vurğulamışdır ki, 135 illiyini qeyd etdiyimiz Azərbaycan milli mətbuatı böyük və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olmuş, xalqın üzləşdiyi problemləri diqqət mərkəzinə gətirərək, ictimaiyyətin müzakirəsinə çıxarmışdır. Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirmişdir. Milli mətbuatın “Əkinçi” qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri maarifləndirmə, müasirləşmə, məfkurə saflığı, ümumi məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl prinsiplərini ortaya qoymuşdur.

Ə.Həsənov diqqətə çatdırmışdır ki, “Əkinçi” ilə əsası qoyulmuş milli mətbuat sonrakı dövrdə Azərbaycan maarifçiləri tərəfindən inkişaf etdirilmişdir. Sovet dövründə Azərbaycan mətbuatı sosializm, realizm prinsipləri əsasında fəaliyyət göstərsə də, öz inkişafını davam etdirmiş, ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikirlərə yer vermiş, vətənpərvər ruhlu məqalələr dərc etmişdir. Azərbaycan dilinin, mədəniyyətinin inkişafında mətbuatın rolu daim artmış, jurnalistika yeni-yeni ənənələr və dəyərlərlə zənginləşmişdir.

Ə.Həsənov vurğulamışdır ki, 1993-cü ildə xalqın təkidli tələbi

ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan Respublikasının əsasını qoymuşdur. Məhz bu dövrdə dövlətimizin idarəçilik işi tam formalaşmış, ölkəmiz müstəqil dövlət olaraq beynəlxalq birliyə uğurla inteqrasiya etmişdir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında söz, fikir və məlumat azadlığı ilə bağlı konkret müddəalar öz əksini tapmışdır. Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizm, söz və mətbuat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmışdır. KİV fəaliyyətini tənzimləyən qanuvericilik bazası təkmilləşdirilərək, beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Azərbaycan Prezidentinin “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” 1998-ci il 6 avqust tarixli Fərmanı ilə senzura ləğv edilmişdir.

Ə.Həsənov bildirmişdir ki, Heydər Əliyev həmişə jurnalistika peşəsinə dərin hörmət bəsləmiş, mətbuat işçiləri ilə yaxın təmasda olmuş, onların problemləri ilə maraqlanmış və heç vaxt öz köməyini jurnalistlərdən əsirgəməmişdir. Ulu öndər KİV-in maddi-texniki bazasının möhkəmlənidirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi, onlara müvafiq güzəştlərin təyin edilməsi istiqamətində ardıcıl qərarlar qəbul etmiş, müvafiq Fərman və sərəncamlar imzalamışdır.

Şöbə müdiri, professor Əli Həsənov Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevrilən və beynəlxalq aləmdə söz, nüfuz sahibi olan Azərbaycanda bu gün media sahəsində həyata keçirilən dövlət siyasətinin müxtəlif aspektlərindən də ətraflı söhbət açmışdır.


www.aliyevheritage.org

## Diaspor mövzusunda yazan jurnalistlər mükafatlandırılmışlar - 17 iyul 2010-cu il

Milli mətbuatımızın 135 illik yubileyi münasibətilə jurnalistlər arasında “Diaspor mövzusunun kütləvi informasiya vasitələrində işıqlandırılması” mövzusunda keçirilmiş müsabiqənin nəticələri iyulun 17-də açıqlanmışdır.

Müsabiqə Diasporla İş üzrə Dövlət Komitəsi, Mətbuat Şurası və Heydər Əliyev adına Beynəlxalq Azərbaycan Forumunun ölkəmizdəki nümayəndəliyinin təşkilatçılığı ilə keçirilmişdir.

Mətbuat Şurasının sədri Əflatun Amaşov diasporumuzun formalaşmasında və inkişafında Azərbaycan mətbuatının böyük rol oynadığını demişdir. Bildirilmişdir ki, milli mətbuatımızın banisi Həsən bəy Zərdabi dəfələrlə Azərbaycandan kənarda yaşayan soydaşlarımızın həmrəyliyinin vacibliyini qeyd etmişdir.

Vurğulanmışdır ki, milli mətbuatımızın 135 illiyi ilə əlaqədar Prezident İlham Əliyevin 2010-cu il iyunun 10-da imzaladığı Sərəncam ölkədə KİV-lərin inkişafına göstərilən yüksək diqqət və qayğının nəticəsidir.

Diasporla İş üzrə Dövlət Komitəsi aparatının rəhbəri Nəriman Qurbanov Azərbaycan mətbuatının dövlətimizin bütün sahələrdə əldə etdiyi uğurları ətraflı işıqlandırdığını vurğulamış, diasporun inkişafının və komitənin fəaliyyətinin daim KİV-lərin diqqətində olduğunu qeyd etmişdir.

Digər çıxışlarda da dövlətimizin yürütdüyü siyasətin dünyada tanıdılması, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında mətbuatın rolu yüksək qiymətləndirilmiş, belə müsabiqələrin əhəmiyyəti vurğulanmışdır.

Sonra müsabiqədə qalib gəlmiş jurnalistlər hədiyyələr və pul mükafatları ilə təltif edilmişlər.

# Azərbaycan milli mətbuatının 135 illik yubileyi Səbail rayonunda qeyd olunmuşdur - 19 iyul 2010-cu il

İyulun 19-da Səbail Rayon İcra Hakimiyyətində Azərbaycan milli mətbuatının 135 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Səbail rayon İcra hakimiyyətinin başçısı Asif Əsgərov bildirmişdir ki, 135 illiyini qeyd etdiyimiz Azərbaycan milli mətbuatı böyük və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olmuşdur. Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirmişdir.

İcra başçısı vurğulamışdır ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin siyasi iradəsi nəticəsində plüralizm, söz və mətbuat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmışdır. KİV-lərin fəaliyyətini tənzimləyən qanuvericilik bazası formalaşmış, onun maddi-texniki bazasının inkişafı istiqamətində addımlar atılmışdır. Azərbaycan Prezidentinin müvafiq Fərmanı ilə senzura ləğv edilmiş, qəzetlərin nəşriyyata olan borcları əvvəlcə dondurulmuş, sonradan birdəfəlik ləğv edilmişdir.

Qeyd edilmişdir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi xətti bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir.

Dövlətimizin başçısının dərindən düşünülmüş, müdrik siyasəti sayəsində dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevrilən Azərbaycanda bu gün medianın inkişafı üçün də hər cür şərait yaradıldığı vurğulanmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli rəhbərlik etdiyi qurumun fəaliyyət göstərdiyi bir il ərzində görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat vermişdir.

Tədbirdə digər çıxış edənlər milli mətbuatımızın zəngin və

şərəfli yoluna nəzər salmış, Azərbaycan müstəqillik əldə etdikdən sonra mətbuat sahəsində əldə olunan uğurlardan danışmışlar.

Sonra müxtəlif KİV-ləri təmsil edən jurnalistlərə qiymətli hədiyyələr təqdim olunmuşdur.

# Milli Qeyri-Hökumət Təşkilatları Forumu jurnalistləri mükafatlandırmışdır - 19 iyul 2010-cu il

İyulun 19-da Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu (MQF) milli mətbuatımızın 135 illik yubileyi münasibətilə tədbir keçirmişdir.

MQF-nin prezidenti Rauf Zeyni KİV-lərin təmsilçilərini əlamətdar gün münasibətilə təbrik etmiş, ölkədə mətbuatın inkişafı üçün əlverişli mühitin yaradıldığını bildirmişdir. Vurğulanmışdır ki, MQF Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı prosesində KİV-lərlə yaxından əməkdaşlıq edir.

AzərTAc xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin əməkdaşı Elman Paşayev Həsən bəy Zərdabinin nəşr etdirdiyi “Əkinçi” qəzeti ilə əsası qoyulmuş milli mətbuatımızın inkişaf tarixinə nəzər salmış, Azərbaycanda maarifçilik hərəkatının formalaşmasında bu qəzetin mühüm rol oynadığını qeyd etmişdir.

E.Paşayev demişdir ki, 1993-cü ildə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin bu sahədə həyata keçirdiyi mühüm tədbirlər milli mətbuatımızın inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. 1998-ci ildə senzuranın ləğvi, 2000-ci ildə KİV-lərin inkişafı ilə bağlı Dövlət Proqramının qəbulu, qəzetlərin “Azərbaycan” nəşriyyatına olan borclarının ləğv edilməsi, qəzet redaksiyalarının maddi-texniki bazasının gücləndirilməsi dahi öndərin mətbuatın inkişafına göstərdiyi diqqətin tərkib hissəsi olmuşdur.

Prezident Administrasiyasının nümayəndəsi ulu öndərin mətbuatımızın inkişafına göstərdiyi diqqət və qayğının Prezident İlham Əliyev tərəfindən də davam etdirildiyini bildirmişdir. Milli mətbuatımızın 135 illik yubileyinin geniş qeyd edilməsi ilə bağlı dövlətimizin başçısının iyunun 10-da imzaladığı Sərəncam Azərbaycanda jurnalist əməyinə verilən yüksək qiymətdir.

Tədbirin sonunda Azərbaycanda milli mətbuatın və vətəndaş cəmiyyətinin inkişafında xidməti olan KİV-lərə və jurnalistlərə fəxri fərmanlar və hədiyyələr təqdim edilmişdir.

## 135 illik çətin və şərəfli yol - 19 iyul 2010-cu il

Bakı, 19 iyul (AzərTAc). 22 iyul - Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur.

Dövrün görkəmli ziyalısı Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə nəşr etdirdiyi “Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.

Qəzet öz ətrafında Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və digər qabaqcıl fikirli, demokratik əqidəli maarifçiləri toplamışdı.

Azərbaycanda maarifçilik hərəkatının formalaşmasında əsas rol oynamış “Əkinçi”nin əsas məqsədi fanatizmi, cəhaləti aradan qaldırmaq, xalqı elmə, maarifə, tərəqqiyə çağırmaq, onun elmi-mədəni səviyyəsini yüksəltmək olmuşdur. H.Zərdabi 1906-cı ildə “Həyat” qəzetində çap etdirdiyi “Rusiyada əvvəlinci türk qəzeti” adlı məqaləsində yazmışdı: “Hər kəsi çağırıram - gəlməyir, göstərirəm - görməyir, deyirəm - qanmayır. Belədə qəzet çıxarmaqdan savayı bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin”.

Qəzetin səhifələrində yeni tipli bədii ədəbiyyat, incəsənət, dil, pedaqogika, dərslik, tərcümə, kitab nəşri, kitabxana və digər aktual mövzularda yazılara geniş yer verilmişdi. Xalqın mədəni səviyyəsini yüksəltmək, onu maarifləndirmək, asudə vaxtın səmərəli təşkili ilə bağlı “Əkinçi” konkret təklif və tövsiyələr vermişdir.

“Əkinçi” qadın azadlığı və qadın təhsili ideyasını təbliğ edən ilk Azərbaycan qəzeti olmuşdur. Həsən bəy azərbaycanlı qadınların cəmiyyətdə, ailədə öz yerlərini bilmələri üçün onların oxumasını, maariflənməsini, elmə, mədəniyyətə yiyələnməsini tövsiyə etmişdir.

Çox ciddi senzura altında cəmi 56 nömrəsi çapdan çıxan “Əkinçi” qəzetinin nəşrinə 1877-ci ildə qadağa qoyulmuşdur. Buna əsas səbəb kimi Rusiya-Türkiyə müharibəsinin başlanması və qəzetin siyasi mövzulara da toxunması olmuşdur.

Qısa ömür sürməsinə baxmayaraq, “Əkinçi” qəzeti mil-

li mətbuatımızın formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. “Əkinçi”nin ideyalarını daha kəsərli, daha qabarıq şəkildə təbliğ edən, məzmunu və qayəsi etibarilə onunla səsləşən “Molla Nəsrəddin” jurnalı meydana çıxmışdır.

XX əsrin əvvəllərində mətbuat orqanları Azərbaycanda milli-azadlıq hərəkatının əsas istiqamətverici qüvvəsini təşkil etmiş, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşlar. Milli siyasi mətbuatın təşəkkül dövrü adlandırılan 1905-1907-ci illərdə KİV-lər Azərbaycan cəmiyyətinin siyasi və ideoloji fəallığının artırılmasında mühüm rol oynamışlar. “Şərqi-rus”, “Həyat”, “Füyuzat”, “Təzə həyat”, “Şəlalə”, “Açıq söz”, “Dirilik” və digər qəzetlər xalqın milli özünüdərk hissinin formalaşmasına çalışmışlar.

Sovet hakimiyyəti dövründə kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də Azərbaycan mətbuatı milli varlığını qoruyub saxlaya bilmiş, respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Ölkədə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, jurnalistikanın çeşidli növləri meydana çıxmışdır.

Müstəqilliyin əldə edilməsindən sonra Azərbaycanda KİV-lərin sayında önəmli ölçüdə irəliləyiş baş vermişdir. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda mətbuatın inkişafı üçün mühüm tədbirlər həyata keçirilməyə başlanmışdır. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ilə azad mətbuatın fəaliyyətinin konstitusion əsasları formalaşdırılmışdır. Ulu öndər Heydər Əliyevin imzaladığı 1998-ci il 6 avqust tarixli “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Fərmanı ilə mətbuatda dövlət sirlərini mühafizə edən Baş idarənin ləğvi, 1999-cu ildə “Kütləvi informasiya vasitələri haqqında” Qanunun qəbulu və 2000-ci il martın 6-da “2000-2001-ci illərdə Azərbaycan Respublikasında Kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı”nın təsdiq edilməsi mətbuatın inkişafına güclü təkan vermişdir.

Jurnalist əməyinə böyük hörmətlə yanaşan, həqiqətlərin geniş xalq kütləsinə çatdırılmasında KİV-lərin əvəzsiz vasitə olduğunu nəzərə alan Heydər Əliyev “dördüncü hakimiyyət” nümayəndələrini

cəmiyyətin aparıcı qüvvəsi hesab etmiş, onların qaldırdıqları problemlərə həssaslıqla yanaşmışdır. Jurnalistlərə olan qayğısını ulu öndər Heydər Əliyev belə ifadə etmişdir: “Sizi əmin edirəm ki, mən keçmişdə olduğu kimi, bu gün də jurnalistlərin dostuyam və həmişə jurnalistlərin dostu olacağam”.

Ölkənin aparıcı KİV-lərinin nümayəndələri ilə görüşdə milli jurnalistikanın üzləşdiyi problemlərlə yaxından maraqlanması, qəzet və jurnalların “Azərbaycan” nəşriyyatına olan borclarının ləğv edilməsi, qəzet redaksiyalarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin dövlətin ali mükafatları ilə, o cümlədən orden və medallarla təltif olunmaları ulu öndərin mətbuatın inkişafına göstərdiyi diqqətin təzahürü olmuşdur.

Milli mətbuatın inkişafındakı misilsiz xidmətlərinə görə Prezident Heydər Əliyev 2002-ci il martın 22-də “Ruh” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi “Jurnalistlərin dostu” mükafatına layiq görülmüşdür.

Ümummilli liderin ölkə mətbuatına göstərdiyi qayğı bu gün Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Dövlətimizin başçısının 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası” mətbuat-dövlət münasibətlərinin tənzimlənməsini və dövlətin bu sahədəki siyasətini tam mənada ifadə edən baza rolunu oynayır. Bu sənəd əsasında 2009-cu il aprelin 3-də “Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında” dövlətimizin başçısının Fərmanı bu istiqamətdə atılmış mütərəqqi addımdır. Fondun yaradılmasında məqsəd azad medianı inkişaf etdirmək, onu dəstəkləmək, mətbuatın maddi-texniki bazasını, o cümlədən jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılmasını təmin etməkdir.

Prezident İlham Əliyevin 2010-cu il iyunun 10-da imzaladığı “Azərbaycan Milli Mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı bu sahəyə olan diqqət və qayğının bariz nümunəsidir.

Ölkə rəhbərliyinin KİV-lərin inkişafına göstərdiyi diqqət və qayğı milli mətbuatımızda özünəməxsus yeri olan Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) da fəaliyyətinə öz əhəmiyyətli

təsirini göstərmişdir.

Prezident İlham Əliyevin AzərTAc-ın əməkdaşlarının yüksək fəxri adlar, medallarla təltif olunması barədə 2010-cu il fevralın 26-da imzaladığı sərəncamlar, eləcə də AzərTAc-ın 90 illik yubileyinin geniş qeyd olunması bu diqqət və qayğının bariz təzahürüdür.

Dövlətimizin başçısının 2010-cu il aprelin 22-də imzaladığı "Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Sərəncamı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mətbuatın fəaliyyətinin yüksək qiymətləndirilməsinə nümunədir.

Hazırda ölkədə 4200-dən artıq kütləvi informasiya vasitəsi qeydiyyata alınmışdır. Ölkədə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirmişdir. Artıq Azərbaycan mətbuatı həm kəmiyyət, həm də keyfiyyət baxımından region ölkələrini qabaqlayır.

## QHT-lərə Dövlət Dəstəyi Şurası jurnalistləri mükafatlandırmışdır - 20 iyul 2010-cu il

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası QHT mövzusunda yazan ölkə jurnalistləri üçün elan etdiyi yazı müsabiqəsinin nəticələrini açıqlamışdır.

AzərTAc xəbər verir ki, iyulun 20-də qaliblərin mükafatlandırılması mərasimi keçirilmişdir.

Şuranın sədri Azay Quliyev Milli Mətbuat Günü münasibətilə Azərbaycan mediasının nümayəndələrini təbrik etmişdir. Bildirilmişdir ki, müsabiqədə əsas məqsəd mətbuatda QHT sektoru ilə bağlı əsaslı yazıların və araşdırmaların sayının artırılması, onların fəaliyyətinin KİV-lər tərəfindən təbliğinin təmin olunması, eləcə də QHT jurnalistikasının inkişafına təkan verməkdir. Müsabiqədə qalib 6 yer üçün 30 yazı təqdim olunmuşdur. Qaliblər müstəqil ekspertlər tərəfindən müəyyən edilmişdir.

A.Quliyev qeyd etmişdir ki, Şura Azərbaycanda QHT-lərlə media arasında münasibətlərin yaxşılaşdırılmasına və QHT-lərin mətbuatla və ictimaiyyətlə əlaqələrinin inkişafına çalışır. Buna nail olmaq üçün şura mütəmadi olaraq belə tədbirlər həyata keçirir.

Digər çıxışlarda da ölkədə QHT-lərin fəaliyyətinin araşdırılması və ictimaiyyətə çatdırılmasında belə müsabiqələrin əhəmiyyəti vurğulanmışdır.

Mərasimin sonunda müsabiqədə qalib gəlmiş jurnalistlərə xatirə hədiyyələri və pul mükafatları təqdim edilmişdir.

Tədbirdə Milli Məclisin deputatları, beynəlxalq təşkilatların Bakıdakı nümayəndəliklərinin təmsilçiləri, QHT-lərin və KİV-lərin rəhbərləri iştirak etmişlər.

# Azərbaycan milli mətbuatının 135 illik yubileyi Binəqədi rayonunda qeyd olunmuşdur
# 20 iyul 2010-cu il

İyulun 20-də Binəqədi Rayon İcra Hakimiyyətində Azərbaycan milli mətbuatının 135 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Binəqədi rayon İcra hakimiyyətinin başçısı Alı Qocayev vurğulamışdır ki, 135 illiyini qeyd etdiyimiz Azərbaycan milli mətbuatı böyük və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olmuş, xalqın üzləşdiyi problemləri diqqət mərkəzinə gətirərək, ictimaiyyətin müzakirəsinə çıxarmışdır. Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirmişdir. Milli mətbuatın “Əkinçi” qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri maarifləndirmə, müasirləşmə, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl prinsiplərini ortaya qoymuşdur.

Vurğulanmışdır ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan Respublikasının əsasını qoymuşdur. Məhz bu dövrdə dövlətimizin idarəçilik işi tam formalaşmış, ölkəmiz müstəqil dövlət olaraq beynəlxalq birliyə uğurla inteqrasiya etmişdir. Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizm, söz və mətbuat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmışdır. KİV fəaliyyətini tənzimləyən qanuvericilik bazası təkmilləşdirilmiş, senzura ləğv edilmişdir.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi xətti bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir.

Tədbirdə digər çıxış edənlər milli mətbuatımızın zəngin və şərəfli yoluna nəzər salmış, Azərbaycan müstəqillik əldə etdikdən sonra mətbuat sahəsində əldə olunan uğurlardan danışmışlar.

Sonra müxtəlif KİV-ləri təmsil edən jurnalistlərə mükafatlar təqdim olunmuşdur.

# Nizami rayonunda Azərbaycan milli mətbuatının 135-ci ildönümü qeyd olunmuşdur - 20 iyul 2010-cu il

İyulun 20-də Nizami Rayon İcra Hakimiyyətində Azərbaycan milli mətbuatının 135 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Nizami rayon İcra hakimiyyətinin başçısı Tahir Budaqov mətbuat nümayəndələrini şərəfli yubiley münasibətilə təbrik edərək demişdir ki, 1875-ci il iyulun 22-də “Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı böyük və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə qabaqcıl ideyaların təbliğatçısı olmuşdur. Qeyd olunmuşdur ki, milli mətbuatımız bütün dövrlərdə cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində mühüm rol oynamışdır. Qısa bir müddətdən sonra “Əkinçi” ənənələrini davam etdirən “Kəşkül”, “Şərqi-Rus”, “Həyat”, “İrşad”, “Füyuzat” kimi nəşrlər işıq üzü görmüşdür.

Eyni zamanda, böyük ürək və xeyirxah əməllər sahibi Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və maddi köməyi ilə Bakıda rus dilində “Kaspi” qəzeti, Tiflisdə Cəlil Məmmədquluzadənin redaktorluğu ilə “Əkinçi”nin ideyalarını daha kəsərli, daha qabarıq şəkildə təbliğ edən, məzmun-qayəsi etibarilə onunla səsləşən “Molla Nəsrəddin” jurnalı çap olunmağa başlamışdır.

XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycanda mətbuatın çiçəklənmə dövrünün ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra başladığını vurğulayan icra başçısı bildirmişdir ki, ulu öndər milli mətbuatın inkişafına həmişə böyük əhəmiyyət vermiş, vaxtaşırı mətbuat işçiləri ilə görüşmüş, onların fikirlərinə, təkliflərinə böyük həssaslıqla yanaşmışdır. Məhz bu dövrdə Azərbaycanda mətbuatın mükəmməl qanunvericilik bazası yaradılmış, onun fəaliyyətini tənzimləyən ən zəruri qanunlar qəbul edilmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan mətbuatı bütövlükdə 123 il müddətində - 1998-ci il avqustun 6-dək senzura şəraitində fəaliyyət göstərmişdir. Ümummilli lider Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanı ilə KİV-

lər üzərində senzura ləğv olnumuş, ölkədə mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində əməli tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

2003-cü ildə jurnalistlərin I qurultayında yaradılmış Mətbuat Şurası həmin vaxtdan indiyədək müstəqil ictimai qurum kimi özünüidarə prinsipi əsasında fəaliyyət göstərməklə mətbuatın inkişafında ciddi işlər görmüşdür.

T.Budaqov qeyd etmişdir ki, 2008-ci ildə Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş “Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası”nda nəzərdə tutulmuş müddəaların həyata keçirilməsi milli mətbuatımızın inkişafına mühüm töhfədir. Konsepsiyanın tələblərinə uyğun olaraq 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondu artıq ikinci ildir ki, mətbuat orqanlarının və jurnalist təşkilatlarının layihələrini maliyyələşdirir, jurnalist müsabiqələri keçirir və onlara yüksək məbləğdə pul mükafatları verir.

Prezident İlham Əliyevin milli mətbuatın 135 illik yubileyinin keçirilməsi ilə əlaqədar 2010-cu il 10 iyun tarixli Sərəncamını xatırladan icra başçısı bildirmişdir ki, bu sənəd dövlətimizin başçısının mətbuata, onun cəmiyyətdəki roluna, yerinə verdiyi yüksək qiymətin, mətbuat işçilərinə göstərdiyi qayğının təzahürüdür.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli rəhbərlik etdiyi qurumun fəaliyyət göstərdiyi bir il ərzində görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat vermişdir.

“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev və başqaları çıxış edərək milli mətbuatımızın zəngin və şərəfli yoluna nəzər salmış, Azərbaycan müstəqillik əldə etdikdən sonra mətbuat sahəsində əldə olunan uğurlardan danışmışlar.

Sonra müxtəlif KİV-ləri təmsil edən jurnalistlərə qiymətli hədiyyələr təqdim olunmuşdur.

# Milli mətbuatımızın 135 illiyi qeyd olunmuşdur
# 20 iyul 2010-cu il

"Qafqaz Media" İctimai Birliyinin (QM İB) təşkilatçılığı ilə milli mətbuatımızın 135 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbirdə 135 il əvvəl böyük mütəfəkkir, vətənpərvər jurnalist Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş milli mətbuatımızın bugünkü inkişafı və KİV-lərə dövlət qayğısı haqqında söhbət açılmışdır.

Bildirilmişdir ki, ulu öndər Heydər Əliyev və onun siyasi xəttini ləyaqətlə davam etdirən Prezident İlham Əliyev tərəfindən yaradıcı ziyalılara, jurnalistlərə göstərilən diqqətin nəticəsində bu gün ölkəmizdə yüzlərlə qəzet, jurnal nəşr edilir və bu sahədə çalışan minlərlə insan dövlət qayğısı ilə əhatə olunmuşdur.

Tədbirdə müasir mətbuatımızın inkişafında fərqlənmiş qələm sahiblərinə QM İB-nin təsis etdiyi mükafatlar təqdim olunmuşdur.

İB-in mükafatçıları sırasında AzərTAc-ın əməkdaşı, şair Zərəngiz Qayalı və başqaları vardır.

Tədbir incəsənət ustalarının ifasında maraqlı konsert proqramı ilə başa çatmışdır.

## "Azərenerji" ASC-də Azərbaycan milli mətbuatının 135 illik yubileyi qeyd edilmişdir - 20 iyul 2010-cu il

İyulun 20-də "Azərenerji" ASC-də Azərbaycan milli mətbuatının 135 illik yubileyinə həsr olunmuş mətbuat konfransı keçirilmişdir.

Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun direktoru Nurəli Yusifbəyli görkəmli maarifçi və publisist Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetinin milli mətbuatımızın inkişafında əvəzsiz rolundan danışmışdır.

Tədbirdə "Əkinçi" qəzetinin nəşri ilə bağlı videoçarx nümayiş etdirilmişdir.

Konfransda jurnalistləri maraqlandıran suallar cavablandırılmışdır.

Sonda jurnalistlərə mükafatlar təqdim edilmişdir.

Konfrans çərçivəsində KİV nümayəndələrinin Sumqayıt Elektrik Stansiyasına ekskursiyası təşkil edilmişdir.

# ARDNŞ-də Azərbaycan milli mətbuatının 135 illik yubileyi qeyd edilmişdir - 21 iyul 2010-cu il

AzərTAc xəbər verir ki, iyulun 21-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətində (ARDNŞ) Azərbaycan milli mətbuatının 135 illik yubileyinə həsr olunmuş yığıncaq keçirilmişdir.

Şirkətin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə tədbirdə iştirak edən mətbuat işçilərini bayram münasibətilə təbrik edərək, Azərbaycan mətbuatının Həsən bəy Zərdabi dövründən bu günədək keçdiyi tarixi yoldan söz açmış, hazırda respublikamızda mətbuatın sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad ifadə etmələrinə bütün imkanların yaradıldığını bildirmişdir.

Azərbaycanda söz və mətbuat azadlığı sahəsində mövcud vəziyyət barədə danışan X.Yusifzadə ulu öndər Heydər Əliyevin hələ 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə mətbuatımızın maddi-texniki bazasının yüksək səviyyədə inkişaf etdirildiyini, bu sahədə kadrların yetişdirilməsinə xüsusi qayğı göstərildiyini diqqətə çatdırmışdır. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin ölkəmizə ikinci dəfə rəhbərlik etdiyi dövrdə mətbuat üzərindən senzuranın götürüldüyü, KİV-lərə fəaliyyət sərbəstliyi verildiyi vurğulanmışdır.

Tədbirdə mətbuat orqanlarının nümayəndələri çıxış edərək, onlara göstərilən dövlət qayğısına görə minnətdarlıqlarını bildirmiş, ünvanlarına deyilən xoş sözlər üçün təşəkkür etmişlər. Qeyd edilmişdir ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin milli mətbuatımızın 135 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncam dövlətimizin başçısının jurnalistlərə göstərdiyi yüksək diqqət və qayğının bariz ifadəsidir.

Yığıncağın sonunda bir sıra kütləvi informasiya vasitələrinin nümayəndələrinə mükafatlar təqdim olunmuşdur.

# Zaqatalada milli mətbuatın 135 illiyi ilə bağlı tədbir keçirilmişdir - 21 iyul 2010-cu il

Zaqatala Rayon İcra Hakimiyyətində Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə yerli və respublikanın aparıcı kütləvi informasiya vasitələrinin əməkdaşları, ziyalılar, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə jurnalistləri əlamətdar bayram münasibətilə təbrik etmiş, təməli 135 il əvvəl - 1875-ci il iyulun 22-də Həsən bəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycan milli mətbuatının zəngin ənənələri barədə danışmış, ölkəmizdə söz və mətbuat azadlığının bərqərar olmasında ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətlərini önə çəkmişdir. Bu siyasi xəttin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xüsusi vurğulayan natiq, indi ölkəmizdə yüzlərlə qəzet və jurnalın nəşr edilməsini, özəl televiziya və radioların fəaliyyət göstərməsini demokratiyanın mühüm göstəricisi kimi dəyərləndirmişdir. M.Əhmədzadə 87 yaşı tamam olan "Zaqatala" qəzetinin rayonun ictimai-siyasi həyatındakı fəal rolunu xüsusi qeyd etmiş, qəzetin əməkdaşlarına gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

Tədbirin sonunda qəzetin əməkdaşlarına, habelə aparıcı KİV-lərin bölgə müxbirlərinə rayon icra hakimiyyətinin fəxri fərman və pul mükafatları təqdim edilmişdir.

## Demokratik İslahatlar Partiyasının mükafatına layiq görülən jurnalistlərin adları açıqlanmışdır
## 21 iyul 2010-cu il

Demokratik İslahatlar Partiyası (DİP) siyasi şurası 22 iyul - Milli Mətbuat Günü münasibətilə təsis etdiyi mükafata layiq görülən KİV-lər və jurnalistlərlə bağlı qərarını açıqlamışdır.

Partiyanın mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, məqsəd jurnalistləri Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş Azərbaycan mətbuatının maarifçilik ənənələrini davam etdirməyə, azad, demokratik və peşəkar mətbuatın formalaşması uğrunda fəal mübarizə aparmağa, obyektiv və məsuliyyətli sözə üstünlük verməyə həvəsləndirməkdir.

Beynəlxalq mövzulardakı yazılarına və təhlillərinə görə Azərbaycan Dövlət Teleqraf Agentliyi – AzərTAc-ın xüsusi müxbiri Vüqar Seyidov da mükafata layiq görülmüşdür.

Qeyd edək ki, mükafat DİP tərəfindən 2008-ci ildə təsis olunmuşdur.

# Astarada Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş “Dəyirmi masa” keçirilmişdir 21 iyul 2010-cu il

İyulun 20-də Astara rayon mərkəzi kitabxanasında Azərbaycan milli mətbuatının yaranmasının 135 illik yubileyinə həsr olunmuş “dəyirmi masa” keçirilmişdir.

Toplantıda çıxış edən rayon icra hakimiyyətinin ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsinin müdiri Azər Abdullayev mətbuat işçilərini qarşıdan gələn əlamətdar gün münasibətilə təbrik etmiş, onların rayonun ictimai-siyasi həyatındakı əməyini yüksək qiymətləndirmişdir. Prezident İlham Əliyevin sərəncamına müvafiq olaraq Azərbaycan milli mətbuatının 135 illik yubileyinin ölkəmizin hər yerində olduğu kimi, Astara rayonunda da geniş qeyd olunduğunu bildirən A.Abdullayev bu məqsədlə Lənkəran şəhərində “Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda keçirilən regional konfrans barədə iştirakçılara ətraflı məlumat vermişdir. Azərbaycan milli mətbuatının inkişaf tarixindən ətraflı söhbət açan natiq qeyd etmişdir ki, ümummilli liderin siyasi uzaqgörənliyi və böyük zəhməti ilə müstəqilliyimizin bərpasından sonra ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu geniş vüsət almış, KİV-lərin sərbəst fəaliyyəti üçün əlverişli şərait yaradılmış, plüralizm, söz və mətbuat azadlığına mane olan senzura ləğv edilmiş, KİV-lərin fəaliyyətini tənzimləyən qanunvericilik bazası yaradılmışdır. Ulu öndərin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin Sərancamları ilə KİV-lər əlavə dəyər vergisindən, qəzetlər “Azərbaycan” nəşriyyatına olan borclardan azad edilmiş, ölkəmizdə KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmış, hər il Milli Mətbuat günündə mətbuat işçilərinə yardımlar edilmişdir.

Rayonda çıxan “Astara” qəzetinin redaktoru Sakitağa Kərimov Azərbaycan milli mətbuatının 135 illik yubileyi ilə bağlı məruzə etmişdir.

“Dəyirmi masa”da çıxış edənlər Azərbaycan milli mətbuatının keçdiyi tarixi yoldan, “Əkinçi” qəzetinin naşiri, redaktoru və


www.aliyevheritage.org

müxbiri Həsən bəy Zərdabinin xidmətlərindən danışmış, rayonda nəşr olunan “Astara”, “Alov” qəzetlərinin və “Alov” jurnalının rayonun ictimai-siyasi həyatındakı rolunu yüksək qiymətləndirmişlər.

# Ağdamda Milli Mətbuat Günü qeyd olunmuşdur
## 21 iyul 2010-cu il

Ağdam rayon İcra hakimiyyətində (RİH) Azərbaycan milli mətbuatının 135 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.

Rayon icra hakimiyyəti başçısının siyasi partiyalar və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Qədulla Səfərov Azərbaycanda söz və mətbuat azadlığının, demokratik mühitin bərqərar olmasında ulu öndər Heydər Əliyevin rolundan danışmışdır. Bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin siyasi iradəsi nəticəsində ölkədə plüralizm, söz və mətbuat azadlığını tənzimləyən qanunvericilik bazası formalaşmış, onun maddi-texniki bazasının inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Senzura ləğv edilmiş, qəzetlərin nəşriyyata olan borcları əvvəlcə dondurulmuş, sonradan birdəfəlik ləğv edilmişdir. KİV-ə qayğı bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

Tədbirdə “Ağdam” qəzetinin redaktoru Baxşeyiş Hətəmlinin “Azərbaycan mətbuatı 135: zəngin tarix, şanlı əlaqələr” adlı məruzəsi dinlənilmişdir.

Rayon təhsil şöbəsinin müdiri Elmira Şükürova, rayon icra hakimiyyətinin əməkdaşı Fəxrəddin Hacıbəyli, gənclər və idman idarəsinin rəisi Məhəmməd Aslanov və başqaları tədbirdə çıxış edərək, ölkədə mətbuatın inkişafına göstərilən dövlət qayğısından danışmış, milli mətbuatımızın zəngin və şərəfli yoluna, o cümlədən 1930-cu ildən nəşr olunan “Ağdam” qəzetinin fəaliyyətinə nəzər salmışlar.

# Milli mətbuatımızın 135 illiyi İçərişəhərdə də qeyd olunmuşdur - 21 iyul 2010-cu il

İyulun 21-də “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə Azərbaycan jurnalistikasının banisi Həsən bəy Zərdabinin İçərişəhərdəki abidəsi önündə milli mətbuatın 135 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbirdə çıxış edən idarənin elmi araşdırmalar və beynəlxalq əlaqələr şöbəsinin müdiri Anar Quliyev ölkəmizdə mətbuatın yaranma tarixindən və keçdiyi şərəfli inkişaf yolundan danışmışdır. Bildirmişdir ki, 1875-ci il iyulun 22-də işıq üzü görmüş “Əkinçi” qəzeti Azərbaycanda ilk mətbu orqan olmaqla, ölkə mətbuatının sonrakı inkişafında mühüm rol oynamışdır.

Anar Quliyev Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə milli mətbuatımızın 135 illik yubileyinin qeyd edilməsini əlamətdar hadisə kimi qiymətləndirmişdir.

Tədbirin sonunda idarənin mətbuat xidmətinin rəhbəri Rahib Azəri əlamətdar gün münasibətilə jurnalistləri təbrik etmiş, onlara qədim tariximizin canlı əfsanəsi olan İçərişəhərin görməli yerlərini və tarixini əks etdirən broşürlər və kitabçalar bağışlamışdır.

## Milli mətbuatımızın 135 illik yubileyi münasibətilə “Milli dərk anlayışında özünüdərk” mövzusunda elmi-praktiki konfrans keçirilmişdir
## 21 iyul 2010-cu il

Milli mətbuatımızın 135 illik yubileyi münasibətilə Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda “Milli dərk anlayışında özünüdərk” mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.

İnstitutun rektoru professor Asəf Zamanov “Mətbuatın demokratik cəmiyyətdə rolu” mövzusunda məruzə etmişdir.

Məruzədə Həsən bəy Zərdabinin nəşr etdirdiyi “Əkinçi” qəzeti ilə əsası qoyulmuş milli mətbuatımızın inkişaf tarixinə nəzər salınmışdır. Vurğulanmışdır ki, hazırda ölkəmizdə azad mətbuatın fəaliyyəti və inkişafı üçün dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilmiş mühüm tədbirlər sayəsində Azərbaycanda mətbuatın hüquqi bazası formalaşdırılmışdır. Milli mətbuatımıza göstərilən yüksək diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Rektor bildirmişdir ki, institut mətbuat üçün yaradılmış əlverişli şəraitdən faydalanaraq özünün “Tarix, insan və cəmiyyət”, “İnstitutun elmi əsərləri” jurnallarını, “Müəllimə kömək” metodik toplusunu, “Psixoloq” qəzetini nəşr etdirir. Hazırda institutda redaksiya, nəşriyyat və poliqrafiya şöbəsi də fəaliyyət göstərir.

Tədbirdə digər çıxış edənlər milli mətbuatımızın keçdiyi şərəfli yola nəzər salmış, Azərbaycan müstəqillik əldə etdikdən sonra mətbuat sahəsində əldə olunan uğurlardan danışmışlar.

# Ağsuda milli mətbuatımızın 135 illik yubileyi qeyd olundu - 22 iyul 2010-cu il

Rayon İcra Hakimiyyətində idarə, müəssisə və təşkilat rəhbərlərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə Azərbaycan milli mətbuatının 135 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaq keçirilmişdir.

Yığıncağı giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev açaraq milli mətbuatımızın 135 il əvvəl böyük təbiətşünas alim, görkəmli maarifçi Həsən bəy Zərdabinin minbir çətinliklə təsis etdiyi "Əkinçi" qəzetindən başlanan inkişaf tarixi barədə qısa məlumat vermişdir.

Sonra rayon icra hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət məsələləri üzrə müavini Akif Mirzəyev "Mətbuat cəmiyyətin güzgüsüdür" mövzusunda məruzə etmiş, AzərTAc-ın müxbiri Adil Ağayevin, rayonda çıxan "Ağsu qəzeti"nin redaktoru Yalçın Pənahovun çıxışları dinlənilmişdir.

Azərbaycanda demokratik, plüralist mətbuatın formalaşmasında, azad sözün fikir və məlumat azadlığının təmin edilməsində, milli mətbuatın inkişafında ümummilli liderimiz Heydər Əliyevin, onun siyasi varisi Prezident İlham Əliyevin böyük xidmətlərini qeyd edən natiqlər bu gün ölkəmizin sürətli inkişafında, dünyaya inteqrasiyasında mətbuatın rolundan danışmışlar. Qeyd olunmuşdur ki, hazırda mətbuat müstəqil dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həyata keçirilməsində, cəmiyyətdə sosial ədalətin və şəffaflığın təmin edilməsində, insan hüquqlarının müdafiəsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşmasında əhəmiyyətli rol oynamalıdır.

Axırda bir qrup jurnalistə, o cümlədən AzərTAc-ın müxbirinə rayon icra hakimiyyətinin Fəxri Fərmanı verilmişdir.

## Lənkəranda Milli Mətbuat Günü qeyd olunmuşdur
## 22 iyul 2010-cu il

İyulun 22-də Lənkəran Şəhər İcra Hakimiyyətində milli mətbuat gününə həsr olunmuş tədbir keçirilmişdir.

Rayonda nəşr olunan qəzet və jurnalların əməkdaşlarının, cənub bölgəsində fəaliyyət göstərən KİV-lərin təmsilçilərinin və ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi toplantıda çıxış edən şəhər icra hakimiyyətinin başçısı Tofiq İbrahimov mətbuat işçilərini əlamətdar gün münasibətilə təbrik etmişdir.

Milli mətbuatının 135 illik yubileyinin ölkəmizin hər yerində olduğu kimi, Lənkəran rayonunda da geniş qeyd olunduğunu bildirən T.İbrahimov şəhərdəki Heydər Əliyev İdarəçilik Universitetində “Azərbaycan milli mətbuatı-135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda keçirilən regional konfransın əhəmiyyətini yüksək qiymətləndirmişdir.

Azərbaycan milli mətbuatının inkişaf tarixindən ətraflı söhbət açan natiq qeyd etmişdir ki, müstəqilliyimizin bərpasından sonra ölkəmizdə KİV-lərin sərbəst fəaliyyəti üçün əlverişli şərait yaradılmış, plüralizm, söz və mətbuat azadlığına mane olan senzura ləğv edilmiş, mətbuatın fəaliyyətini tənzimləyən qanunvericilik bazası yaradılmışdır.

Prezident İlham Əliyevin sərəncamları ilə KİV-lər əlavə dəyər vergisindən, qəzetlər “Azərbaycan” nəşriyyatına olan borclardan azad edilmiş, ölkəmizdə KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmış, mətbuat işçilərinə yardım göstərilmişdir.

Tədbirdə çıxış edənlər Azərbaycan milli mətbuatının “Əkinçi” qəzeti ilə başlanan inkişaf tarixindən söhbət açaraq ümummilli lider Heydər Əliyevin milli mətbuata, jurnalistikaya göstərdiyi qayğıdan danışmış, Prezident İlham Əliyevin ölkədə söz azadlığının qorunmasında, KİV-lərə dövlət dəstəyinin gücləndirilməsində ulu öndərin ideyalarına sadiqlik nümayiş etdirdiyini diqqətə çatdırmışlar.

Tədbirin sonunda mətbuat işçilərinin bir qrupuna Lənkəran Şəhər İcra Hakimiyyətinin fəxri fərmanları və mükafatları təqdim edilmişdir.

## Masallıda Milli Mətbuat Gününə həsr olunmuş toplantı keçirilmişdir - 22 iyul 2010-cu il

İyulun 22-də Masallı rayon mərkəzi kitabxanasında Azərbaycan milli mətbuatının yaranmasının 135 illiyinə həsr olunmuş toplantı keçirilmişdir.

Tədbirdə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayevin rayonun mətbuat işçilərinə ünvanladığı təbrik məktubu oxunmuşdur.

Rayonda çıxan “Yeni Həyat” qəzeti baş redaktorunun müavini, “Qızıl qələm” mükafatı laureatı Rəsul Rzayev Azərbaycan milli mətbuatının yaranmasının 135 illiyi ilə bağlı məruzə etmişdir.

Toplantıda çıxış edən rayon icra hakimiyyəti başçısı aparatının ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsinin böyük məsləhətçisi Babək Məmmədov, Tibb İşçiləri Həmkarlar İttifaqı Masallı Rayon Komitəsinin sədri Nazir Rufullayev, Masallı Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi direktorunun müavini Arzuman Hüseynov, təhsil şöbəsinin metodisti Namiq Ağayev və başqaları ölkəmizdə milli mətbuatın 135 illik tarixindən, müxtəlif dövrlərdə qəzet və jurnallarda çalışan maarifpərvər ziyalıların fəaliyyətindən söhbət açmış, ümummilli liderin mətbuata və jurnalistlərə göstərdiyi diqqət və qayğının bu gün Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırmışlar.

# Astara Rayon İcra Hakimiyyətində mətbuat işçiləri ilə görüş keçirilmişdir - 22 iyul 2010-cu il

İyulun 22-də Astara Rayon İcra Hakimiyyətində mətbuat işçiləri ilə görüş keçirilmişdir.

Rayonda nəşr olunan "Astara", "Alov" qəzetlərinin və "Alov" jurnalının əməkdaşlarının, müxtəlif illərdə rayon qəzetində çalışmış əməkdaşların, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə çıxış edən Astara Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məzahim Hüseynov mətbuat işçilərini əlamətdar gün münasibətilə təbriki etmiş, ölkəmizdə milli mətbuatın inkişafına göstərilən dövlət qayğısından danışmış, jurnalistlərin rayonun ictimai-siyasi həyatında fəal iştirak etdiklərini diqqətə çatdırmışdır.

Görüşdə çıxış edənlər Azərbaycan milli mətbuatının "Əkinçi" qəzeti ilə başlanan inkişaf tarixindən söhbət açaraq, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə demokratiya, söz və mətbuat azadlığı sahəsində həyata keçirilən tədbirlərin əhəmiyyətindən danışmış, mətbuata dövlət qayğısının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişlər.

Tədbirin sonunda mətbuat işçilərinə fəxri fərmanlar və mükafatlar təqdim edilmişdir.

# Mingəçevirdə jurnalistlərlə görüş keçirilmişdir
# 22 iyul 2010-cu il

22 iyul - Milli Mətbuat Günü münasibətilə Mingəçevir Şəhər İcra Hakimiyyətində KİV nümayəndələri ilə görüş keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə əklil və gül dəstələri düzmüş, xatirəsini ehtiramla yad etmişlər.

Şəhər icra hakimiyyətinin başçısı Mübariz Ağayev çıxış edərək milli mətbuatımızın yaranma tarixindən, keçdiyi inkişaf yolundan, bugünkü uğurlarından, ümummilli lider Heydər Əliyevin mətbuat işçilərinə göstərdiyi diqqət və qayğıdan, onun bu siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin ölkə mətbuatına yaxından köməklik göstərməsindən söz açmışdır. Natiq dövlət başçısının "Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında" 2010-cu il 10 iyun tarixli Sərəncamına uyğun olaraq şəhər icra hakimiyyətində xüsusi planının hazırlandığını və buna əsasən ali və orta ixtisas məktəblərində, müəssisə və təşkilatlarda tədbirlər keçirildiyini vurğulamışdır.

Görüşdə "Mingəçevir" qəzetinin baş redaktoru Naib Rüstəmov, "Mingəçevir işıqları" qəzetinin baş redaktoru Fərman Nəbiyev, "Mingəçevir leysanı" jurnalının baş redaktoru İsmayıl İmanzadə və başqaları Azərbaycanda söz və mətbuat azadlığının inkişaf etdiyini bildirmişlər. Qeyd olunmuşdur ki, kütləvi informasiya vasitələrinin inkişafına  son illər dövlətimiz tərəfindən böyük dəstək verilir. Bu məqsədlə  Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır. Bu, onu göstərir ki, dövlət KİV-lərin inkişafını demokratiyanın əsas şərtlərindən hesab edir.

Görüşdə qeyd olunmuşdur ki, milli mətbuatımızın əsas hissəsi olan regionlardakı kütləvi informasiya vasitələrinin inkişafı ölkəmizdə demokratik cəmiyyət quruculuğunun başlıca istiqamətlərindəndir.

Mətbuat işçiləri ölkədə jurnalistikanın inkişafına göstərdiyi köməyə görə Prezident İlham Əliyevə minnətdarlıq etmişlər.

Bir qrup qocaman jurnalistə fəxri fərmanlar, gənc mətbuat işçilərinə hədiyyələr verilmişdir.

## Şəkidə milli mətbuatın 135 illiyi qeyd olunmuşdur
## 22 iyul 2010-cu il

Şəki Şəhər İcra Hakimiyyətində Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.

Jurnalistləri əlamətdar bayram münasibətilə təbrik edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Murad Cabbarlı Prezident İlham Əliyevin milli mətbuatımızın 135 illik yubileyinin keçirilməsi haqqında Sərəncamını dövlətimizin Azərbaycan mətbuatına göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsi olduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, zəngin tarixi ənənələrə malik Azərbaycan Milli Mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. Azərbaycanda söz və mətbuat azadlığının bərqərar olmasında, milli mətbuatımızın inkişafında ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətlərini xatırladan natiq, 1998-ci ildə mətbuatda senzuranın ləğv edilməsinin kütləvi informasiya vasitələri qarşısında geniş perspektivlər açdığını xüsusi vurğulamışdır.

Tədbirdə “Şəki” qəzetinin redaktoru Akif Salam, qocaman jurnalist Sabir Əfəndiyev, fotoqraf Telman Həmidli və başqaları çıxış edərək Şəki mətbuatının zəngin ənənələrindən danışmış, ölkəmizdə söz və mətbuat azadlığı üçün yaradılmış hərtərəfli şəraitdən söz açmış, milli mətbuatımızın inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildirmişlər.

Sonda jurnalistlərə pul mükafatları təqdim olunmuşdur

# Heydər Əliyev İrsini Araşdırma Mərkəzi və “Kaspi” qəzeti “135 illik yol” kitabını nəşr etmişdir
# 22 iyul 2010-cu il

Heydər Əliyev İrsini Araşdırma Mərkəzi və “Kaspi” qəzeti milli mətbuatımızın 135 illiyi ilə bağlı Azərbaycan və ingilis dillərində “135 illik yol” (“Road of 135 years”) adlı kitab nəşr etmişdir.

Kitabın elmi məsləhətçisi Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Əli Həsənov ön sözdə bildirir ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev müasir Azərbaycanın əsasını qoymuşdur. Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Azərbaycan Prezidentinin 1998-ci il 6 avqust tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər KİV-lərdə dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilmişdir. Bununla hərbi senzuranın tətbiq edilməsi haqqında Azərbaycan Prezidentinin 1992-ci il 16 aprel tarixli Fərmanı və bütün informasiya yayımı üzərində nəzarəti nəzərdə tutan 1993-cü il 15 aprel tarixli Sərəncamı qüvvəsini itirmişdir. Senzuranın ləğvi demokratik cəmiyyət olaraq Azərbaycanın perspektiv inkişaf xəttinə uyğun gəlirdi. Fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi müstəqil KİV-lərin inkişafının, vətəndaşların beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığının təmin edilməsində mühüm rol oynamışdır. Bu siyasətin ardıcıllığını təmin etmək məqsədilə 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunmuş və dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilmişdir.

Hazırda öz inkişafının mühüm mərhələsini yaşayan müstəqil Azərbaycanda güclü iqtisadi potensialın yaradılması, vətəndaş cəmiyyəti quruculuğunun sürətləndirilməsi, ölkəmizin beynəlxalq nüfuzunun artırılması, ümummilli problemlərin milli maraqlara uyğun həlli istiqamətində məqsədyönlü və ardıcıl siyasət həyata keçirilir. Heydər Əliyevin siyasətini və ənənələrini müasir dövrün

tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyev cəmiyyət həyatında kütləvi informasiya vasitələrinin rolunu yüksək qiymətləndirərək demokratik, müstəqil KİV-lərin inkişafına əlverişli şərait yaradılmasını öz siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir.

Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin və “Kaspi” qəzetinin birgə ərsəyə gətirdiyi kitabda ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycan milli mətbuatı haqqında çıxışları, fikirləri, imzaladıqları Fərman və sərəncamlar iki dildə oxuculara çatdırılır.

Kitab müstəqillik illərində Azərbaycanda söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi məqsədilə həyata keçirilən dövlət siyasəti haqqında obyektiv təsəvvür formalaşdırılması üçün lazımlı əyani vəsait, milli mətbuatımızın 135 illiyinə layiqli hədiyyədir.

# Beyləqanda Milli Mətbuat Günü qeyd olunmuşdur
# 22 iyul 2010-cu il

Beyləqan rayonunda Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət etmiş, önünə çiçək dəstələri düzmüşlər.

Rayon icra hakimiyyətinin ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsinin müdiri Eldar Xudaverdiyev təməli 135 il əvvəl - 1875-ci il iyulun 22-də Həsən bəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycan milli mətbuatının zəngin ənənələrindən, ölkədə mövcud olan söz və mətbuat azadlığından, kütləvi informasiya vasitələrinə göstərilən dövlət qayğısından danışmışdır.

Tədbirdə “Mil” qəzetinin redaktoru Elman İsrafiloğlunun “Azərbaycanda milli mətbuatın inkişaf tarixi” adlı məruzəsi dinlənilmişdir.

Tədbirdə çıxış edənlər Azərbaycan milli mətbuatının keçdiyi şərəfli yoldan, son illər mətbuat sahəsində əldə olunan uğurlardan danışmışlar.

## Azərbaycan Cənubi Qafqazın lider dövləti olduğu kimi, mətbuatımız da bölgədə ən güclüsü və inkişaf etmişidir - 22 iyul 2010-cu il

Azərbaycan Cənubi Qafqazın lider dövləti olduğu kimi, mətbuatımız da bölgənin ən güclüsü və inkişaf etmişidir.

Bu fikri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov Azərbaycan milli mətbuatının 135 illik yubileyi ilə əlaqədar iyulun 22-də ölkənin aparıcı KİV-lərinin nümayəndələri ilə görüşdə demişdir.

Jurnalistləri yubiley münasibətilə təbrik edərək, onlara yaradıcılıq uğurları arzulayan S.Mikayılov milli mətbuatımızın zəngin və şərəfli yoluna nəzər salmış, Azərbaycan müstəqillik əldə etdikdən sonra mətbuat sahəsində əldə olunan uğurlardan danışmışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan mətbuatının inkişafına daim diqqətlə yanaşdığını vurğulayan icra başçısı bildirmişdir ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər müasir müstəqil Azərbaycan dövlətinin əsasını qoymuşdur. Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizm, söz və mətbuat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmışdır. KİV-lərin fəaliyyətini tənzimləyən qanuvericilik bazası təkmilləşdirilmiş, senzura ləğv edilmişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi xətti bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir.

Tədbirdə çıxış edən mətbuat nümayəndələri onlara göstərilən dövlət qayğısına görə minnətdarlıqlarını bildirmiş, ünvanlarına deyilən xoş sözlər üçün təşəkkür etmişlər. Qeyd edilmişdir ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin milli mətbuatımızın 135 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncam dövlətimizin başçısının jurnalistlərə göstərdiyi yüksək diqqət və qayğının bariz ifadəsidir.

Sonda ölkənin bir sıra aparıcı KİV-lərinin nümayəndələrinə mükafatlar təqdim olunmuşdur.

# İşğal edilmiş Azərbaycan əraziləri ilə bağlı keçirilən yazı müsabiqəsinin qalibləri mükafatlandırılmışlar - 22 iyul 2010-cu il

İyulun 22-də "Xalq" Mətbuat Mərkəzində Azərbaycan Sosial Rifah Partiyası və "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin elan etdiyi yazı müsabiqəsinin qalibləri mükafatlandırılmışlar.

"Xalq qəzeti" baş redaktorunun müavini Tahir Aydınoğlu və digər natiqlər Azərbaycan milli mətbuatının 135 illiyi münasibətilə jurnalistləri təbrik etmiş, onlara yaradıcılıq uğurları arzulamışlar.

Vurğulanmışdır ki, müsabiqəyə 25 məqalə təqdim edilmişdir. Münsiflər heyətinin qərarı ilə təklif olunan mövzularda ən yaxşı yazılar üzrə 12 qalib müəllifin adı açıqlanmışdır. Müsabiqənin şərtlərinə görə I yer üçün 500 manat, II yer üçün 300, III yer üçün 200, IV yer üçün 150 manat müəyyən edilmişdir. Cari il iyunun 16-da elan edilmiş müsabiqəyə işğal olunmuş Azərbaycan ərazilərinin təbii-iqtisadi potensialı, təcavüz altında olan ərazilərin ekoloji vəziyyətinin müqayisəli təhlili, respublikamızın sosial-iqtisadi inkişafına erməni işğalının vurduğu ziyan və digər mövzular təklif olunmuşdu.

Tədbir qaliblərin mükafatlandırılması ilə başa çatmışdır.

# "Azərikimya" İB-də milli mətbuatın 135 illik yubileyi qeyd edilmişdir - 23 iyul 2010-cu il

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, "Azərikimya" İstehsalat Birliyinin (İB) rəhbərliyi Azərbaycan milli mətbuatının 135 illik yubileyi münasibətilə Sumqayıt şəhərində nəşr olunan və şəhərdə akkreditasiya olunmuş ölkə əhəmiyyətli müxtəlif qəzetlərin, eləcə də informasiya agentliklərinin, "Dünya" televiziyasının nümayəndələri ilə görüşmüşdür.

Görüşdə birliyin rəhbərliyi Azərbaycan jurnalistlərinin ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynadığını qeyd edərək, mətbuat işçilərini peşə bayramları münasibətilə təbrik etmiş, onlara uğurlar arzulamışdır. Tədbirdə ulu öndər Heydər Əliyevin Azərbaycanda neft və kimya sənayesinin inkişafı, texnoloji cəhətdən yeniləşdirilməsi və modernləşdirilməsi, kimya məhsullarının dünya standartları səviyyəsinə çatdırılması istiqamətində gördüyü işlərdən ətraflı söhbət açılmışdır. Görüşdə, həmçinin ARDNŞ-in tərkibinə daxil olduqdan sonra "Azərikimya" İB-də həyata keçirilmiş tədbirlərin mətbuatda işıqlandırılması müzakirə olunmuşdur.

AzərTAc-ın Sumqayıt üzrə müxbiri Ətrabə Rzayeva, "Sumqayıt" qəzetinin baş redaktoru Qüdrət Məlikov və "Sumqayıtxəbər" internet saytının baş direktoru Eyvaz Qocayev çıxış etmiş, İB rəhbərliyinin jurnalistlərlə daha sıx əməkdaşlıq etmək planlarından, "açıq qapı" prinsipi ilə işləmək niyyətindən məmnun olduqlarını vurğulamış və görüşə görə təşəkkürlərini bildirmişlər.

# Azərbaycan söz azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması sahələrində çox böyük və uğurlu yol keçmişdir - 23 iyul 2010-cu il

Bakı, 23 iyul (AzərTAc). Azərbaycan söz azadlığı demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması sahələrində çox böyük və uğurlu yol keçmişdir.

Bunu Prezident İlham Əliyev iyulun 22-də Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşündə bildirmişdir.

Dövlətimizin başçısı qeyd etmişdir ki, söz azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir.

Bütövlükdə söz azadlığının hər bir ölkə üçün, onun inkişafı üçün ən vacib olan məsələlərdən biri olduğunu qeyd edən Prezident İlham Əliyev, ölkəmizin bu sahələrdə çox böyük və uğurlu yol keçdiyini söyləmişdir. Azərbaycanda yüzlərlə media orqanının fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı bildirmişdir ki, vətəndaşlarımız 30-dan yuxarı gündəlik, 100-ə yaxın həftəlik qəzeti, respublika əhəmiyyətli 8 telekanalı, 14 regional telekanalı, internet vasitəsilə dünyada gedən bütün prosesləri sərbəst şəkildə izləyirlər.

# Azərbaycan mətbuatının böyük ənənələri var və bu ənənələr yaşayır - 23 iyul 2010-cu il

Bakı, 23 iyul (AzərTAc). Azərbaycan mətbuatının böyük ənənələri var və bu ənənələr yaşayır.

Bu fikri Prezident İlham Əliyev iyulun 22-də Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşündə bildirmişdir.

Azərbaycanın bütün ictimaiyyətini milli mətbuatımızın 135 illik yubileyi münasibətilə təbrik edən dövlətimizin başçısı bildirmişdir ki, Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirir. Hesab edirəm ki, Mətbuat Şurası yarandığı gündən ölkəmizdə dövlət qurumları ilə media arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün çox müsbət rol oynamışdır. Jurnalistlərin hüquqlarının qorunması işində öz prinsipial mövqeyini həmişə bildirmişdir və ümumiyyətlə, ölkədə söz azadlığının, demokratiyanın inkişafı istiqamətində çox böyük addımlar atmışdır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra çox qısa bir müddət ərzində media sahəsində böyük irəliləyişin müşahidə olunduğunu qeyd edən Prezident İlham Əliyev 1998-ci ildə senzuranın ləğvini böyük və tarixi bir addım hesab etdiyini bildirmişdir. Söz azadlığının inkişafı istiqamətində ardıcıl şəkildə çox ciddi addımlar atıldığını vurğulayan dövlətimizin başçısı bütün bunların Azərbaycan dövlətinin həmin sahədə çox məqsədyönlü və ardıcıl siyasət aparmasının göstəricisi olduğunu qeyd etmişdir.

# Fövqəladə Hallar Nazirliyi KİV nümayəndələrini mükafatlandırmışdır - 24 iyul 2010-cu il

İyulun 24-də Fövqəladə Hallar Nazirliyində Azərbaycan milli mətbuatının 135 illiyi münasibətilə bir sıra KİV nümayəndələrinin mükafatlandırılması mərasimi keçirilmişdir.

Fövqəladə hallar nazirinin müavini Orucəli Hacıyev Milli Mətbuat Günü münasibətilə jurnalistləri təbrik etmiş, onlara yeni-yeni yaradıcılıq uğurları arzulamışdır. Milli mətbuatımızın zəngin və şərəfli yol keçdiyini vurğulayan O.Hacıyev 1875-ci ildə “Əkinçi” qəzetinin işıq üzü görməsi ilə əsası qoyulan Azərbaycan mətbuatının ölkəmizin sosial-iqtisadi, siyasi həyatının bütün sahələrində baş verən hadisələri doğru-düzgün, obyektiv işıqlandırdığını diqqətə çatdırmışdır.

Bildirilmişdir ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ölkə mətbuatında çox cəsarətli məqalələr dərc edilmiş, bəzi hallarda bu yazılar hətta bütün sovetlər məkanında böyük əks-səda doğurmuşdur. Azərbaycanda azad və müstəqil mətbuatın yaradılması böyük öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ulu öndərin siyasi iradəsi və səyi nəticəsində söz və mətbuat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmış, mətbuatın fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilmişdir.

Nazir müavini demişdir ki, Azərbaycan mətbuatının inkişafı ilə bağlı bir sıra mühüm tədbirlərin həyata keçirilməsi, iyulun 22-də Mətbuat Şurasının yeni binasının açılışında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı, bir sıra mətbuat nümayəndlərinə fəxri adların verilməsi, KİV-lərə maliyyə yardımının göstərilməsi dövlətimizin başçısının mətbuata diqqət və qayğısının bariz nümunəsidir.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Vüqar Əliyev Prezident İlham Əliyevin Azərbaycan mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında 2010–cu il 10 iyun tarixli Sərəncamının əhəmiyyətindən danışmışdır. Milli mətbuatımızın formalaşmasında və inkişafında ümummilli liderimiz Heydər Əliyevin rolundan və misilsiz xidmətlərindən bəhs edən V.Əliyev mətbuat qarşısında duran vəzifələr və onların uğurla həyata keçirilməsi məsələlərinin həmin sənəddə bütünlüklə öz əksini tapdı-

ğını söyləmişdir.

Prezident İlham Əliyevin Sərancamı ilə 92 jurnalist fəxri adlara və medallara layiq görülmüş, 32 qəzetə 20 min manat, 8 informasiya agentliyinə 10 min manat birdəfəlik maliyyə yardımı göstərilmiş, jurnalistlərin mənzil–məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə dövlət büdcəsindən KİV–lərin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat ayrılmışdır.

V.Əliyev Azərbaycan mətbuatının tarixindən danışmış, onun çox zəngin inkişaf yolu keçdiyini xatırlatmışdır. Vurğulanmışdır ki, müstəqil dövlətimizdə demokratik prinsiplərin bərqərar olunması, senzuranın ləğvi, KİV haqqında mütərəqqi, beynəlxalq standartlara uyğun qanunların qəbul olunması, demokratik plüralizm müasir Azərbaycanda mətbuatın formalaşmasına və inkişafına zəruri şərait yaradan əsas şərtlərdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli mətbuatımızın inkişafına dövlət dəstəyi və qayğısı siyasəti bu gün də Prezident İlham Əliyev tərəfindən yüksələn xətlə davam etdirilir.

Tədbirdə əlamətdar gün münasibətilə bir sıra kütləvi informasiya vasitələrinin nümayəndələri, o cümlədən AzərTAc-ın əməkdaşı mükafatlandırılmışdır.

# MÜNDƏRİCAT

Ön söz ........................................................................ 7

**Sərəncamlar**

Azərbaycan milli mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................................................................ 18

Azərbaycan Respublikasının mətbuat işçilərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................................................................ 21

Azərbaycan Respublikasının mətbuat işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................................................................ 24

Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin maliyyələşdirilməsi və Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımının göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................................................................ 26

Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................................................................ 29

**Mərasimlər**

Mətbuat nümayəndələri ümummilli lider Heydər Əliyevin və Həsən bəy Zərdabinin məzarını ziyarət etmişlər - 22 iyul 2010-cu il ........................................................................ 30

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mətbuat Şurasının yeni binasının açılışında iştirak etmişdir – 22 iyul 2010-cu il ........................................................................ 31

"Gülüstan" sarayında Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş yubiley mərasimi keçirilmişdir - 22 iyul 2010-cu il ........................................................................ 45

**Müsahibələr**

"Media forum" saytının suallarını Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov cavablandırır – 25 iyun 2010-cu il ........................................................................ 50

Azərbaycan Prezidenti Administrasiyasının İctimai- siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun iyulun 22-də qeyd ediləcək milli mətbuatın yaranmasının 135 illik yubileyi ilə bağlı “Trend”-ə müsahibəsi – 14 iyul 2010-cu il ....................................56
**Konfranslar**
Respublika konfransında kütləvi informasiya vasitələrinin dili müzakirə olunur - 25 iyun 2010-cu il ....................................61
Yevlaxda “Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilmişdir - 29 iyun 2010-cu il ....................................62
Azərbaycan mətbuatının 135 illiyi ilə əlaqədar konfrans keçirilmişdir - 30 iyun 2010-cu il ....................................64
Bakı Dövlət Universitetində “Azərbaycan milli mətbuatı 135: tarixi yolu və müasir inkişaf meyilləri” mövzusunda konfrans keçirilmişdir - 30 iyun 2010-cu il ....................................65
Zərdabda “Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilmişdir - 1 iyul 2010-cu il ....................................66
Gəncədə milli mətbuatımızın 135 illiyi ilə əlaqədar konfrans keçirilmişdir - 7 iyul 2010-cu il ....................................69
Şəkidə Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş regional konfrans keçirilmişdir - 9 iyul 2010-cu il ....................................71
Lənkəranda “Azərbaycan milli mətbuatı 135: tarixi nailiyyətlər və perspektivlər” silsiləsindən sayca beşinci konfrans keçirilmişdir - 13 iyul 2010-cu il ....................................74
**Tədbirlər, dəyirmi masalar**
Mətbuat Şurası İdarə Heyətinin növbəti iclası keçirilmişdir - 11 iyun 2010-cu il ....................................78
Milli mətbuatımızın 135 illiyi Ədliyyə Nazirliyində qeyd edilmişdir - 30 iyun 2010-cu il ....................................79
“Dəyirmi masa”da jurnalistlərin sosial vəziyyətinin həlli məsələləri müzakirə edilmişdir - 6 iyul 2010-cu il ....................................80
“Səs” qəzetində milli mətbuatın 135-ci ildönümünə həsr olunmuş “Dəyirmi masa” keçirilmişdir - 7 iyul 2010-cu il ....................................81
Naxçıvan Mətbuat Şurasının növbəti yığıncağı keçirilmişdir - 8 iyul 2010-cu il ....................................83

“...Heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır...” - 9 iyul 2010-cu il ........................................................................84
Milli mətbuatımızın 135 illik yubileyi münasibətilə müsabiqənin qalibləri məlum olmuşdur - 9 iyul 2010-cu il ...................................87
“Azərbaycan milli mətbuatının keçmişi, bu günü, və gələcəyi” mövzusunda tədbir keçirilmişdir - 12 iyul 2010-cu il ........................ 89
“Azərbaycan həqiqətləri beynəlxalq media müstəvisində” mövzusunda “Dəyirmi masa” keçirilmişdir - 15 iyul 2010-cu il ..................................................................................92
Azərbaycan milli mətbuatının 135 illik yubileyinə həsr olunmuş növbəti tədbir Xaçmazda keçirilmişdir - 16 iyul 2010-cu il ................................................................................. 93
Diaspor mövzusunda yazan jurnalistlər mükafatlandırılmışlar - 17 iyul 2010-cu il ...............................................................95
Azərbaycan milli mətbuatının 135 illik yubileyi Səbail rayonunda qeyd olunmuşdur - 19 iyul 2010-cu il ..............................96
Milli Qeyri-Hökumət Təşkilatları Forumu jurnalistləri mükafatlandırmışdır - 19 iyul 2010-cu il .............................................98
135 illik çətin və şərəfli yol - 19 iyul 2010-cu il ....................99
QHT-lərə Dövlət Dəstəyi Şurası jurnalistləri mükafatlandırmışdır - 20 iyul 2010-cu il ..........................................................103
Azərbaycan milli mətbuatının 135 illik yubileyi Binəqədi rayonunda qeyd olunmuşdur - 20 iyul 2010-cu il ..........................104
Nizami rayonunda Azərbaycan milli mətbuatının 135-ci ildönümü qeyd olunmuşdur - 20 iyul 2010-cu il ...............................105
Milli mətbuatımızın 135 illiyi qeyd olunmuşdur - 20 iyul 2010-cu il ......................................................................... 107
“Azərenerji” ASC-də Azərbaycan milli mətbuatının 135 illik yubileyi qeyd edilmişdir - 20 iyul 2010-cu il ..............................108
ARDNŞ-də Azərbaycan milli mətbuatının 135 illik yubileyi qeyd edilmişdir - 21 iyul 2010-cu il ...........................................109
Zaqatalada milli mətbuatın 135 illiyi ilə bağlı tədbir keçirilmişdir - 21 iyul 2010-cu il .........................................................110
Demokratik İslahatlar Partiyasının mükafatına layiq görülən jurnalistlərin adları açıqlanmışdır - 21 iyul 2010-cu il ................................................................................. 111

Astarada Azərbaycan milli mətbuatının 135 illiyinə həsr olunmuş "Dəyirmi masa" keçirilmişdir - 21 iyul 2010-cu il .............. 112
Ağdamda Milli Mətbuat Günü qeyd olunmuşdur - 21 iyul 2010-cu il ........................................................................ 114
Milli mətbuatımızın 135 illiyi İçərişəhərdə də qeyd olunmuşdur - 21 iyul 2010-cu il ........................................................ 115
Milli mətbuatımızın 135 illik yubileyi münasibətilə "Milli dərk anlayışında özünüdərk" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir - 21 iyul 2010-cu il ........................................116
Ağsuda milli mətbuatımızın 135 illik yubileyi qeyd olundu - 22 iyul 2010-cu il ...............................................................117
Lənkəranda Milli Mətbuat Günü qeyd olunmuşdur - 22 iyul 2010-cu il ........................................................................ 118
Masallıda Milli Mətbuat Gününə həsr olunmuş toplantı keçirilmişdir - 22 iyul 2010-cu il ...................................................119
Astara Rayon İcra Hakimiyyətində mətbuat işçiləri ilə görüş keçirilmişdir - 22 iyul 2010-cu il ............................................... 120
Mingəçevirdə jurnalistlərlə görüş keçirilmişdir - 22 iyul 2010-cu il .........................................................................121
Şəkidə milli mətbuatın 135 illiyi qeyd olunmuşdur - 22 iyul 2010-cu il ........................................................................ 122
Heydər Əliyev İrsini Araşdırma Mərkəzi və "Kaspi" qəzeti "135 illik yol" kitabını nəşr etmişdir - 22 iyul 2010-cu il .............123
Beyləqanda Milli Mətbuat Günü qeyd olunmuşdur - 22 iyul 2010-cu il ........................................................................ 125
Azərbaycan Cənubi Qafqazın lider dövləti olduğu kimi, mətbuatımız da bölgədə ən güclüsü və inkişaf etmişidir - 22 iyul 2010-cu il ........................................................................ 126
İşğal edilmiş Azərbaycan əraziləri ilə bağlı keçirilən yazı müsabiqəsinin qalibləri mükafatlandırılmışlar - 22 iyul 2010-cu il ........................................................................ 127
"Azərikimya" İB-də milli mətbuatın 135 illik yubileyi qeyd edilmişdir - 23 iyul 2010-cu il ................................................ 128
Azərbaycan söz azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması sahələrində çox böyük və uğurlu yol keçmişdir - 23 iyul 2010-cu il ........................................................... 129

Azərbaycan mətbuatının böyük ənənələri var və bu ənənələr yaşayır - 23 iyul 2010-cu il ........................................................ 130

Fövqəladə Hallar Nazirliyi KİV nümayəndələrini mükafatlandırmışdır - 24 iyul 2010-cu il ................................................ 131

HEYDƏR ƏLİYEV İRSİNİ ARAŞDIRMA MƏRKƏZİ
HEYDAR ALIYEV HERITAGE RESEARCH CENTER

# İlham Əliyev: “Mən jurnalistləri vətənpərvərliyə çağırıram”

# Ilham Aliyev: “I challenge the journalists to patriotism”

Baku - 2010

*The book developed by Heydar Aliyev Heritage Research Center jointly with the newspaper "Kaspi" "Ilham Aliyev: I challenge the journalists to patriotism" is the second book devoted to the 135 anniversary of the foundation of the national press in Azerbaijan. The book conveys to the readers information in two languages on all the undertaken measures on the state level connected with the Instruction of the President of the Republic of Azerbaijan Ilham Aliyev on the wide scale celebration of the 135th jubilee of the foundation of the national press of Azerbaijan in the whole period since the issuance of the Instruction.*

Heydər Əliyev İrsini Araşdırma Mərkəzi
Heydar Aliyev Heritage Research Center

www.aliyevheritage.org

# İlham Əliyev:
# «Mən jurnalistləri vətənpərvərliyə çağırıram»

# Ilham Aliyev:
# «I challenge the journalists to patriotism»

KASPİ
www.kaspi.az

**Advisor of the series of the publications of Heydar Aliyev Heritage Research Center:**

Asaf Nadirov

Chairman of the Research and Editorial Board of Heydar Aliyev Heritage Research Center, Academician of the National Academy of Sciences of Azerbaijan

**Scientific advisor and author of the foreword:**

Ali Hasanov

Head of the Department on Public-Political Issues of the Presidential Administration, Doctor of Historical Sciences, professor

**Responsible for the publication:**

Vurgun Suleymanov

**Creative Board:**

Fuad Babayev, Director-General of Heydar Aliyev Heritage Research Center

Natig Mammadli, editor-in-chief of "Kaspi" newspaper

Matanat Babayeva
Temkin Mammadli
Gunduz Nasibov

**Language editor:**

Qılıncxan Bayramov

**Designer:**

Javanshir Azizov

**Paginator:**

Elshan Agayev

The materials of the news agency AzerTAC and from the official site (www.president.az) of the President of the Republic of Azerbaijan have been used in the book.

The photo materials of the press service of the President of the Republic of Azerbaijan have been used in the photo block of the book.

*The Azerbaijani journalism has made significant contributions to the determination of the objectives facing the society and to their solution.*

*Heydar Aliyev*

# Foreword



*Ali Hasanov,*
*Chief of Department in the Administration of the President on Public and Political Issues, Doctor of Historical Sciences, professor.*

Celebration of the 135th jubilee of the national press of Azerbaijan in 2010 on a high level and scale was not only a striking example of the care of the state for the mass media functioning in Azerbaijan, but also opened wide perspectives for their future development. Totally the whole month of July of 2010 was devoted to the conduction of the measures connected with the celebration of the 135th anniversary of the national press of Azerbaijan. In all the regions, respective ministries and bodies such celebrations were held and the journalists distinguished at work were awarded.

On June 10, 2010, President of the Republic of Azerbaijan signed an instruction on the celebration of the 135th jubilee of the national press on a wide scale. The instruction charged the respective bodies to hold jubilee celebrations in the capital and towns of the country, to award the workers of the press, and to submit proposals for the decoration of the journalists. To fulfill the objectives, which derive from the said instruction, Ramiz Mehdiyev, head of staff in the Administration of the President, signed the plan of actions which ensured the conduction of the jubilee celebrations in many regions of the republic. Some of these ceremonies were held in Zardab, Yevlakh, Ganja, Shaki, Lankaran and Khachmaz. The last ceremony was held in the capital, in the Palace of Gulustan, on July 22, 2010.

In accordance with the instruction signed by President Ilham Aliyev on July 22, 2010, “On the conferment of the honorary titles on the press workers of the Republic of Azerbaijan” on 38 persons were conferred the honorary title of “Honourd Journalist”, 15 persons – “Honoured Worker of Culture”, and one person – “Honoured Engineer” for their services in the development of the national press of

Azerbaijan. At the same time, 38 persons were decorated with the medal “Taraggi”.

In accordance with the instruction of the President of the Republic on the same day “On financing the 135th jubilee ceremonies of the national press of Azerbaijan and on rendering single-time allowances to the mass media of the Republic of Azerbaijan” one million mantas were allocated from the reserve fund of the President for holding the ceremonies connected with the 135th anniversary of the national press of Azerbaijan and for rendering financial aid to a number of organs of mass media, 32 newspapers were rendered a single-time assistance in the sum of 20.000 manats each and 10.000 manats to each of 8 news agencies.

Besides, the Republican President instructed to allocate 5.000.000 manats from his reserve fund for building residential houses in order to improve their residential conditions.

